# Yeşaya

*Peyğəmbərin Kitabı*

***Giriş***

*«Yeşaya»* Kitabının adı miladdan əvvəl VIII əsrin ikinci yarısında Yerusəlimdə yaşamış Yeşaya adlı böyük peyğəmbərin adı ilə bağlıdır. Yeşaya ibrani dilində «Rəbb xilas edir» mə'nasını verir. Kitabın belə adlanması müəyyən mə'nada kitaba bir mahiyyət verir.

Kitabı üç əsas hissəyə bölmək olar:

(1) 1-39-cu fəsillər cənub padşahlığı olan Yəhudanın qüvvətli qonşusu Aşşur ölkəsi tərəfindən təhdid etdiyi dövrə aiddir. Yeşaya görürdü ki, Yəhudanın həyatı üçün böyük təhlükə yaradan Aşşur yox, xalqın Allaha qarşı itaətsizliyi, günah işlətməsi və Ona tam e'tibarsızlığıdır. Peyğəmbər alovlu nitqləri ilə xalqı və onun başçılarını salehliyə və doğru həyata çağırır. Yeşaya dönə-dönə xəbərdarlıq edirdi ki, Allaha itaətsizlik ölkənin dağılmasına və xalqın məhv olmasına səbəb olacaq. O həm də bütün dünyaya sülh və Davud nəslindən kamil padşah gələcəyini qabaqcadan xəbər verirdi.

(2) 40-55-ci fəsillər tarixi vəziyyətin dəyişməsini özündə əks etdirir. Bu fəsillər Yəhuda xalqının Babil əsarətində olduğu dövrə aiddir. Aşşurlulardan sonra Orta Şərqdə hakimiyyəti ələ keçirən Babillilər miladdan əvvəl 586-cı ildə Yerusəlimi zəbt edib əhalisini Babilə sürgün etdilər. Babil əsirliyi zamanı Yəhuda xalqı ümidini itirmiş və miskin hala düşmüşdü. Belə vəziyyətdə Yeşaya peyğəmbərlik edir ki, Allah Öz xalqını azad edəcək və onlar Yerusəlimdə yeni həyata başlayacaq. Bu fəsillər göstərir ki, tarixi idarə edən Allahdır və Onun xalqına olan amalı başqa millətlərə də aiddir. Bu fəsillər bütün millətlərin İsrail vasitəsilə xeyir-dua alacağından bəhs edir.

(3) 56-66-cı fəsillərdə sürgündə olan yəhudilərin Yerusəlimdə yenidən yaşayacağı və Allahın Öz və'dlərinə sadiq qalmasına əmin ola biləcəkləri bəyan edilir. Burada salehliyə və ədalətə əməl etməyə, Şənbə gününə düzgün riayət edilməsinə, qurban təqdiminə, duaya və oruca xüsusi diqqət yetirilir. İsa Məsih kitabın 61:1-2-ni oxuyaraq Öz çağırışını aşkar etdi və xidmətini başladı.

***Kitabın məzmunu:***


Xəbərdarlıq və və'dlər 1:1-12:6
Millətlərin cəzalandırılması 13:1-23:18
Allahın dünyanı mühakimə etməsi 24:1-27:13
Sonrakı xəbərdarlıq və və'dlər 28:1-35:10
Yəhuda padşahı Xizqiya və Aşşurlular 36:1-39:8
Təsəlli və ümid sözləri 40:1-55:13
Xəbərdarlıq və və'dlər 56:1-66:24


1 [1] Yəhuda padşahları Uzziya, Yotam,
Axaz, Xizqiyanın dövründə Yəhuda və
Yerusəlim barəsində Amots oğlu Yeşayaya
görünən görüntü.

### *Rəbb xalqına xəbərdarlıq edir*

[2] Ey göylər, eşidin,
Ey yer üzü, dinləyin!
Çünki Rəbb belə söylədi:
«Övladlar yetişdirib böyütdüm,
Amma onlar Mənə qarşı asi çıxdılar.
[3] Öküz yiyəsini, eşşək də
Sahibinin təknəsini tanıyır,
Lakin İsrail xalqı Məni tanımır,
Xalqım anlamır».

[4] Günah edən millətin,
Şər işlər görən xalqın,
Yolunu azmış nəslin,
Pozulmuş övladların vay halına!
Onlar Rəbbi tərk etdilər,
İsrailin Müqəddəsinə
Xor baxıb Ondan üz döndərdilər.

[5] Ey İsrail övladları,
Nə üçün yenə də döyüləsiniz,
Niyə üsyan etməkdə davam edirsiniz?
Xoralar başınızı tamamilə bürüyüb,
Ürəyiniz azara düşüb.
[6] Təpədən dırnağacan bədəniniz xəstədir,
Bir sağlam yeriniz yoxdur:
Yaralarınız, zədələriniz,
Yenə də vurulmuş yaralarınız
Təmizlənməmiş, sarılmamış,
Məlhəmlə yumşaldılmamışdır.
[7] Ölkəniz viran qaldı,

---

***1:1*** *– 2Pad. 15:1-7; 2Saln. 26:1-23*
***1:1*** *– 2Pad. 15:32-38; 2Saln. 27:1-9*
***1:1*** *– 2Pad. 16:1-20; 2Saln. 28:1-27*
***1:1*** *– 2Pad. 18:1-20:21; 2Saln. 29:1-32:33*

Şəhərləriniz alışıb-yandı,
Yadellilər gözünüzün önündəcə
torpağınızı yeyib-dağıtdı.
Torpağınız kimsəsiz qalıb,
Sanki yad adamlar oranı talayıb.
8 Sion qızı bağdakı çardaq, bostandakı
koma,
Mühasirəyə alınmış şəhər kimi tək qalıb.
9 Əgər Ordular Rəbbi
Bizim xalqdan bir neçə
Sağ qalan adam qoymasaydı,
Biz Sodom kimi olardıq,
Homorraya bənzəyərdik.

10 Ey Sodom başçıları,
Rəbbin sözünü eşidin!
Siz, ey Homorra xalqı,
Allahımızın tə'limini dinləyin!
11 Rəbb deyir:
«Mənə nə qurbanlarınızın çoxluğundan?
Yandırma qoç qurbanlarından,
Bəslənmiş heyvanların piyindən
doymuşam.
Buğa, quzu, təkə qanını istəmirəm.
12 Hüzuruma gələrkən
Əlinizdə bunları gətirməyinizi kim istədi?
Mə'bədimin həyətlərinə boş yerə ayaq
basırsınız.
13 Mənə artıq batil təqdimlər gətirməyin,
Buxur Məndə ikrah yaradır.
Pisliklə dolu
Təzə Ay mərasimlərinizə,
Şənbə günlərinizə,
Müqəddəs toplantılarınıza
Dözə bilmirəm!
14 Təzə Ay mərasimlərinizə,
Bayram günlərinizə
Ürəkdən nifrət edirəm.
Bunlar Mənə yük oldu,
Onları daşımaqdan üzüldüm.
15 Siz əl açıb Mənə yalvaranda
Göz yumacağam.
Nə qədər çox dua etsəniz də,
Yenə qulaq asmayacağam.
Əlləriniz qanla doludur,
16 Yuyunub təmizlənin,
Gözümün önündə işlərinizi şərdən
uzaqlaşdırın,
Pislik etməkdən vaz keçin.
17 Yaxşılıq etməyi öyrənin,
Ədaləti axtarın,
Məzlumları qurtarın,
Yetimin haqqını qoruyun,
Dul qadını müdafiə edin».

18 Rəbb deyir:
«Gəlin indi birgə düşünək bu an,
Günahlarınız qıpqırmızı parça kimi
görünsə də,
Onlar qar kimi ağ olacaq,
Tünd qırmızı rəngə çalsa da,
Onlar ağ yun kimi bəyaz olacaq.
19 İtaətkar olub sözə baxsanız,
Torpağın ən gözəl bəhrələrindən
yeyərsiniz.
20 Əgər üsyankar olub Məni rədd etsəniz,
Qılıncdan məhv olacaqsınız».
Bu sözlər Rəbbin ağzından çıxıb.

### *Günahlı şəhər*

21 Rəbbə sadiq şəhər
Necə də fahişəyə bənzər oldu!
Axı o ədalətli şəhər idi,
Orada salehlik məskunlaşmışdı,
İndi isə qatillərlə doludur!
22 Gümüşünüz tullantıya çevrildi,
Şərabınıza su qatıldı.
23 Başçılarınız asi olub oğrularla əlbirdir.
Hər kəs rüşvəti sevir, bəxşiş dalınca
düşür.
Yetimin haqqını qorumur,
Dul qadını müdafiə etmək haqqında
düşünmür.

24 Buna görə də Sahibimiz, Ordular
Rəbbi,
İsrailin Qadir Allahı
Belə bəyan edir:
«Yağılarımı cəzalandırıb
rahatlanacağam,
Düşmənlərimdən qisas alacağam.
25 Ey İsrail xalqı, sənə əlimi uzadacağam,
Paxırını gilabı ilə təmizləyəcəyəm,
Bütün çirkini yuyacağam.
26 Hakimlərini, məsləhətçilərini
Əvvəlki kimi geri qaytaracağam.
Sənə yenidən:
"Salehlik şəhəri, sadiq şəhər" deyiləcək».
27 Sion ədalətlə,
Tövbə edən sakinləri salehliklə
qurtulacaq.
28 Lakin asilərlə günahkarlar
Birgə həlak olacaq,

---

***1:9** – Yar. 19:24; Rom. 9:29*
***1:11-14** – Amos 5:21-22*

Rəbbi tərk edənlər yox olacaq.

29 Palıd ağaclarına
Səcdə etməkdən xəcalət çəkəcəksiniz,
Seçdiyiniz bağlarda ibadət etməkdən
utanacaqsınız.
30 Yarpaqları solmuş palıd ağacına,
Susuz bağa dönəcəksiniz.
31 Güclü adam kətan qırıntısına
oxşayacaq,
Gördüyü iş qığılcım kimi olacaq,
İkisi birlikdə yanacaq,
Onları söndürən olmayacaq.

### *Rəbbin dağı*

*(Mik. 4:1-3)*

2 1 Amots oğlu Yeşayanın Yəhuda və
Yerusəlim barəsində gördükləri:
2 Son günlərdə Rəbbin evi olan dağ
Dağların zirvəsində möhkəm duracaq,
Təpələrdən yuxarı ucalacaq.
Bütün millətlər ona sarı gələcək.
3 Çox xalqlar gəlib deyəcək:
«Gəlin Rəbbin dağına,
Yaqubun Allahının evinə qalxaq,
Qoy Rəbb bizə Öz yolunu öyrətsin,
Biz Onun yolu ilə gedək».
Siondan Rəbbin tə'limi,
Yerusəlimdən Onun kəlamı yayılacaq.
4 Millətlər arasında Rəbb hakim olacaq,
Çox xalqlar haqqında qərar çıxaracaq.
Onlar qılınclarından kotan,
Nizələrindən isə dəryaz düzəldəcək.
Millət millətə qarşı qılınc qaldırmayacaq,
Artıq dava etməyi öyrənməyəcək.
5 Ey Yaqub nəsli, gəlin Rəbbin nurunda
gəzək.

### *Rəbbin günü*

6 Ya Rəbb, xalqını – Yaqub nəslini atdın,
Çünki onlar
Şərqdən gələn mövhumatlara
uymuşdular,
Filiştlilər kimi falçılıq edirlər,
Əcnəbilərin adət-ən'ənələrinə əməl
edirlər.
7 Ölkələri qızıl-gümüşlə dolu,
Xəzinələrinin sonu yoxdur.
Ölkələrində çoxlu atlar var,
Döyüş arabaları külli miqdardadır.
8 Ölkələri bütlərlə doludur,
Əlləri ilə düzəltdikləri,
Barmaqları ilə işlədikləri
Bütlərin qarşısında səcdə qılırlar.
9 Buna görə də hamı yerə səriləcək,
Hər kəs diz üstə çökdürüləcək.
Ya Rəbb, onları bağışlama!

10 Rəbbin zəhmli üzündən,
Ehtişamının əzəmətindən
Qayalıqlara gedin,
Yerin altında gizlənin.
11 Adamların təkəbbürlü baxışları
alçaldılacaq,
İnsanların qüruru qırılacaq,
O gün yalnız Rəbb yüksəldiləcək.
12 Çünki o gün Ordular Rəbbi
Bütün qürurluları, lovğaları, məğrurları
alçaldacaq.
13 Livanın bütün hündür və vüqarlı sidr
ağaclarını məhv edəcək,
Bütün Başanın palıdlarını yox edəcək.
14 Bütün ulu dağları, hündür təpələri,
15 Bütün yüksək qüllələri,
Qala divarlarını yerlə yeksan edəcək,
16 Bütün Tarşiş gəmilərini,[1]
Bütün gözəl gəmiləri yox edəcək.
17 Adamların təkəbbürü qırılacaq,
İnsanların qüruru alçaldılacaq,
O gün yalnız Rəbb ucaldılacaq.
18 Bütlər tamamilə aradan götürüləcək.

19 Rəbb yeri sarsıtmağa qalxanda
Onun zəhmli üzündən, ehtişamının
əzəmətindən
Hər bir insan qayalıqdakı mağaralara,
Yerin altındakı xəndəklərə qaçıb girəcək.
20 O gün insanlar
Səcdə etmək üçün düzəlmiş
Qızıl və gümüş bütlərini götürüb
Köstəbək və yarasaların
Qabağına atacaqlar ki,
21 Rəbb yeri sarsıtmağa qalxarkən
Onun zəhmli üzündən, ehtişamının
əzəmətindən
Qaçmaq üçün qayalıqdakı çatlaqlara,
Uçurumlardakı yarıqlara girsinlər.

22 Nəfəsi burun deşiyində olan
Fani insana arxalanmayın.

***2:4*** *– Yoel 3:10*

***2:10*** *– 2Sal. 1:9*
***2:10*** *– Vəhy 6:15*
[1] **2:16** *Tarşiş gəmiləri* yə'ni *ticarət gəmiləri.*
***2:19-21*** *– Vəhy 6:15*

Onun nə dəyəri var ki?

### *Yerusəlimdə qarmaqarışıqlıq*

3 [1] Budur, Sahibimiz, Ordular Rəbbi
Yerusəlimdən və Yəhudadan hər bir
yardımı,köməyi kəsəcək,
Orada çörək, su tədarükü qalmayacaq.
[2] İgidlərlə cəngavərləri,
Hakimlərlə peyğəmbərləri,
Falçılarla ağsaqqalları,
[3] Əllibaşılarla adlı-sanlı adamları,
məsləhətçiləri,
Mahir sehrbazlarla cadugərləri aradan
götürəcək.
[4] Uşaqları onların üzərinə başçı
qoyacağam,
Qoy körpələr onlara hökm etsin.
[5] İnsan insana, qonşu qonşusuna,
Cavan yaşlı ilə, adi adam nüfuzlu insanla
Həyasızcasına rəftar edəcək.

[6] Ailədə qardaş qardaşa
Sarılıb deyəcək: «Sənin heç olmasa
Əyninə geyməyə paltarın var.
Başçımız ol,
Qoy bu xarabalıqlar sənin əlinin altında
olsun!»
[7] O vaxt bu adam uca səslə söyləyəcək:
«Mən yaralarınızı sarımağı bacarmaram,
Çünki evimdə nə yemək, nə də paltar var,
Məni xalqın başçısı qoymayın».

[8] Yerusəlim sarsıldı, Yəhuda dağıldı,
Çünki sözləri və əməlləri
Rəbbə qarşı oldu,
Onun əzəmətli hüzuru kimsə tərəfindən
sayılmadı.
[9] Sifətlərinin ifadəsi onlara qarşı şəhadət
edir,
Günahları haqda Sodomdakı kimi açıq
danışırlar,
Bunu gizlətmirlər.
Vay onların halına!
Axı bu bəlanı özləri gətirdi başlarına.

[10] Saleh adamlara söyləyin ki,
Onlara yaxşılıq ediləcək,
Çünki onlar xeyirxahlıqlarının bəhrəsini
yeyəcək.
[11] Pis adamların vay halına!
Çünki onlara pislik olunacaq,
Elədikləri əməlləri qarşılarına çıxacaq.
[12] Uşaqlar xalqıma zülm edir,
Qadınlar üzərimizdə hökm sürür!
Ey xalqım, sənə yol göstərənlər
Səni azdırır, yolunu dolaşdırırlar!
[13] Rəbb məhkəməsini qurmaq üçün
qalxır,
Xalqları mühakimə etmək üçün durur.
[14] Rəbb xalqının rəhbərlərini,
Başçılarını məhkəməyə gətirir:
«Sizsiniz üzüm bağını yeyib-dağıdan,
Kasıbların malı ilə evlərinizi dolduran.
[15] Nə haqla xalqıma zülm edib
Yoxsullara əzab verirsiniz?»
Bunu Xudavənd, Ordular Rəbbi bəyan
edir.

### *Yerusəlim qadınlarına xəbərdarlıq*

[16] Rəbb deyir:
Sion qızları çox təkəbbürlüdür,
Boylana-boylana gəzir, göz-qaş oynadır,
Addımlarını asta-asta atırlar,
Ayaqlarındakı xalxalları cingildədib
yeriyirlər.
[17] Buna görə də Xudavənd
Sion qızlarının başlarına qotur salacaq.
Ayıb yerlərini açıb göstərəcək.

[18] O gün Xudavənd bəzəklərini –
Topuqlara taxılan bilərziklərini,
Araqçınlarını, aypara şəkilli
boyunbağılarını,
[19] Sırğalarını, qolbaqlarını, örpəklərini,
[20] Tac şəkilli başlıqlarını,
Bazubəndlərini, qurşaqlarını,
Ətirlə dolu mücrülərini,
Tilsimlənmiş bəzək əşyalarını,
[21] Üzüklərini, burun halqalarını,
[22] Bayram libaslarını, paltarlarını,
Örtüklərini, əl çantalarını,
[23] Güzgülərini, nəfis toxunmuş kətan
libaslarını,
Çalmalarını, duvaqlarını əllərindən
alacaq.
[24] O vaxt gözəl ətir qoxusu yerinə üfunət
iyi,
Qurşaq əvəzinə ip,
Gözəl daranmış saç əvəzinə keçəl baş,
Bayram libası əvəzinə çul geyiniləcək,
Gözəllik əvəzinə damğa vurulacaq.
[25] Kişiləriniz qılıncdan tələf olacaq,
İgidləriniz döyüşdə yox olacaq.
[26] Yerusəlimin darvazaları
Nalə çəkib yas tutacaq,
Bu şəhər isə kimsəsiz qadın tək,

Quru yerdə oturacaq.
4 [1] O gün yeddi qadın bir kişinin
yaxasından tutub
Belə deyəcək:
«Öz çörəyimizi yeyib
Öz paltarımızı geyinərik,
Təki adın üstümüzdə olsun,
Xəcalətdən bizi qurtar».

### *Yerusəlimin gələcəyi*

[2] O gün Rəbbin Pöhrəsi gözəl və
əzəmətli olacaq,
İsrail xalqından xilas olub sağ qalanlar
Torpağın verdiyi bəhrə ilə
Fəxr edib şərəflənəcəklər.
[3] Sionda, yə'ni Yerusəlimdə sağ
qalanlara,
Orada qeyd olunub yaşayanlara
«müqəddəs» deyiləcək.
[4] Xudavənd Sion qızlarının
Murdarlığını yuyan zaman
Ədalət və alov ruhu ilə
Yerusəlimi günahlı qandan təmizləyəcək.
[5] Sonra Rəbb Sion dağının hər yanını,
Orada toplananların üzərini gündüz
bulud və tüstü,
Gecə isə parlaq alovla örtəcək.
Həqiqətən, əzəmətli şəhərin üzərinə
örtük olacaq.
[6] Bu, bir çardaq, qızmar istidə kölgə,
Yağışa, fırtınaya qarşı sığınacaq,
Daldalanma yeri olacaq.

### *Üzüm bağı haqqında nəğmə*

5 [1] Sevgilimin üzüm bağı barəsində
Məhəbbət nəğməsini oxuyuram:

Torpağın məhsuldar bir təpəsində
Sevgilimin bir üzüm bağı var idi.
[2] O, torpağı belləyib daşları kənara atdı,
Seçmə meynələr əkdi,
Ortada gözətçi qülləsi tikdi,
Üzümsıxan düzəltdi,
Üzümlüyün barını gözlədi,
Amma bağ cır üzüm gətirdi.

[3] «İndi isə xahiş edirəm, ey Yerusəlimdə
yaşayanlar,
Ey Yəhuda adamları,
Mənimlə üzüm bağımın arasında hakim
olun!
[4] Bağım üçün daha nə etməliyəm?
Üzümlüyün barını gözləyərkən
Axı nə üçün bağım cır üzüm gətirsin?
[5] İndi qoy mən sizə bağımla nə
edəcəyimi bildirim:
Çəpərini sökəcəyəm və meynələrini
heyvanlar yeyib-qurtaracaq,
Hasarını yıxacağam və onlar
tapdalanacaq.
[6] Oranı viranəliyə çevirəcəyəm,
Oranı nə budayacaqlar, nə də
belləyəcəklər.
Orada tikan və qanqal bitəcək,
Buludlara əmr edəcəyəm ki,
Üzərinə yağış yağmasın».
[7] İsrail nəsli Ordular Rəbbinin üzüm
bağıdır,
Yəhuda adamları isə Onun sevimli
meynələridir!
O, ədalət gözləyirdi,
Budur, zorakılıq gördü,
O, salehlik gözləyirdi,
Budur, fəryadlar gördü!

### *İnsanların pis əməlləri*

[8] Yer qalmayana qədər evi evə,
Tarlanı tarlaya birləşdirənlərin vay
halına!
Yaşamağa yer qoymamısınız,
Məgər bu ölkədə tək siz yaşayırsınız?
[9] Ordular Rəbbi mənə belə eşitdirdi:
«Böyük və yaraşıqlı çoxlu evlər xaraba
qalacaq,
İçində yaşayan olmayacaq.
[10] Üzümlüyün on sahəsindən[2] bir bat
şərab əldə ediləcək,
Bir xomer toxumdan bir efa taxıl əmələ
gələcək».

[11] Vay halına səhər erkən qalxıb içki
ardınca düşənlərin,
Gecə yarısınadək şərab içib
keflənənlərin!
[12] Onların ziyafətlərində
Lira, çəng, dəf və ney çalınar,
Şərab içilər,
Lakin onlar Rəbbin gördüyü işlərə
Diqqət etməzlər, əməllərinə baxmazlar!
[13] Buna görə xalqım ağılsızlığından
sürgünə gedəcək,

---

***4:5*** *– Çıx. 13:21; 24:16*
***5:1-2*** *– Mat. 21:33; Mrk. 12:1; Luk. 20:9*

[2] **5:10** *On sahə* – ibrani dilində *on cüt öküzün bir gündə şumladığı torpaq sahəsi,* təqribən 16 000 kvadrat metr.

Onun adlı-sanlı adamları acından öləcək,
Adi adamlar isə susuzluqdan yanacaq!
14 Ölülər diyarı həddindən artıq ağzını
açıb
Doymaq bilmir.
Yerusəlimin adlı-sanlıları,
Adi adamları, səs-küylə əylənən
insanları bu diyara enəcək.
15 Buna görə də hamı yerə səriləcək,
Hər kəs diz üstə çökdürüləcək,
Təkəbbürlü baxışlar alçaldılacaq.
16 Amma Ordular Rəbbi
Ədaləti ilə ucaldılacaq,
Müqəddəs Allah salehliyi ilə
Müqəddəsliyini göstərəcək.
17 Quzular öz otlaqlarındakı kimi
otlayacaq,
Varlıların viranə qalan evlərini yadellilər
alacaq.

18 Pisliyi yalanla hörülmüş iplərlə,
Günahı araba kəndirləri ilə çəkənlərin
vay halına!
19 Onlar deyirlər: «Qoy Allah tələssin,
Öz əməlini tez həyata keçirsin, biz də
görək.
Qoy İsrailin Müqəddəsinin niyyəti
gerçək olsun ki, bunu bilək!»
20 Vay halına pisə yaxşı, yaxşıya pis
söyləyənlərin,
Qaranlığı işıq, işığı qaranlıq sayanların,
Acıya şirin, şirinə acı deyənlərin!
21 Vay halına özlərini müdrik zənn
edənlərin, ağıllı sayanların!
22 Vay halına şərab içməkdə özlərini
mahir sayanların,
İçkiləri qarışdırıb içməkdə pərgar
olanların!
23 Vay halına rüşvət alıb təqsirkara
bəraət qazandıranların,
Haqlıların haqqını əlindən alanların!

24 Beləliklə, alov samanı yeyib bitirən
kimi
Od içində küləş necə birdən alışıb yox
olursa,
Onlar da köklərindən elə çürüyüb
gedəcək,
Tumurcuqları toz kimi havaya
sovrulacaq,
Çünki Ordular Rəbbinin qanununu rədd
etdilər,
İsrailin Müqəddəsinin sözünə xor
baxdılar.
25 Buna görə də Rəbbin qəzəbi öz
xalqına qarşı alovlandı,
Əlini onlara qarşı uzadaraq onları vurdu.
Dağlar titrədi, meyitləri zibil kimi
küçələrə sərildi,
Bütün bunlara qarşı yenə də Rəbbin
qəzəbi sönmədi,
Əli hələ də cəzalandırmağa hazır idi.

26 Rəbb uzaqda yaşayan millətləri
Bayraq işarəsi ilə,
Onları yer üzünün ucqarlarından
Fit səsi ilə səsləyəcək.
Tezliklə bu millətlər gələcək.
27 Aralarında yorulan, büdrəyən
olmayacaq.
Onlar mürgüləməyəcək və yuxuya
getməyəcək,
Belindəki kəmər açılmayacaq, ayaqqabı
bağı qırılmayacaq.
28 Onların oxları iti, yayları da
dartılmışdır.
Atların dırnaqları çaxmaq daşına bənzər,
Döyüş arabalarının təkərləri qasırğa
kimidir.
29 Onların nə'rəsi bağıran şikarlarını
qapıb aparan,
Kimsə onu əlindən ala bilməyən
Şirin, gənc aslanın nə'rəsinə bənzər.
30 O gün İsrailə qarşı onlar dənizin
uğultusu kimi gurlayacaqlar.
Kim yerə baxarsa, budur, zülmət, dərd
görəcək.
Axı işıq qara buludlarla örtülüb.

### *Yeşayanın görüntüsü*

6 1 Padşah Uzziya ölən il mən
Xudavəndi gördüm. O, uca və əzəmətli
taxtda oturmuş və geyimlərinin ətəyi
mə'bədin döşəməsini örtmüşdü. 2 Onun
ətrafında seraflar[3] dayanmışdı. Hər birinin altı
qanadı var idi. Qanadının ikisi ilə üzlərini,
ikisi ilə ayaqlarını örtmüş, ikisi ilə uçurdular.
3 Biri o birini səsləyib deyirdi: «Ordular Rəbbi
müqəddəsdir, müqəddəsdir, müqəddəsdir!
Bütün yer üzü Onun əzəməti ilə doludur».
4 Serafların səsindən qapı çərçivələri ilə

***6:1** – 2Pad. 15:7; 2Saln. 26:23*
[3] **6:2** *Seraf* – bir mələk növü.
***6:3** – Vəhy 4:8*
***6:4** – Vəhy 15:8*

kandarları sarsıldı, mə'bəd tüstü ilə doldu.
5 Mən dedim: «Vay, həlak oldum! Çünki ağzı
murdar bir adamam, həm də murdar ağızlı
adamlar arasında yaşayıram. Buna
baxmayaraq qarşımda Padşahı – Ordular
Rəbbini gözlərimlə gördüm».

6 Seraflardan biri mənə tərəf uçdu, əlində də
maşa ilə qurbangahdan götürdüyü yanar
kömür var idi. 7 O, kömürlə dodaqlarıma
toxunaraq dedi: «Budur, bu kömür
dodaqlarına dəydi, pisliyin silindi, günahın
bağışlandı».

8 Sonra Xudavəndin səsini eşitdim: «Kimi
göndərim? Bizim üçün kim gedəcək?» Mən
dedim: «Mən buradayam. Məni göndər». 9 O
dedi: «Get bu xalqa bunu çatdır: "Eşitdikcə
eşidəcəksiniz, amma anlamayacaqsınız,
gördükcə görəcəksiniz, amma
qanmayacaqsınız. 10 Bu xalqın ürəyini
kütləşdir, qulaqlarını kar elə, gözlərini yum ki,
gözləri ilə görməsinlər, qulaqları ilə
eşitməsinlər, ürəkləri ilə anlamasınlar və
Mənə sarı dönüb şəfa tapmasınlar"».

11 «Nə vaxtadək, ya Xudavənd?» deyə
soruşdum. Rəbb cavab verdi: «Şəhərlər
xarabalıqlara dönüb kimsəsiz, evlər adamsız,
bu torpaq büsbütün viranə qalanadək. 12 Rəbb
adamları çox uzaqlara sürgün edəcək, ölkənin
çox yerləri viran qalacaq. 13 Xalqın onda biri
qalsa belə, ölkə yenə məhv olacaq. Lakin
yabanı püstə və palıd ağacı kəsiləndə kötüyü
qalır, müqəddəs nəsil ölkənin kötüyündən
çıxacaq».

### *Padşah Axaza bir işarə: İmmanuel*

7 1 Uzziya oğlu Yotam oğlu Yəhuda
padşahı Axazın hökm sürdüyü dövrdə
Aram padşahı Resinlə İsrail padşahı Remalya
oğlu Peqah Yerusəlimə hücum etdilər, amma
oranı ala bilmədilər.

2 Davud nəslinə xəbər verildi ki,
Aramlılarla Efrayimlilər birləşib ordu
düzəldib. Padşahın və xalqın ürəyi meşə
ağacları küləkdən titrəyən kimi titrədi.

3 Rəbb Yeşayaya dedi: «Axazı qarşılamaq
üçün oğlun Şear-Yaşuvla[4] birgə yuxarı
hovuzun su yolunun qurtaracağına,
Mahudbasan tarlasına gedən yola çıx». 4 Ona
belə de: «Qorxma, diqqətli və sakit ol! Qoy
ürəyin bu iki tüstülənən, yarısı yanmış odun
parçasından – Resin və Remalya oğlunun
qızğın qəzəbindən qorxmasın! 5 Aram,
Efrayim və Remalya oğlu sizə qarşı şər
quraraq 6 belə deyir: "Gəlin Yəhudanın
əleyhinə çıxaq, vahiməyə salaraq zəbt edək və
Tabel oğlunu oraya padşah qoyaq"».
7 Xudavənd Rəbb belə deyir: «Bu iş
olmayacaq, baş tutmayacaq. 8 Çünki Aramın
paytaxtı Dəməşqdir, Dəməşqin başçısı da
Resindir. Efrayim isə altmış beş ildən sonra
darmadağın edilib xalq kimi qalmayacaq.
9 Efrayimin paytaxtı Samariyadır,
Samariyanın başçısı isə ancaq Remalyanın
oğludur. Əgər imanda möhkəm durmasanız,
heç dayana bilməzsiniz».

10 Rəbb yenə Axaza söylədi: «Allahın
Rəbdən bir işarə istə. 11 Qoy ya ölülər diyarı
qədər dərin ya da göylər qədər uca olsun».
12 Lakin Axaz cavab verdi: «Xeyr, Rəbbi
sınamaq istəmirəm». 13 Bunun üstündən
Yeşaya belə dedi: «Eşidin, ey Davud nəsli!
İnsanları bezdirməyiniz bəs deyilmi ki,
mənim Allahımı da bezdirirsiniz? 14 Buna
görə də Xudavənd Özü sizə işarə verəcək:
budur, bakirə qız hamilə olub oğlan doğacaq,
adını İmmanuel[5] qoyacaq. 15 Bu uşaq pisi
yaxşıdan ayıran yaşa çatanda kəsmik və bal
yeyəcək. 16 Amma bu uşaq yaxşını pisdən
ayıran yaşa çatmazdan əvvəl səni dəhşətə
salan o iki padşahın torpaqları boş qalacaq.
17 Rəbb səni, xalqını və ata nəslini Efrayimin
Yəhudadan ayrıldığı bu günə qədər
görünməyən fəlakətə uğradacaq, Aşşur
padşahını üstünüzə gətirəcək.

18 O vaxt gələndə Rəbb fit çalacaq və Misir
çaylarının mənsəblərində yaşayanları
milçəklər kimi, Aşşur torpaqlarında
yaşayanları arılar kimi səsləyəcək. 19 Onlar
axın-axın gəlib dərin vadilərdə, qaya
yarıqlarında, bütün tikanlı kolluqlarda,
otlaqlarda məskunlaşacaq. 20 O gün Xudavənd
Fəratın o tayından muzdla tutduğu ülgüclə –
Aşşur padşahı ilə saçlarınızı, bədəndəki
tüklərinizi və saqqallarınızı qırxacaq. 21 O gün
bir düyə ilə bir cüt qoyun bəsləyən 22 aldığı
bol süd nəticəsində kərə yağı yeyəcək. Ölkədə
qalan hər bir kəs kərə yağı ilə bal yeyəcək.

---

***6:9-10*** *– Mat. 13:14-15; Mrk. 4:12; Luk. 8:10; Yəh. 12:39-40; Həv. 8:26-27*

***7:1*** *– 2Pad. 16:5; 2Saln. 28:5-6*

[4] **7:3** *Şear-Yaşuv* – ibrani dilində *sağ qalanlar dönəcək.*

***7:14*** *– Mat. 1:22-23*

[5] **7:14** *İmmanuel* – ibrani dilində *Allah bizimlədir.*

23 O gün min gümüş dəyərində min tənək olan bağ tikanlı, qanqallı çölə dönəcək. 24 Adamlar oralardan oxlarla, kamanlarla keçəcək, çünki ölkənin hər yanı tikan və qanqalla örtüləcək. 25 Bir vaxt şumlanıb əkin əkilən təpələr kimsənin girə bilməyəcəyi tikanlı, qanqallı çölə dönəcək, mal-qaranın gəzdiyi, qoyun-keçinin tapdaladığı yerlərə çevriləcək».

### *İşarə: Maher-Şalal-Xaş-Baz*

8 1 Rəbb mənə belə dedi: «Böyük tumar götür və üstündə aydın hərflərlə Maher-Şalal-Xaş-Baz[6] yaz. 2 Kahin Uriya ilə Yeverekya oğlu Zəkəriyyəni özümə e'tibarlı şahid seçdim».

3 Sonra mən peyğəmbər olan arvadımla yaxınlıq etdim və o hamilə olub bir oğlan doğdu. Rəbb mənə dedi: «Onun adını Maher-Şalal-Xaş-Baz qoy. 4 Çünki körpə "anam, atam" deməyi öyrənməzdən əvvəl Dəməşqin sərvəti və Samariyanın qəniməti Aşşur padşahına aparılacaq».

5 Rəbb mənimlə yenə danışıb belə dedi: 6 «Bu xalq sakit axan Şiloax sularını rədd edib Resinlə Remalyanın oğluna meyl saldıqlarına görə 7 Mən Xudavənd, Fəratın coşan qüdrətli sularını – Aşşur padşahı və onun qüvvətini bu xalqın üstünə gətirəcəyəm. Bu sular öz yataqlarından yuxarı qalxaraq aşıb-daşacaq. 8 Bu sular Yəhudanı bürüyüb basacaq, ölkənin boğazına qədər çatacaq. Ordular qanadlarını açıb ölkəni başdan-başa örtəcək, ey İmmanuel!» 9 Ey xalqlar, pis işlər görün və qırılın! Ey yer üzünün bütün uzaq ölkələri, eşidin! Döyüşə hazırlaşın və qırılın! Bəli, döyüşə hazırlaşın və qırılın! 10 Birlikdə məsləhətləşin, o boşa çıxacaq. İstədiyiniz qədər danışın, heç bir söz gerçək olmayacaq, çünki Allah bizimlədir.

### *Rəbbin Öz xalqına xəbərdarlığı*

11 Rəbb bu xalqın tutduğu yol ilə getməməyi söyləyərək məni qüdrətli əli ilə saxladı və belə xəbərdarlıq etdi: 12 «Bu xalqın sui-qəsd dediyi hər şeyə siz sui-qəsd deməyin, onların qorxduqlarından qorxmayın, lərzəyə gəlməyin. 13 Ordular Rəbbini müqəddəs sayın, Ondan qorxun və lərzəyə gəlin! 14 O, müqəddəs məkan olacaq, amma İsrailin iki padşahlığına büdrəmə daşı və yıxırdan qaya, Yerusəlim sakinlərinə tələ və tor olacaq. 15 Bir çoxları büdrəyib yıxılacaq və qırılacaq, tələyə düşüb əsir aparılacaq».

16 Ya Rəbb, şagirdlərimin arasında şəhadətini saxla, tə'limini möhürlə! 17 Yaqub nəslindən üzünü gizlədən Rəbbi gözləyəcəyəm, Ona ümid edəcəyəm. 18 Mən və Rəbbin mənə verdiyi övladlar Sion dağında məskunlaşan Ordular Rəbbinin İsraildəki rəmzləri və nişanələriyik.

19 Sizə bə'zi adamlar deyəndə ki, «pıçıldayıb mırtıldayan cindarlarla, ruhçağıranlarla danışın», onlara belə cavab verin: «Xalq öz Allahından məsləhət almamalıdırmı? Heç dirilər barəsində ölülərlə danışarlarmı? 20 Allahın tə'liminə, şəhadətinə sarı dönün! Əgər onlar Allahın kəlamı ilə danışmasalar, onlar üçün nur şəfəqi saçmayacaq. 21 Onlar çarəsiz və ac qalıb ölkəni dolanıb gəzəcək. Ac qalanda qəzəblənəcəklər, padşahlarını və özlərinin Allahını lə'nətləyəcəklər. 22 Göyə də, yerə də baxsalar, əzabdan, qaranlıqdan, zülmətdən savayı heç bir şey görməyəcəklər. Qatı zülmətə atılacaqlar».

### *Əmin-amanlıq Hökmdarı*

9 1 Lakin əzab çəkmiş xalq qaranlıqda qalmayacaq. Keçmişdə Zevulun və Naftali bölgələri alçaldılsalar da, gələcəkdə dənizkənarı yolu, İordan çayının o biri tayı və müxtəlif millətlər yaşayan Qalileya şərəfə çatacaq.

2 Zülmətdə yaşayan xalq
Möhtəşəm bir işıq gördü.
Ölüm kölgəsi diyarında
məskunlaşanların
Üzərinə nur doğdu.
3 Ya Rəbb, milləti çoxaldıb sevinclərini
artırdın,
Əkib-biçənlərin fərəhləndiyi,
Qənimət bölənlərin sevindiyi kimi
Onlar da Sənin hüzurunda sevindilər.
4 Çünki onlara yük olan boyunduruğunu,
Çiyinlərini döyən çomağını,
Onlara zülm edənlərin dəyənəyini çilik-
çilik etmisən

---

[6] **8:1** *Maher-Şalal-Xaş-Baz* – ibrani dilində *tez qarət elə, cəld talan et.*

***8:12-13*** – *1Pet. 3:14-15*

***8:14-15*** – *Rom. 8:32; 1Pet. 2:7-8*

***8:17-18*** – *İbr. 2:13*

***9:1*** – *Mat. 4:14-15*

***9:2*** – *Mat. 4:16; Luk. 1:79*

Midyanlıların başlarına gətirdiyin gün
kimi.
5 Döyüşdə geyilən çəkmələri,
Qana bulanmış geyimləri yandırılacaq,
Oda yem olacaq.
6 Çünki bizim üçün körpə doğuldu,
Bizə oğul verildi,
Hakimiyyət onun çiyinləri üzərində
olacaq,
Onun adı E'cazkar,
Məsləhətçi, Qüdrətli Allah,
Əbədi Ata, Əmin-amanlıq Hökmdarı
olacaq.
7 Hakimiyyətinin və əmin-amanlığının
artmasının sonu olmayacaq,
O, Davudun taxtı və səltənəti üzərində
hökm sürəcək,
O, hakimiyyətini ədalətlə və salehliklə
indidən əbədi olaraq quracaq.
Ordular Rəbbinin qeyrəti bunu edəcək.

### *Rəbbin İsrailə qarşı qəzəbi*

8 İsrail üzərində həyata keçirilsin deyə
Rəbb Yaqub nəslinin əleyhinə
xəbərdarlıq etdi.
9 Bütün xalq,
Efrayimin, Samariyanın sakinləri
Bunu biləcək.
Bu qürurlu, təkəbbürlü xalq belə deyir:
10 «Kərpic evlərimiz yıxıldı,
Amma əvəzinə yonma daşdan evlər
tikərik.
Fir'on ənciri ağacları kəsildi,
Amma biz onların əvəzinə sidr ağacları
əkərik».
11 Buna görə Rəbb Resinin düşmənlərini
gücləndirəcək,
Yağılarını dirçəldəcək,
12 Aramlılar şərqdən,
Filiştlilər qərbdən
Ağızlarını açıb İsraili udacaq.
Bütün bunlara qarşı yenə də Rəbbin
qəzəbi sönmədi,
Əli hələ də cəzalandırmağa hazır idi.

13 Amma xalq onu cəzalandıran Rəbbə
tərəf dönmədi,
Ordular Rəbbini axtarmadı.
14 Buna görə Rəbb İsraildən başı,
quyruğu,
Xurma ağacının budağını, qarğını bir
gündə kəsib atacaq.
15 Baş – ağsaqqal və hörmətli şəxsdir,
Quyruq isə yalan tə'lim verən
peyğəmbərdir.
16 Bu xalqa yol göstərənlər onları azdırır,
Onların yolu ilə gedənlər qırılır.
17 Buna görə də Xudavənd
Onların cavanlarına görə sevinməyəcək,
Yetimlərin və dul qadınların halına
yanmayacaq.
Çünki hamı allahsızdır,
Şər işlər görür,
Hamının ağzından axmaq kəlmələr çıxır.
Bütün bunlara qarşı yenə də Rəbbin
qəzəbi sönmədi,
Əli hələ də cəzalandırmağa hazır idi.

18 Ona görə pislik alovlanıb-yanır,
Tikanla qanqalı yandırıb-yaxır,
Meşədəki kolluqlar məhv olur,
Tüstü sütunları qalxır.
19 Ordular Rəbbinin qəzəbi
Ölkəni od kimi yandırdı,
Xalqı alov yandırıb-yaxır,
Qardaş qardaşa rəhm etmir.
20 Adamlar orada-burada tapdıqlarını
yeyəcək,
Amma doymayıb ac qalacaq.
Hər kəs öz uşağının ətini yeyəcək.
21 Menaşşe Efrayimi yeyəcək,
Efrayim Menaşşeni.
Sonra birlikdə Yəhudaya hücum
edəcəklər.
Bütün bunlara qarşı yenə də Rəbbin
qəzəbi sönmədi,
Əli hələ də cəzalandırmağa hazır idi.

10 1 Haqsız qaydalar çıxaranların,
Ədalətsiz qanun qoyanların,
2 Yoxsullardan ədaləti əsirgəyənlərin,
Xalqımın kasıblarının haqqını əlindən
alanların,
Dul qadınları soyanların,
Yetimlərin malını ələ keçirənlərin
Vay halına!
3 Cəza günü uzaqlardan başınıza bəla
gələndə nə edəcəksiniz?
Kömək üçün kimin yanına qaçacaqsınız?
Mal-dövlətinizi harada saxlayacaqsınız?
4 Dustaqlar arasında əyilməkdən

---

*9:7 – Luk. 1:32-33*

Yaxud öldürülənlər arasında
yıxılmaqdan
Başqa bir çarə qalmayacaq.
Bütün bunlara qarşı yenə də Rəbbin
qəzəbi sönmədi,
Əli hələ də cəzalandırmağa hazır idi.

***Allahın Aşşura verdiyi cəza***

5 «Vay, Aşşurun halına,
O Mənim qəzəb əsam,
Əlindəki dəyənək isə qeyzimdir!
6 Aşşuru göndərəcəyəm allahsız millətin
üstünə,
Qəzəbləndiyim xalqın üzərinə hücum
etməyə,
Qarət etməyə, talan malı götürməyə.
Onları küçələrdəki palçıq kimi
Tapdalamağa əmr verəcəyəm.
7 Amma Aşşur padşahı
Bundan da pis niyyətlər haqda düşünür,
Bir neçə millətin kökünü kəsib, məhv
etməyi fikirləşir.
8 O deyir: "Məgər sərkərdələrimin
hamısı padşahlardan artıq deyilmi?
9 Kalnonu Karkemiş kimi ələ
keçirmədimmi?
Xamat və Arpad şəhərlərini süqut
etdirmədimmi?
Samariya ilə Dəməşq bizə təslim
olmadılarmı?
10 Yerusəlimlə Samariyadakından daha
çox oyma bütləri olan
Bütpərəst ölkələri necə ələ keçirdimsə,
11 Samariyaya və onun bütlərinə nə
etdimsə,
Yerusəlimə və onun bütlərinə də elə
etmərəmmi?"»

12 Xudavənd Sion dağında və
Yerusəlimdə işini bitirəndən sonra
belə deyəcək:
«Aşşur padşahını qürurlu ürəyinə görə,
Təkəbbürlü baxışlarına görə
cəzalandıracağam.
13 Çünki o deyir:
"Bunu mən əlimin qüvvəti ilə, hikmətim
və ağlımla etdim.
Xalqları ayıran sərhədləri yox etdim,
xəzinələrini talan etdim,
Bir güclü buğa kimi padşahları
taxtlarından endirdim.

***10:5-34*** *– Yeş. 14:24-27; Nah. 1:1-3:19; Sef. 2:13-15*

14 Elə bil əlimi quş yuvasına uzadıb,
Xalqların var-dövlətini götürdüm.
Elə bil yiyəsiz yumurtaları yığıb
Bütün dünyanı mən beləcə zəbt etdim.
Qanad çırpan, ağzını açıb səsini çıxaran
belə, olmadı"».

15 Balta onu işlədənin qarşısında
öyünərmi?
Mişar onu qaldıranın qarşısında
qürrələnərmi?
Sanki dəyənək onu götürəni işlədir,
Elə bil ağacdan düzəlmiş əsa canlını
hərəkət etdirir.
16 Buna görə Sahibimiz, Ordular Rəbbi
Aşşurun güclü əsgərlərinə azar
göndərəcək,
Möhtəşəm orduları od tutub yanacaq.
17 İsrailin Nuru od,
İsrailin Müqəddəsi alov olacaq.
Aşşuru tikan və qanqal kimi bir gündə
yandırıb yox edəcək.
18 Gözəl meşələri, məhsuldar tarlaları
Tamamilə xarab olacaq,
Ağır xəstəliyə tutulan insanın canı kimi
Həlak olacaq.
19 Meşələrində qalan ağaclar isə
Bir uşağın saya biləcəyi qədər az
qalacaq.

***İsrailin sağ qalanları***

20 O gün İsrailin sağ qalanları,
Yaqubun nəslindən xilas olub sağ
qalanlar
Onları həlak edənlərə artıq bel
bağlamayacaqlar.
Lakin, həqiqətən, Rəbbə –
İsrailin Müqəddəsinə arxalanacaq.
21 Sağ qalanlar[7]
Yaqub nəslindən sağ qalanlar
Qüdrətli Allaha tərəf dönəcəklər,
22 Ey İsrail, xalqın dəniz qumu qədər
çox olsa belə,
Onlar arasından ancaq sağ qalanlar
Allaha tərəf dönəcək.
Tükənməz ədalətlə dağıdılma hökmü
verilib.
23 Xudavənd, Ordular Rəbbi dağıdılma
hökmünü

[7] **10:21** *Sağ qalanlar* – ibrani mətnində *Şear-Yaşuv*. Yeşaya bu sözləri ilk oğluna ad kimi verdi. Bax: Yeş. 7:3.

***10:22-23*** *– Rom. 9:27-28*

Bütün dünyada yerinə yetirəcək.

### *Rəbb Aşşuru cəzalandıracaq*

24 Buna görə də Xudavənd, Ordular
Rəbbi belə deyir:
«Ey Sionda yaşayan xalqım,
Misirlilərin sənə etdiyi kimi
Səni dəyənəklə vuran,
Üzərinə çomaq qaldıran
Aşşurlulardan qorxma.
25 Çünki bu yaxında qəzəbim sönəcək,
Hiddətim Aşşurluların məhvinə səbəb
olacaq».
26 Mən Ordular Rəbbi, Midyanlıları Orev
qayasında vurduğum kimi
Onları da qırmancla vuracağam,
Dəyənəyimi Misirlilərə qarşı nə cür
dənizin üzərinə uzatdımsa,
İndi də elə edəcəyəm.
27 O gün Aşşurun yükü çiyninizdən,
Boyunduruğu boynunuzdan götürüləcək.
Dirçəldiyinizə görə boyunduruq
qırılacaq.

### *İşğalçıların hücumu*

28 Ayat şəhərini alıb Miqrondan keçdilər,
Mikmasda yüklərini boşaltdılar.
29 Onlar keçidi keçdilər, Gevada
gecələdilər,
Rama şəhəri lərzəyə gəldi,
Şaulun şəhəri Giveada yaşayanlar qaçdı.
30 Ey Qallim əhli, səsini ucalt!
Ey Layşa, dinlə,
Ey zavallı Anatot!
31 Madmena sakinləri qaçır,
Gevim sakinləri sığınacaq axtarır.
32 Bu gün işğalçılar Novda qalacaq,
Sion şəhərinin qurulduğu dağa –
Yerusəlim təpəsinə yumruq göstərəcək.

33 Budur, Sahibimiz, Ordular Rəbbi
Düşməni var gücü ilə budaqlar kimi
kəsəcək,
Ən hündür ağacları yerə sərəcək,
Qürurluları alçaldacaq.
34 Meşədəki kolluqları balta kimi
Kəsib yerə sərəcək.
Livan Qüdrətli Olanın önündə diz
çökəcək.

### *Sülh ümidi*

11 1 Yesseyin kötüyündən yeni bir
fidan çıxacaq,
Kökündən çıxan bir budaq bar verəcək.
2 Rəbbin Ruhu,
Hikmət və anlayış ruhu,
Öyüd-nəsihət və qüdrət ruhu,
Bilik və Rəbb qorxusu ruhu
Onun üzərində olacaq.
3 O, Rəbb qorxusunda sevinc tapacaq.
Gözlərinin gördüyü ilə hökm etməyəcək,
Qulağı ilə eşitdiyinə görə qərar
çıxarmayacaq.
4 Lakin o, yoxsullara haqq ilə hökm
edəcək,
Yer üzündəki fəqirlərin işinə ədalətlə
qərar çıxaracaq.
Dünyanı ağzının dəyənəyi ilə vuracaq.
Pis adamları ağzının nəfəsi ilə öldürəcək.
5 O belini salehliklə qurşayacaq,
Sədaqəti kəmər kimi taxacaq.

6 O gün qurdla quzu bir yerdə yaşayacaq,
Bəbirlə çəpiş birgə yatacaq,
Buzov, gənc aslan və bəslənmiş mal-
qara
Yan-yana duracaq,
Onları balaca uşaq gəzdirəcək.
7 İnəklə ayı bir yerdə otlayacaq,
Onların balaları bir yerdə yatacaq,
Şir də buğa tək saman yeyəcək.
8 Südəmər körpə əf'i ilanın
Yuvası üstündə oynayacaq,
Süddən kəsilmiş uşaq
Əlini gürzənin yuvasına salacaq.
9 Müqəddəs dağımın heç bir yerində
Heç kimə zərər dəyməyəcək,
Heç bir kəs o birisini məhv etməyəcək,
Həqiqətən, sular dənizi necə doldurursa,
Dünya da Rəbbin biliyi ilə elə dolacaq.

### *Əsirlər geri qayıdacaq*

10 O gün Yesseyin kökü xalqlara bayraq
olacaq,
Millətlər ona tərəf yönələcək
Məskunlaşdığı yer izzətlə dolacaq.

---

***11:1*** *– Vəhy 5:5; 22:1*
***11:4*** *– Zəb. 96:12-13; Vəhy 19:11*
***11:4*** *– 2Sal. 2:8*
***11:5*** *– Ef. 6:14-15*
***11:6-9*** *– Yeş. 65:25*
***11:9*** *– Hab. 2:14*
***11:10*** *– Rom. 15:12*

[11] O gün Xudavənd Aşşurdan,
Misirdən, Patrosdan, Kuşdan,
Elamdan, Şinardan, Xamatdan və uzaq
diyarlardan
Xalqının sağ qalanlarını qurtarmaq üçün
İkinci dəfə əlini uzadacaq.
[12] Millətlər üçün bayraq qaldıracaq,
Əsir düşmüş İsrail övladlarını yığacaq,
Dağılmış Yəhudalıları
Dünyanın dörd bucağından bir yerə
gətirəcək.
[13] Efrayimin qısqanclığı yox olacaq,
Yəhudanı sıxışdıranlar məhv olacaq.
Efrayim Yəhudaya qısqanmayacaq,
Yəhuda Efrayimi sıxışdırmayacaq.
[14] Onların ikisi qərbdə Filiştlilərin üstünə
hücum edəcək,
Birlikdə şərqdə yaşayanların var-
dövlətini qarət edəcək,
Edom və Moav torpaqlarını zəbt edəcək,
Ammonlular onlara tabe olacaq.
[15] Rəbb Misirdəki dənizin körfəzini
Büsbütün qurudacaq.
Fərat çayının üzərində
Əlini yellədərək səmum küləyi gətirəcək,
O, çayı yeddi dərəyə böləcək,
Adamlar oradan çarıqlarla keçə biləcək.
[16] İsrail övladları Misirdən çıxdığı kimi
Rəbbin Aşşurda sağ qalan xalqı üçün
Böyük bir çıxış yolu olacaq.

### *Şükür məzmuru*

12 [1] O gün sən, ey İsrail, belə
deyəcəksən:
«Ya Rəbb, Sənə şükür edəcəyəm!
Sən mənə qəzəblənirdin,
Lakin qəzəbin söndü,
Mənə təsəlli verdin.
[2] Allah xilasımdır,
Ona güvənəcəyəm və qorxmayacağam,
Çünki Rəbb Allahımız qüvvətim,
məzmurumdur,
O mənə xilas verdi!»

[3] Sevinclə xilas mənbələrindən
Su çəkəcəksiniz.
[4] O gün belə deyəcəksiniz,
«Rəbbə şükür edin, Onun adını çağırın,
Xalqlar arasında Onun işlərini bəyan
edin,
Onun adının ucalığını e'lan edin.
[5] Rəbbi tərənnüm edin,
Çünki O, möhtəşəm işlər gördü,
Qoy bütün dünya bunu bilsin!
[6] Ey Sion sakinləri, səsinizi ucaldın,
Sevinclə çığırın,
Çünki aranızdakı İsrailin Müqəddəsi
böyükdür».

### *Allah Babili cəzalandıracaq*

13 [1] Amots oğlu Yeşayaya Babil
haqqında görüntü ilə nazil olan
xəbərdarlıq:
[2] Çılpaq dağın zirvəsinə bayraq sancın!
Döyüşçüləri bərkdən səsləyin,
Əl edin ki, onlar
Əsilzadələr üçün ayrılan qapılardan içəri
girsin.
[3] Mən seçdiklərimə əmr verdim,
Qəzəbimi düşmənlərə tökmək üçün
Cəsur cəngavərləri,
Ucalığımla öyünən igidləri səslədim.

[4] Dağlardakı izdihamın gurultusunu
eşidin,
Bu, böyük bir xalqın səsinə bənzər.
Bir yerə toplanan millətlərin,
Səltənətlərin nidasını dinləyin!
Ordular Rəbbi bir ordunu döyüşə çağırır!

[5] Onlar uzaq ölkədən,
Üfüqlərin o biri tərəfindən gəlir.
Ölkəni tamamilə yerlə yeksan etmək
üçün
Rəbb və Onun qəzəbinin silahı gəlir.
[6] Fəryad edin, çünki Rəbbin günü
yaxınlaşır.
O gün Külli-İxtiyarın etdiyi qırğın kimi
gəlir!
[7] Buna görə hamının əlləri yanına
düşəcək,
Hər kəs qorxub ürəyini yeyəcək.
[8] Hər bir adamı dəhşət bürüyəcək,
Dərd və iztirab içində boğulacaq,
Doğan qadın kimi ağrı çəkəcək,
Çaşqın-çaşqın bir-birinə baxacaq,
Üzləri qızaracaq.

---

***11:15*** *– Vəhy 16:12*
***12:2*** *– Çıx. 15:2; Zəb. 118:14*
***12:4*** *– 1Saln. 16:8; Zəb. 105:1*

***13:1-14:23*** *– Yeş. 47:1-15; Yer. 50:1-51:64*
***13:6*** *– Yoel 1:15*

9 Budur Rəbbin amansız,
Qəzəbli və qeyzlə dolu günü yaxınlaşır ki,
Yeri səhraya döndərsin,
Oradakı günahkarları məhv etsin.
10 Göydəki ulduzlar və bürclər işıq verməyəcək,
Günəş doğarkən tutulacaq,
Ay nurunu saçmayacaq.

11 Rəbb deyir: «Pisliyə görə dünyanı,
Günahlarına görə pis adamları cəzalandıracağam.
Təkəbbürlülərin qürurunu qıracağam,
Zalımların məğrurluğunu alçaldacağam.
12 İnsan saf qızıldan da az olacaq,
Adam Ofir qızılından da nadir halda tapılacaq.
13 Buna görə də Mən Ordular Rəbbi,
Qızğın qəzəbimin günündə
Qeyzimlə göyləri titrədəcəyəm,
Yer üzü lərzəyə gələcək.
14 Hər kəs qovulan ceyrana, çobansız qoyunlara dönüb
Öz xalqının yanına qayıdacaq,
Öz vətəninə qaçacaq.
15 Bütün tutulanların bədəni dəlik-deşik olacaq,
Ələ keçənlərin hamısı qılıncdan keçiriləcək.
16 Onların gözləri önündə körpələri parça-parça ediləcək,
Evləri talan ediləcək,
Arvadlarının namusuna toxunulacaq.

17 Gümüşə qiymət verməyən,
Qızılı sevməyən Midiyalıları
Onlara qarşı qaldıracağam.
18 Ox-kamanları gəncləri parça-parça edəcək,
Körpələrə rəhm etməyəcəklər,
Uşaqları əsirgəməyəcəklər.
19 Mən Allah Sodomla Homorranı necə dağıtdımsa,
Xaldeylilərin cəlalı olan,
Padşahlıqların ən gözəli olan
Babili də elə yıxacağam.
20 Orada bir daha heç kim yaşamayacaq,
Nəsildən-nəslə kimsə məskunlaşmayacaq.
Ərəblər çadırlarını qurmayacaq,
Çobanlar sürülərini orada saxlamayacaq.
21 Ora vəhşi heyvanların yaşadığı yer olacaq,
Bayquşlar evlərdə qaynaşacaq,
Orada dəvəquşular məskən salacaq,
Təkələr oynaşacaq.
22 Saraylarında goreşənlər çığıracaq,
Gözəl imarətlərində çaqqallar gəzəcək.
Babilin sonu yaxınlaşır,
O günlər tez gəlib çatacaq».

### *Əsirlərin qayıtması*

14 1 Rəbb Yaqub nəslinə rəhm edəcək,
İsrail xalqını yenə seçəcək,
Öz torpaqlarına sakin edəcək,
Yadellilər də Yaqub nəslinə qoşulacaq, onlarla birləşəcək.
2 Başqa xalqlar İsrail xalqını aparıb
Öz torpaqlarına gətirəcək.
İsrail xalqı Rəbbin verdiyi torpaqlarda
Onları özlərinə qul və kəniz edəcək.
Onları əsir aparanları özləri əsir edəcək,
Onlara zülm edənlərin üzərində hökm sürəcək.

### *Ölülər diyarına düşən Babil padşahı*

3 Rəbb səni ağrıdan, sıxıntıdan,
Gördüyün ağır işdən qurtaranda
4 Babil padşahına lağ edib belə deyəcəksən:
«Zülmkarın sonu gör necə oldu!
Zorakılığın axırı gör necə oldu!
5 Rəbb pis adamların dəyənəyini,
Hökmdarların əsasını qırdı.
6 O əsa ki, dayanmadan xalqları qəzəblə vurardı,
Millətləri qeyzlə, amansızca əzərdi.

7 İndi isə bütün dünya
Sakitlik və rahatlıq içində sevincdən coşur.
8 Livanın şam və sidr ağacları
Sənin fəlakətinə sevinərək deyir:
"Sənin ölümündən bəri heç kim bizi kəsməyə gəlmir".

9 Yerin altındakı ölülər diyarı sənə "xoş gəldin" deyib,

***13:10*** *– Yez. 32:7; Yoel 2:10,31; 3:15; Mat. 24:29; Mrk. 13:24-25; Luk. 21:25; Vəhy 6:12-13; 8:12.*
***13:19*** *– Yar. 19:24*
***13:20*** *– Yer. 50:39*
***13:21*** *– Vəhy 18:2*

Səni qarşılamağa can atır, ey Babil
padşahı!
Yer üzünün ölən bütün başçıları
Sənin gəlişindən həyəcanlanır,
Millətlərin bütün keçmiş padşahları
Taxtlarından ayağa qalxır.
10 Hamı səni çağırıb belə deyəcək:
"Sən də bizim kimi zəif oldun, bizə
bənzədin!"
11 Cah-cəlalın, çənglərinin səsi
Ölülər diyarına endirildi.
Yatağın da, yorğanın da meyit
qurdlarıdır.

12 Ey parlaq ulduz, dan oğlu,
Göylərdən necə yerə düşdün!
Ey millətləri tapdalayıb keçən,
Necə də yerə yıxıldın!
13 Sən ürəyində dedin:
"Göylərə qalxacağam,
Taxtımı Allahın ulduzları üzərində
Yüksəklərə yerləşdirəcəyəm,
Şimaldakı yüksək yerdə, toplantı
dağında oturacağam,
14 Uca buludların üzərinə çıxacağam,
Özümü Haqq-Taala kimi aparacağam".
15 Ancaq ölülər diyarına,
Ölüm çuxurunun dərinliyinə
endiriləcəksən.

16 Səni görənlər gözlərini zilləyib
Sənin haqqında düşünüb belə deyəcək:
"Dünyanı sarsıdan, səltənətləri lərzəyə
salan,
17 Yer üzünü səhraya çevirən,
Şəhərlərini yerlə yeksan edən,
Dustaqları evlərinə buraxmayan adam
bu deyilmi?"
18 Bütün millətlərin padşahları,
Hər biri öz əzəmətli sərdabəsində uyuyur.
19 Lakin sən qırılmış budaq kimi
Qəbrindən kənara, uzağa atıldın,
Bir çuxurun dibinə tullanan,
Bədənləri qılıncla deşilən meyitlərlə
örtülmüsən,
Ayaq altında qalan leş kimisən.
20 Ölkəni dağıdıb xalqını öldürdüyünə
görə
Başqaları kimi dəfn olmayacaqsan.

---

***14:12** – Vəhy 8:10; 9:1*
***14:13-15** – Mat. 11:23; Luk. 10:15*

Pislik edən nəsil bir daha
xatırlanmayacaq.
21 Atalarının günahına görə
Övladlarını öldürmək üçün yer
hazırlayın ki,
Onlar qalxıb dünyanı zəbt etməsinlər,
Yer üzünü şəhərlərlə doldurmasınlar».

22 «Babil xalqına qarşı qalxacağam»
Bunu Ordular Rəbbi bəyan edir.
«Babilin adını, sağ qalanlarını, oğullarını,
Nəsillərini yox edəcəyəm» Rəbb bəyan
edir.
23 «Babili bayquş yuvasına, bataqlığa
çevirəcəyəm,
Məhv edən süpürgə ilə süpürəcəyəm»
Ordular Rəbbi bəyan edir.

### *Rəbb Aşşurluları cəzalandıracaq*

24 Ordular Rəbbi and içib belə deyir:
«Mütləq düşündüyüm kimi olacaq,
Niyyət etdiyim kimi gerçəkləşəcək.
25 Ölkəmdə Aşşurluları məhv edəcəyəm,
Dağlarımda onları tapdalayacağam.
Xalqım Aşşurun boyunduruğundan,
Çiyinlərindəki yükündən qurtulacaq.
26 Budur, bütün dünya üçün hazırladığım
hökm,
Bütün millətlərə qarşı qalxmış əlim.
27 Ordular Rəbbinin hökmünü kim boşa
çıxara bilər?
Qalxmış əlini kim geri döndərə bilər?»

### *Rəbb Filiştliləri cəzalandıracaq*

28 Padşah Axazın öldüyü ildə görüntü ilə
nazil olan xəbərdarlıq:
29 «Ey bütün Filiştlilər, sevinməyin ki,
sizi döyən dəyənək qırıldı,
Çünki ilanın kökündən gürzə törəyəcək,
Onun törənməsi də uçan ilan olacaq.
30 Kasıbların ən kasıbı doyacaq,
Fəqirlər rahat dincələcək.
Amma sizin kökünüzü qıtlıqla
kəsəcəyəm,
Sağ qalanlarınız da öldürüləcək.
31 Ey darvaza, fəryad et!
Ey şəhər, ağla!
Ey bütün Filiştlilər, başdan-başa əriyin!
Çünki şimaldan tüstü yaxınlaşır,

---

***14:24-27** – Yeş. 10:5-34; Nah. 1:1-3:19; Sef. 2:13-15*
***14:28** – 2Pad. 16:20; 2Saln. 28:27*
***14:29-31** – Yer. 47:1-7; Yez. 25:15-17; Yoel 3:4-8; Amos 1:6-8; Sef. 2:4-7; Zək. 9:5-7*

Düşmən əsgərləri cərgə-cərgə gəlir».

32 O millətin elçilərinə nə cavab
verələcək?
«Rəbb Sionun təməlini qoymuşdu,
Onun xalqının fəqirləri orada
Sığınacaq tapacaq», cavab budur.

### *Moavın dağılması*

15 1 Moav barədə xəbərdarlıq:
Moavın Ar şəhəri bir gecəyə
xarabalığa döndü, dağıldı,
Moavın Kir şəhəri bir gecəyə viranəliyə
döndü, dağıldı.
2 Buna görə Divon xalqı ağlamaq üçün
mə'bədə,
Səcdəgahlara çıxdı.
Moav xalqı Nevo və Medva üçün fəryad
edir.
Yas tutmaq üçün hamı saçını kəsdi,
Saqqalını qırxdı.
3 Çula bürünərək küçələrdə,
Damlarda, meydanlarda hər kəs fəryad
edir,
Göz yaşları sel kimi axır.
4 Hıçqırır Xeşbon və Elale,
Səsləri Yahsaya qədər eşidilir.
Buna görə Moav əsgərləri fəryad edir,
Ürəkləri qorxu içindədir.
5 Ürəyim Moav üçün kədərlənir,
Oranın qaçqınları Soara, Eqlat-
Şelişiyaya doğru qaçdı.
Luxit yoxuşundan ağlayaraq çıxırlar.
Xoronayim yolunda məhv olduqları
üçün ağlayırlar.
6 Nimrim suları quruduğu üçün ot soldu,
Bitkilər qalmadı, artıq göy-göyərti yox
oldu.
7 Buna görə xalq, qazandığı mal-
dövlətini, yığdığı sərvətini
Söyüdlər vadisindən keçirir.
8 Xalqın ağlaşması Moav torpağını
bürüyür,
Fəryadı Eqlayimədək, Beer-Elimədək
çatır.
9 Çünki Dimon suları qanla doludur,
Amma Mən Dimonun başına daha betər
bəla gətirəcəyəm,
Moavdan qaçıb-qurtulanların,
Ölkədə sağ qalanların üstünə şirlər
göndərəcəyəm.

16 1 Seladan səhra yolu ilə Sion dağına,
Ölkənin hökmdarına quzular
göndərin.
2 Moav qızları yuvalarından atılmış,
Ora-bura uçan quşlara bənzəyir,
Onlar Arnon çayının bərələrində dolaşır.

3 «Bizə öyüd ver, ədalət göstər,
Gündüzün istisində gecə kimi üstümüzə
kölgə sal,
Sürgünləri saxla, qaçqınları təslim etmə.
4 Qoy Moavdan sürgün olanlar
Səninlə birlikdə yaşasın,
Məhv edənlərə qarşı biz Moavlıların
pənahı ol».
Qarət və qırğın qurtaranda,
Ölkəni ayaqları altına salanlar yox
olanda,
5 Məhəbbət üzərində taxt qurulacaq,
Davud nəslindən bir nəfər
Sədaqətlə padşahlıq edəcək,
Ədaləti axtarıb hökm edəcək,
Tezliklə salehliyi yerinə yetirəcək.

6 Moavlıların nə dərəcədə
Qürurlanıb lovğalandıqlarını,
Nə cür təkəbbürlü olduqlarını eşitdik,
Boş yerə öyünürlər.
7 Buna görə Moavlılar Moav üçün fəryad
edəcək,
Birgə nalə çəkəcək,
Qir-Xaresetin kişmiş kökələrini
Yada salaraq inləyib kədərlənəcək.
8 Çünki Xeşbon tarlaları,
Sivma tənəkləri qurudu.
Başqa millətlərin başçıları seçmə
budaqlarını qırdı,
O budaqlar Yazerə qədər uzanırdı,
Səhraya çatırdı, şaxələnib dənizi aşırdı.
9 Buna görə Yazerdə ağlayanlarla
Sivma tənəkləri üçün acı-acı ağlayıram.
Ey Xeşbon və Elale,
Sizi göz yaşları ilə isladıram,
Çünki meyvələr və məhsul yığılan vaxt
Şən səsləriniz kəsildi.
10 Məhsuldar tarlalarda şənlik və nəş'ə
səsi yox oldu,

***15:1-16:14*** *– Yeş. 25:10-12; Yer. 48:1-47; Yez. 25:8-11; Amos 2:1-3; Sef. 2:8-11*
***15:2,4-5*** *– Yer. 48:5,34,37*

***16:6,8,10*** *– Yer. 48:29,32-33*

Üzümlükdə nə nəğmələr oxunur, nə də
sevinc nidaları səslənir.
Üzümsıxanlarda işləyən olmayacaq,
Onların şən səslərini kəsdim.
11 Buna görə ürəyim Moav üçün lira
kimi inləyir,
Qəlbim Qir-Xareset üçün sızlayır.
12 Moav xalqı səcdəgahlarına çıxaraq
Boş yerə özünü yorur,
Dua etmək üçün müqəddəs məkanına
gedəcək,
Hər şey boş-boşunadır!

13 Rəbbin Moav haqqında keçmişdə
dediyi sözü budur.
14 İndi isə Rəbb belə deyir:
«Tam üç ilin ərzində
Moavın şan-şöhrəti çoxsaylı xalqı ilə
birgə alçaldılacaq,
Sağ qalanları azalıb zəifləyəcək».

### *Aram və İsrail haqqında peyğəmbərlik*

17 1 Dəməşq barədə xəbərdarlıq:
Budur, Dəməşq daha şəhər
olmayacaq,
Bir yığın xarabalığa dönəcək.
2 Aroer şəhərləri tərk olunacaq.
Oralar sürülərin otladığı yer olacaq,
Onları qorxudan olmayacaq.
3 Efrayimdə qalalı şəhər qalmayacaq,
Dəməşqin hakimiyyəti yox olacaq,
Sağ qalan Aramlıların qüvvəti
İsrail övladlarının qüvvəti tək olacaq.
Bunu Ordular Rəbbi bəyan edir.

4 O gün Yaqub nəslinin əzəməti sönəcək,
Hamısı bir dəri, bir sümük qalacaq.
5 Biçinçi bitən taxılı biçdiyi kimi,
Başaqları əli ilə yığdığı kimi olacaq,
Refaim vadisində başaqları topladığı
kimi olacaq.
6 Zeytun ağacı silkələnəndən sonra
Təpəsində iki-üç zeytun qaldığı kimi,
Bəhərli budaqlarında dörd-beş zeytun
qaldığı kimi
Başaqlar da belə qalacaq.
Bunu İsrailin Allahı Rəbb bəyan edir.

7 O gün insan öz Yaradanına nəzər
salacaq,
Gözləri İsrailin Müqəddəsini görəcək.
8 Əlləri ilə yaratdığı qurbangahlara
baxmayacaq,
Barmaqları ilə düzəltdiyi
Nə ilahə Aşeranın rəmzi olan sütunlara,
Nə də buxur qurbangahlarına nəzər
salmayacaq.

9 O gün istehkamlı şəhərləri
İsrail övladlarından qaçan Hivlilərlə
Emorluların tərk etdiyi
Şəhərlərə bənzəyəcək, viran qalacaq.
10 Sən, ey İsrail, sənə qurtuluş verən
Allahını unutdun,
Pənahgahın olan Qayanı xatırlamadın.
Buna görə də sən əcnəbi bütlər üçün bağ
əkirsən,
Özgə ağacların budaqlarından peyvənd
edirsən.
11 Onları əkdiyin gün böyüdürsən,
Ertəsi gün çiçəkləndirirsən,
Amma kədərli, sağalmayan ağrılı gündə
məhsul verməyəcəklər.

12 Ah, çoxsaylı xalqların gurultusu
Dənizlərin gurultusuna bənzər!
Ümmətlərin nə’rəsi böyük suların
çağlayışına oxşar!
13 Ümmətlərin səsi böyük suların
gurultusuna bənzəyəcək,
Lakin Allah onları məzəmmət edəcək,
Onlar uzaqlara qaçacaq,
Küləyin qarşısında təpəliklərdəki saman
çöpü kimi,
Qasırğanın önündə yuvarlanan küləş
kimi qovulacaqlar.
14 Axşamçağı onlar dəhşət doğururlar,
Səhər açılmadan yox olurlar.
Bizi soyanların aqibəti budur,
Bizi qarət edənlərin sonu budur.

### *Allahın Kuşa cəza verməsi*

18 1 Kuş çaylarının o tərəfində yerləşən,
Qanad vızıltıları eşidilən ölkənin vay
halına!
2 Dəniz yolu ilə, qamış qayıqları ilə
Bu ölkə elçilər göndərir!
Ey ayaqdan cəld qasidlər, yola düşün!
Çaylarla bölünmüş ölkəyə,
Ucaboylu, parlaq dərili millətin,
Hər yanda qorxu doğuran xalqın,
Güclü və işğalçı millətin yanına gedin!

3 Ey bütün yer üzündə yaşayanlar!

---

***17:1-3*** *– Yer. 49:23-27; Amos 1:3-5; Zək. 9:1*

Ey dünya sakinləri!
Dağların zirvəsinə bayraq dikələndə
baxın!
Şeypur çalınanda eşidin!
4 Çünki Rəbb mənə belə deyir:
«Günəş şüalarından yaranan qızmarlıq
kimi,
Biçin vaxtı, isti olanda şeh dumanı kimi
Sakitcə məskənimdən baxacağam».
5 Çiçəklənmə qurtarıb məhsul
yığımından əvvəl
Üzümlər qora bağlayanda
Bağ qayçıları ilə meynələr kəsəcək,
Yayılmış budaqları qırıb atacaq.
6 Hamısı dağın yırtıcı quşlarına,
Yerin vəhşi heyvanlarının qarşısına
atılacaq.
Yayda yırtıcı quşlara,
Qışda bütün vəhşi heyvanlara yem
olacaq.

7 O vaxt çaylarla bölünmüş ölkə
Ucaboylu, parlaq dərili xalq,
Hər yanda qorxu doğuran xalq
Güclü və işğalçı millət
Ordular Rəbbinə,
Ordular Rəbbinin adını qoyduğu yerə –
Sion dağına xərac gətirəcək.

### *Allahın Misirə cəza verməsi*

19 1 Misir barədə xəbərdarlıq:
Budur, Rəbb sür’ətlə gedən buludun
üstünə minib Misirə gəlir.
Misir bütləri Onun qarşısında titrəyir,
Misirlilərin ürəkləri qorxudan əriyir.
2 Rəbb deyir:
«Mən Misirliləri Misirlilərə qarşı
qaldıracağam,
Qardaşı qardaşa, qonşunu qonşuya,
Şəhəri şəhərlə, ölkəni ölkə ilə
vuruşduracağam.
3 Misirlilərin ruhu qırılacaq, niyyətlərini
boşa çıxaracağam.
Onlar bütlərdən, ölü ruhlarından,
cindarlardan,
Ruhçağıranlardan məsləhət istəyəcək.
4 Misirliləri qəddar bir sahibə təslim
edəcəyəm,
Qüvvətli padşah üzərlərində hökm
sürəcək».
Sahibimiz, Ordular Rəbbi belə bəyan
edir.

5 Nilin suları azalacaq,
Çay çəkilib quruyacaq.
6 Çaylar iylənəcək,
Misirin arxları boşalıb quruyacaq,
Qamışlar və qarğılar çürüyəcək.
7 Nil kənarında, çayın qırağındakı
qarğılar,
Nil boyunca əkilmiş zəmilər quruyacaq,
sovrulub yox olacaq.
8 Balıqçılar, Nilə tilov atanların hamısı
ağlayaraq yas tutacaq,
Nilə tilov atanların hamısı ağlayacaq,
Suya tor salanlar kədərlənəcək.
9 İncə kətan üzərində işləyənlər,
Ağ bez toxuyanlar ümidlərini itirəcək.
10 Misirin sütunları qırılacaq,
Bütün muzdlu işçilər ruhdan düşəcək.

11 Soan şəhərinin başçıları necə də
axmaqdır!
Fir’onun hikmətli vəzirləri ağılsız
məsləhətlər verir.
Onlar fir’ona necə: «Mən müdriklərin,
Qədim padşahların nəslindənəm!» deyə
bilər?
12 Ey fir’on, sənin hikmətli vəzirlərin
indi haradadır?
Qoy sənə bildirsinlər
Ordular Rəbbi Misirə qarşı nə hazırlayıb.
13 Soan başçıları axmaq oldular,
Nof rəisləri aldandılar,
Misir qəbilələrinin başçıları Misiri
yoldan azdırdılar.
14 Rəbb onların ağlını çaşdırdı.
Necə ki, sərxoş adam öz qusduğunu
ətrafında səndələyirsə,
Misir də öz əməllərində belə dolaşır.
15 Misirdə heç kim heç bir iş görə
bilməyəcək:
Nə baş, nə quyruq və nə xurma budağı,
nə də qamış.

### *Misir Rəbbə tərəf dönəcək*

16 O gün Misirlilər qadına bənzəyəcək,
Ordular Rəbbinin onlara qarşı qalxan əlinin
önündə titrəyib dəhşətə gələcək. 17 Yəhuda
torpağı Misirliləri dəhşətə gətirəcək. Ordular
Rəbbinin Misirə qarşı hazırladığı niyyətə görə
Yəhudanın adını eşidən hər kəs vəlvələyə
düşəcək. 18 O gün Misirdə Kən’an dilində

***19:1-25** – Yer. 46:2-26; Yez. 29:1-32:32*

danışan və Ordular Rəbbinin adına and içən
beş şəhər olacaq. Onların biri Həlak şəhəri[8]
adlandırılacaq.

19 O gün Misir ölkəsində Rəbbə qurbangah
qurulacaq, sərhədində isə Ona sütun tikiləcək.
20 Bu, Misir torpağında Ordular Rəbbinin
əlaməti və şəhadəti olacaq. Onlar
zülmkarlardan qurtulmaq üçün Rəbbə fəryad
edəcək. O, Misirlilərə xilaskar və müdafiəçi
göndərib onları qurtaracaq. 21 Rəbb Özünü
Misirlilərə tanıtdıracaq, onlar da o gün Rəbbi
tanıyacaq. Misirlilər Rəbbə qurbanlar,
təqdimlər gətirəcək, nəzir-niyaz edib yerinə
yetirəcək. 22 Rəbb Misirliləri vuracaq və sonra
şəfa verəcək. Onlar Rəbbə tərəf dönəcək,
yalvarışları qəbul olunacaq və Rəbb onlara
şəfa verəcək.

23 O gün Misirdən Aşşura böyük yol
olacaq.
Aşşurlu Misirə, Misirli Aşşura gedib
gələcək.
Misirlilərlə Aşşurlular birlikdə Rəbbə
səcdə edəcək.

24 O gün İsrail Misir və Aşşurun yanında
üçüncü ölkə olacaq. Dünya bunların
sayəsində xeyir-dua alacaq. 25 Ordular Rəbbi
onlara xeyir-dua verib deyəcək: «Xalqım
Misir, yaratdığım Aşşur, irsim İsrail bərəkətli
olsun».

### *Misir və Kuş üçün əlamət*

20 1 Aşşur padşahı Sarqonun əmri ilə
ordusunun başçısı Aşdoda gəlib onu
ələ keçirtdiyi ildə 2 Rəbb Amots oğlu
Yeşayaya belə dedi: «Get, əynindəki çulunu
və ayağındakı çarıqlarını çıxar». Yeşaya elə
də etdi, lüt və ayaqyalın gəzməyə başladı.
3 Rəbb dedi: «Misir və Kuş üçün əlamət və
ibrət olaraq qulum Yeşaya necə üç il ərzində
çılpaq və ayaqyalın dolaşdısa, 4 elə də Aşşur
padşahı Misiri xəcalətli etmək üçün Misirliləri
əsir, Kuşluları sürgün edib, gəncləri, qocaları
çılpaq və ayaqyalın, ayıb yerləri açıq aparacaq.
5 Kuşa güvənən, Misirlə fəxr edən xalq
qorxacaq və xəcalətə düşəcək. 6 O gün bu
sahil boyunca yerləşən ölkənin sakinləri
deyəcək: "Aşşur padşahının əlindən
qurtulmaq üçün köməyinə güvəndiyimiz, bel
bağladığımız xalqların başına gör nələr gəldi!
Bəs biz nə cür qurtulacağıq?"»

[8] **19:18** *Həlak şəhəri* – ibrani dilində *Günəş şəhəri* mə'nasını verə bilər. Misirdəki Heliopolisə işarədir.

### *Babilin düşkünlüyü haqqında görüntü*

21 1 Dəniz sahilindəki səhra barəsində
xəbərdarlıq:
Cənubdan necə fırtınalar gəlirsə,
Səhradan, dəhşətli ölkədən də elə bir
fəlakət gəlir.
2 Dəhşətli görüntü mənə nazil oldu:
Xain xainlik edir, məhv edənsə məhv
edir.
Ey Elam, qalx! Ey Midiya, Babili
mühasirəyə al!
Babilin bais olduğu bütün fəryadlara son
qoyacağam.

3 Gördüklərimdən belimə sancı düşdü,
Doğan qadın tək məni ağrı tutdu.
Eşitdiklərimdən sarsıldım
Gördüklərimdən məni vahimə bürüdü.
4 Ürəyim əsir, dəhşət məni bürüyür.
Gözlədiyim gecə vaxtı məni artıq
qorxudur.
5 Gördüyüm görüntüdə süfrə
hazırlayırlar,
Xalçalar sərirlər,
Yeyib-içirlər.
Qalxın, ey sərkərdələr,
Qalxanları yağlayın!

6 Xudavənd mənə belə dedi:
«Get, gözətçi tə'yin et,
Qoy o gördüklərini danışsın.
7 Qoşa atlı döyüş arabalarına,
Atlara, eşşəklərə, dəvələrə minmiş
Adamları gördükdə çox diqqət edin».

8 Gözətçi bağırdı: «Ey Xudavənd,
gözətçi qülləsində daim duraram,
Hər gecə yerimdə növbəmdə olaram.
9 Budur, döyüş arabalarında süvarilər
cüt-cüt gəlir».
Sonra o çığırdı: «Yıxıldı, Babil yıxıldı!
Onun allahlarının bütləri isə yerə düşüb
parça-parça oldu».
10 Ey xalqım, ey xırmanda buğda kimi
döyülmüş xalqım!
İsrailin Allahı Ordular Rəbbindən
eşitdiyimi sizə bildirmişəm.

### *Duma barəsində görüntü*

11 Duma[9] barəsində xəbərdarlıq:

***21:9*** – *Yer. 51:8; Vəhy 14:8; 18:2*
[9] **21:11** *Duma* – Edomun başqa adı.

Bir nəfər Seirdən məni səsləyir:
«Ey gözətçi, gecənin qurtarmağına nə qədər qalıb?
Ey gözətçi, gecənin qurtarmağına nə qədər qalıb?»
12 Gözətçi cavab verdi: «Səhərin açılmağına az qalıb,
Lakin yenə gecə gələcək.
Soruşmaq istəsəniz, yenə gəlin soruşun».

***Ərəbistan barəsində vəhy***

13 Ərəbistan barəsində xəbərdarlıq:
Ey Dedan karvanları,
Ərəbistan meşələrində gecələyəcəksiniz!
14 Ey Tema sakinləri,
Susamışlara su gətirin!
Qaçıb qurtulanlara çörək verin!
15 Çünki onlar qılıncdan,
Siyrilmiş qılıncdan,
Çəkilmiş ox-kamandan, ağır döyüşdən qaçıb.

16 Xudavənd mənə belə dedi: «Tam bir ilin ərzində
Qedarın bütün əzəməti qurtaracaq.
17 Oxatanlardan, Qedar nəslinin cəngavərlərindən az qalacaq».
İsrailin Allahı Rəbb belə dedi.

***Yerusəlim barəsində görüntü***

22 1 Görüntü vadisi barəsində xəbərdarlıq:
Ey şəhər xalqı, nə olub ki, hamınız damlara çıxmısınız?
2 Ey səs-küylü, əylənən, gurultulu şəhər,
Öldürülənləriniz nə qılıncdan keçirildi,
Nə də döyüşlərdə öldürüldü.
3 Başçılarınız birlikdə qaçdı,
Onlar kamanlarından ox atmamış yaxalandı.
Uzaqlara qaçdıqlarına baxmayaraq hamısı birgə yaxalandı.
4 Buna görə mən belə dedim:
«Məni tənha qoyun, qoy acı-acı ağlayım,
Əziz xalqım məğlub olduğuna görə
Mənə təsəlli verməyə cəhd göstərməyin».

5 Çünki Xudavənd, Ordular Rəbbinin görüntü vadisinə
Təlaş, basqın və çaşqınlıq günü gəlir,
Divarların dağıntısı və dağlara fəryad nidaları çatdığı gün gəlir.
6 Elamlılar oxdanlarını tutub adamlarla dolu döyüş arabaları ilə, süvariləri ilə gəldilər.
Kir sakinləri qalxanlarını açdılar.
7 Ən gözəl vadilərin döyüş arabaları ilə doludur,
Süvarilər şəhər darvazalarının qarşısına düzüldülər.
8 Yəhudanın istehkamları deşik-deşik oldu,
O gün siz «Meşə» adlı evdə saxlanılan silaha nəzər saldınız.
9 Davudun şəhərinin divarlarında çoxlu dəlik-deşik əmələ gəldiyini gördünüz,
Aşağı hovuza su yığdınız.
10 Yerusəlimdəki evləri saydınız,
Şəhər divarının tə'miri üçün evləri sökdünüz.
11 Köhnə hovuzun suları üçün
İki divar arasında su anbarı düzəltdiniz.
Lakin bu işi Görənə baxmadınız,
Bunu çoxdan hazırlayan Allaha nəzər salmadınız.

12 O gün Xudavənd, Ordular Rəbbi, sizi ağlaşmaya,
Yas tutmağa, saçınızı yolmağa, çula bürünməyə çağırdı.
13 Fəqət bunun əvəzinə siz sevinc və şadlıq tapdınız,
«Qoy yeyib-içək, çünki sabah öləcəyik!» dediniz,
Cöngə, qoyun kəsdiniz, ət yediniz, şərab içdiniz.
14 Ordular Rəbbi bunu mənə açdı:
«Bu günah sizə ölənə qədər əsla bağışlanmaz!»
Xudavənd Ordular Rəbbi belə buyurur.

15 Xudavənd Ordular Rəbbi belə dedi:
Dur, saray rəisi Şevnanın yanına get və de:
16 «Sənin burada nə işin var?
Kim icazə verib ki,
Burada – yüksəkdə özün üçün məzar qazasan,
Qayanın içində özünə sərdabə düzəldəsən?
17 Ey güclü kişi, bax Rəbb səni var-qüvvə ilə atıb-tutacaq,

***22:13** – 1Kor. 15:32*

18 Top kimi yuvarlayacaq,
Gen-bol ölkəyə atacaq.
Orada öləcəksən və öyündüyün
arabaların orada qalacaq,
Axı öz ağanın evini biabır edən sənsən!
19 Səni vəzifəndən Mən devirəcəyəm,
Tutduğun yerindən qovacağam.

20 O gün qulum Xilqiya oğlu Elyaqimi
çağırıb
21 Sənin geyimini ona geyindirəcəyəm,
Sənin qurşağını onun belinə
bağlayacağam,
Səlahiyyətini onun ixtiyarına verəcəyəm.
Bu adam Yerusəlim sakinlərinə,
Yəhuda xalqına ata olacaq.
22 Davud nəslinin açarını onun
çiynindən asacağam,
Açdığını heç kim bağlaya bilməyəcək,
Bağladığını heç kim aça bilməyəcək.
23 Mən onu paya kimi bərk yerə
vuracağam.
O, nəsli üçün fəxr olacaq.
24 Bütün nəslinin şöhrəti onun üzərində
olacaq.
Nəslin və övladların şərəfi
Taslardan tabaqlaradək
Bütün qab-qacaqların şöhrəti
Onun üzərində olacaq».

25 Ordular Rəbbi bəyan edir:
«O gün bərk yerə vurulmuş paya qırılıb-
düşəcək,
Onun üstünə asılan yük də yox olacaq».
Çünki Rəbb belə söylədi.

### *Sur şəhəri barəsində görüntü*

23 1 Sur barəsində xəbərdarlıq:
Ey Tarşiş gəmiləri, fəryad edin,
Çünki Sur şəhəri evləri ilə, limanları ilə
birlikdə dağıldı.
Kittim torpağından bu haqda onlara
xəbər gəldi.

2 Ey sahil sakinləri, dənizçilərin sayəsinə
varlanan Sidon tacirləri, susun!
3 Şixorun taxılı, Nilin məhsulu
Dəniz yolundan gələn gəliriniz idi.
Bütün şəhər millətlərin alver yeri idi!
4 Utan, ey Sidon, dəniz sahilində
yerləşən qala!
Çünki dəniz belə deyir:
«Mən heç doğuş ağrısı çəkmədim,
doğmadım,
Nə oğlanlar yetişdirdim, nə də qızlar
böyütdüm».
5 Sur haqqında xəbər Misirə çatanda
Misirlilərin ürəkləri üzüləcək.

6 Ey sahil sakinləri, Tarşişə doğru gedin,
fəryad edin!
7 Uzaq ölkələri müstəmləkə etmiş,
Əylənib keflənən sakinləri olan
Qədim şəhər bu imiş?
8 Taclar geyindirən Sura qarşı
Bunları kim hazırladı?
Axı bu şəhərin tacirləri şahzadə idi,
Ticarətçiləri dünyanın ən hörmətli
adamları idi.
9 Ordular Rəbbi bunu hazırladı ki,
Hər cür gözəlliyin qürurunu qırsın,
Yer üzünün hörmətli adamlarını
utandırsın.

10 Ey Tarşiş qızı, öz torpaqlarından Nil
kimi keç,
Artıq maneçilik yoxdur.
11 Rəbb dənizin üzərinə əlini uzatdı,
Səltənətləri titrətdi,
Kən'anın istehkamlarının dağılması
haqqında əmr verdi.
12 Onda Rəbb dedi:
«Ey döyülmüş bakirə Sidon qızı,
Sən bir daha sevinməyəcəksən!
Qalx, Kittimə yollan,
Amma orada da canına rahatlıq
tapmayacaqsan».

13 Xaldey ölkəsinə bax!
O xalq artıq yoxdur.
Aşşurlular o ölkəni
Vəhşi heyvanların məskəninə döndərdi.
Onlar hücum etmək üçün qüllələri tikdi,
Sarayları dağıtdılar,
Bu diyarı viranəliyə çevirdi.
14 Fəryad edin, ey Tarşiş gəmiləri,
Çünki istehkamınız dağılıb.

***22:22*** *– Vəhy 3:7-8*
***23:1-18*** *– Yez. 26:1-28:19; Yoel 3:4-8; Amos 1:9-10; Zək. 9:2-4; Mat. 11:20-22; Luk. 10:13-14*

***23:14*** *– Vəhy 18:17-19*

15 Bundan sonra Sur şəhəri yetmiş il
ərzində
Bir padşahın ömrü qədər unudulacaq.
Yetmiş il keçdikdən sonra Surun da
başına
Fahişə qadın üçün bəstələdiyi
nəğmədəki kimi belə gələcək:
16 «Ey unudulmuş fahişə,
Bir lira al əlinə, dolan şəhəri!
Gözəl havalar çal, çoxlu nəğmələr oxu,
Qoy səni yada salsınlar!»
17 Yetmişinci ilin sonunda Rəbb Sur
şəhərini yada salacaq. Bu şəhər yenə də
ticarətə başlayacaq. Dünyanın bütün
səltənətləri ilə fahişəlik edəcək. 18 Amma
Surun ticarətdən gələn gəliri Rəbbə həsr
olunacaq. Ticarətdən qazanılmış pullar
xəzinələrə qoyulmayacaq, gizlədilməyəcək.
Bu gəlir Rəbbin hüzurunda gəzən adamların
yeməyini və gözəl geyimini tə'min edəcək.

### *Rəbbin dünyaya verəcəyi cəza*

24 1 Budur, Rəbb yer üzünü boş qoyub
xarabalığa çevirəcək,
Dünyanı alt-üst edəcək,
Sakinlərini dağıdacaq.
2 Nə xalqla kahin arasında,
Nə nökərlə ağası arasında,
Nə qaravaşla xanımı arasında,
Nə alıcı ilə satıcı arasında,
Nə borc verənlə borc alanın arasında
Nə də sələmçi ilə borc alan arasında
Heç bir fərq qoyulmayacaq.
3 Yer üzü tamamilə boş qalıb xarabalığa
çevriləcək.
Çünki Rəbb belə söylədi.

4 Dünya saralıb-solur,
Yer üzü quruyub-solur.
Dünyanın məğrur insanları mə'yus olur.
5 Dünyanı sakinləri murdar etdi,
Çünki Allahın qanunlarını tapdaladı,
Qaydalarına xor baxdı,
Əbədi əhdi pozdu.
6 Bu səbəbə görə
Lə'nət yer üzünü məhv edir.
Yer üzünün sakinləri
Günahlarının cəzasını çəkir,
Buna görə yanır,
Çox az adam sağ qalacaq.
7 Təzə şərab qurtarır, meynələr solur,
Nə vaxtsa fərəhlənən adamlar kədərlənir.
8 Dəflərin şən səsi kəsilib,
Şənlik nidası eşidilmir,
Liraların avazı gəlmir.
9 Bir daha nəğmə oxuyub şərab içmirlər,
İçkinin dadı içənə acı gəlir.
10 Viran qalmış şəhər xaraba qalıb,
Bütün evlər qıfıllanıb,
Heç kim ora girə bilmir.
11 Şərab çatmamazlığına görə küçələrdə
qışqırırlar,
Sevincdən əsər-əlamət qalmadı.
Şənlik dünyanı tərk etdi.
12 Şəhər viranə qaldı,
Darvazaları darmadağın oldu.
13 Zeytun ağacından zeytunları tökmək
üçün ağacı silkələyib döyəndə necə
olursa,
Üzüm məhsulu yığılandan sonra qalan
salxımlar necə olursa,
Dünyadakı xalqlar da elə olacaq.

14 Sağ qalanlar səslərini ucaldıb
Sevinc ilahiləri söyləyəcək,
Qərbdə yaşayanlar Rəbbin əzəmətindən
nəql edəcək.
15 Beləliklə, şərqdə yaşayanlar Rəbbi
ucaldacaq,
Uzaq diyarların sakinləri İsrailin Allahı
Rəbbin adını yüksəldəcək.
16 Dünyanın ən uzaq guşələrindən
tərənnüm ilahisi eşidirik:
«Saleh Olana izzət olsun!»
Amma mən dedim: «Ölürəm, ölürəm!
Vay halıma!
Xainlər xainliklərini davam edir,
Bəli, xainlər xaincəsinə hərəkət edir!»

17 Ey dünya sakinləri,
Qarşınıza dəhşət, dərin çuxur və tələ
çıxacaq!
18 Dəhşətdən qaçan dərin çuxura düşəcək,
Dərin çuxurdan çıxa bilən tələyə
düşəcək.
Göylərin pəncərələri açılacaq,
Dünyanın təməlləri sarsılacaq.
19 Yer üzü çatlayacaq, çatlayacaq,
Dünya yarılacaq, yarılacaq,
Dünya lərzəyə gələcək, lərzəyə gələcək!
20 Dünya sərxoş kimi yırğalanacaq,

---

***23:17*** *– Vəhy 17:2; 18:3*

***24:8*** *– Yez. 26:13; Vəhy 18:22*
***24:17*** *– Yer. 48:43*

Külək əsəndə talvar kimi silkələnəcək,
Asiliyin ağırlığı altında yerə yatacaq,
Bir daha qalxa bilməyəcək.

21 O gün Rəbb yuxarıda – göydəki orduları,
Aşağıda – yer üzünün padşahlarını cəzalandıracaq.
22 Onlar yeraltı zindana dustaq kimi yığılacaq,
Həbsxanada bağlı saxlanacaq,
Uzun müddət keçəndən sonra cəzalanacaq.
23 Ay qaralacaq, günəş işıq saçmayacaq.
Çünki Ordular Rəbbi Sion dağında,
Yerusəlimdə hökm sürəcək.
Xalqın başçıları Onun əzəmətini görəcək.

### *Sevinc ilahisi*

25 1 Ya Rəbb, Sən mənim Allahımsan,
Səni ucaldıram, adına həmdlər oxuyuram.
Çünki Sən qədimdən bəri mö'cüzələrini, niyyətlərini
Sədaqətlə həyata keçirdin.
2 Çünki Sən şəhəri bir daş yığınına,
İstehkamlı şəhəri xarabalığa döndərdin.
O şəhər yadellilərin qalası idi,
Ondan əsər-əlamət qalmadı,
O bir daha bərpa olunmaz.
3 Buna görə qüvvətli xalqlar Səni izzətləndirəcək.
Qəddar millətlərə mənsub şəhərlər Səndən qorxacaq.
4 Çünki Sən yoxsula sığınacaq,
Sıxıntı içində olan fəqirə pənahgah,
Fırtına vaxtı çardaq,
İstilik vaxtı kölgəlik oldun.
Qəddarların nəfəsi divara çarpan fırtına kimidir,
5 Quraqlıqda bürkü kimidir.
Lakin Sən, ya Rəbb,
Zülmkarların azğınlığını bulud bürkünün qarşısını alan kimi aldın,
Amansız yağıların nəğmə səslərini kəsdin.

### *Rəbbin hazırladığı ziyafət*

6 Bu dağda Ordular Rəbbi bütün xalqlar üçün
Zəngin yeməklərdən, gözəl şərablardan ibarət ziyafət düzəldəcək,
Orada ən ləziz yeməklər, ən dadlı şərablar olacaq.
7 Bu dağda bütün xalqların üzərindəki duvağı,
Bütün millətlərin üstündə olan toxunma örtüyü götürəcək.
8 Ölümü əbədi olaraq yox edəcək,
Xudavənd Rəbb bütün adamların üzündən göz yaşlarını siləcək,
Bütün yer üzündən xalqının rüsvayçılığını götürəcək.
Rəbb belə söylədi.

9 O gün deyəcəklər:
«Budur bizim Allahımız!
Ona e'tibar etdik, O bizi qurtardı,
Rəbb Odur, biz Ona ümid etdik.
İndi isə O bizi qurtardığına görə
Sevinib şadlanaq!»

### *Allahın Moava verdiyi cəza*

10 Rəbbin əli bu dağın üstündə olacaq,
Amma Moav peyinliyə düşən saman kimi tapdaq altında qalacaq.
11 Üzgüçü üzərkən əl-qol atdığı kimi
Moav peyinlikdə əl-qol atacaq,
Amma Allah Moavın qürurunu əllərinin fəndgirliyi ilə alçaldacaq.
12 O, Moavın istehkamlarını,
Yüksək divarlarını yerə endirəcək,
Dağıdıb yerlə yeksan edəcək.

### *Həmd ilahisi*

26 1 O gün Yəhuda diyarında belə ilahi oxunacaq:
«Qüvvətli şəhərimiz var,
Allahın qurtuluşu şəhər üçün divarlar, səngərlər kimidir.
2 Açın şəhərin darvazalarını,
Qoy sadiq qalan saleh millət içəri girsin.
3 Ağlı Sənə yönəlmiş adamlara
Sən kamil sülh verirsən,
Çünki onlar Sənə güvənir.

4 Rəbbə həmişə güvənin,
Çünki Rəbb Allah əbədi Qayadır.
5 O, yuxarıdan gedənləri alçaldar,
Onların yaşadığı şəhəri dağıdar,
Yerlə yeksan edər.

---

***25:8*** *– 1Kor. 15:54*
***25:8*** *– Vəhy 7:17; 21:4*
***25:10-12*** *– Yeş. 15:1-16:14; Yer. 48:1-47; Yez. 25:8-11; Amos 2:1-3; Sef. 2:8-11*

[6] O şəhər məzlumların ayaqları,
Yoxsulların addımları altında
tapdalanacaq.

[7] Saleh adamın yolu dürüstdür.
Ey dürüst olan Allah, saleh adamın
yolunu Sən düzəldirsən.
[8] Ya Rəbb, Sənin hökmlərinin yolunda
biz Sənə ümid bağlayırıq,
Sənin adın, ismin ürəyimizin istəyidir.
[9] Qəlbim gecələr Sənin üçün həsrət çəkər,
Bəli, ruhum daxilimdə Səni arayar.
Hökmlərin yer üzündə həyata keçdikcə
Dünyanın sakinləri doğruluğu öyrənir.
[10] Pis adama rəhm etsələr də,
O, doğruluğu öyrənməz,
Doğruluq hökm sürən ölkədə də
haqsızlıq edər,
Rəbbin böyüklüyünü görməz.
[11] Ya Rəbb, əlini qaldırdın,
Amma pis adamlar bunu görmür.
Öz xalqın üçün göstərdiyin qeyrəti görüb
utansınlar.
Bəli, düşmənlərin üçün yağdırdığın od
onları məhv edəcək.

[12] Ya Rəbb, bizə sülh verən Sənsən,
Bütün işlərimizi Sən bizim üçün
tənzimləyirsən.
[13] Ey Allahımız Rəbb,
Səndən savayı başqa ağalar üzərimizdə
hökm sürürdü,
Lakin biz yalnız Sənin adını tanıyırıq.
[14] O ağalar öldü, artıq yaşamır,
Onlar kölgə kimidir, dirilməyəcək,
Çünki Sən onları cəzalandırıb məhv
etdin,
Onlar haqqında hər bir xatirəni yox etdin.
[15] Lakin Sən bu milləti çoxaltdın, ya
Rəbb!
Bəli, milləti çoxaltdın,
Özünü izzətləndirdin.
Hər tərəfə ölkənin sərhədlərini
genişləndirdin».

[16] Ya Rəbb, onlar bəlaya düşəndə Səni
axtardı.
Sənin cəzan üzərlərində olanda
Sənə dua edib yalvardı.
[17] Hamilə qadın doğuş vaxtı gələndə
Ağrı çəkib qovrularaq necə qışqırırsa,
Biz də Sənin qarşında elə idik, ya Rəbb!
[18] Biz də sanki hamilə idik, ağrı çəkirdik,
Lakin küləkdən başqa bir şey doğmadıq.
Nə dünyaya qurtuluş gətirə bildik,
Nə də dünya sakinlərini həyata
qovuşdurduq.
[19] Amma Sənin ölülərin yaşayacaq,
bədənləri diriləcək.
Ey torpaq altında yatanlar, oyanın,
Sevinc nəğməsini oxuyun,
Çünki şeh torpağı necə təravətləndirirsə,
Rəbb də torpaqdakı ölüləri belə
dirçəldəcək.
[20] Ey xalqım, keç içəri otaqlara,
Qapıları ört,
Rəbbin qeyzi keçənəcən
Qısa bir müddətə gizlən!
[21] Çünki budur, Rəbb yer üzünün
sakinlərini
Qəbahətləri üzündən cəzalandırmaq
üçün
Öz məskənindən gəlir.
Torpaq udduğu qanı üzə çıxaracaq
Öldürülənləri artıq gizlətməyəcək.

### *İsrailin qurtuluşu*

27 [1] O gün Rəbb Livyatana,[10] qaçan
ilana,
Bəli, Livyatana, qıvrılan ilana
Amansız, nəhəng və qüvvətli qılıncı ilə
cəza verəcək,
Dənizdəki əjdahanı öldürəcək.

[2] O gün Rəbb deyəcək:
«Xoşladığım bağ üçün nəğmələr oxuyun!
[3] Mən Rəbb, bağı qoruyuram,
Tez-tez sulayıram,
Gecə-gündüz keşiyində dururam ki,
Heç kəs ona zərər verməsin.
[4] Mən qəzəblənmirəm,
Əgər qarşıma tikan və qanqal çıxsa,
Onlara qarşı çıxıb döyüşəcəyəm,
Hamısını odda yandıracağam.
[5] Yaxud qoy Mənə pənah gətirsinlər,
Mənimlə barışsınlar,
Bəli, qoy Mənimlə barışsınlar».

[6] Yaqub nəsli gələcəkdə kök salacaq,
İsrail şaxələnəcək, çiçəklənəcək,

***26:11** – İbr. 10:26-27*

[10] **27:1** *Livyatan* – bu gün bizə mə’lum olmayan nəhəng su heyvanı, şər rəmzi.

Yer üzünü bəhrələri ilə dolduracaq.

7 Rəbb İsraili vuran düşmənləri kimi onu vurdumu?
Yaxud O, başqalarını öldürdüyü kimi İsraili də öldürdümü?
8 Rəbb Öz xalqına hökm etdi,
Qovub sürgünə göndərdi.
Şərq küləyi əsən gün Rəbb onları şiddətli yeli ilə qovdu.

9 Yaqub nəslinin qəbahəti bununla bağışlanacaq,
Günahın aradan götürülməsinin tam bəhrəsi bu olacaq:
Bütpərəst qurbangahların daşları
Tabaşir kimi ovulacaq,
İlahə Aşeranın rəmzi olan sütunlar
Ya da buxur qurbangahları
Bir daha dik qalmayacaq.

10 İstehkamlı şəhər tərk edildi,
Yurd səhra kimi viranə, yiyəsiz qaldı.
Orada buzov otlayıb uzanacaq,
Şaxələri yeyib-qurtaracaq.
11 Budaqlar quruyub qoparılacaq,
Qadınlar gəlib onları yandıracaq.
Bu xalq ağılsız olduğuna görə
Yaradan onlara rəhm etməyəcək,
Xaliq onlara qarşı xeyirxah olmayacaq.

12 O gün Rəbb Fərat çayından
Misir vadisinə qədər
Öz bəhrələrini yığacaq.
Siz bir-bir toplanacaqsınız, ey İsrail övladları!
13 O gün böyük şeypur çalınacaq,
Aşşur torpağında itkin düşənlərlə
Misirə sürgün edilənlər gəlib
Yerusəlimdə Müqəddəs dağda
Rəbbə səcdə edəcək.

### *Şimal padşahlığın xəbərdarlıq*

28 1 Məhsuldar vadinin başında yerləşən,
Efrayim sərxoşlarının qürur tacı olan
Şəhərin vay halına!
Bu şəhər şəraba uymuşların
İzzətli, gözəl tacı,
Solan çiçəyi xatırladır.

2 Budur, Rəbbin güclü, qüvvətli bir adamı var.
O, bərk yağan dolu,
Bəla gətirən fırtına kimi,
Hər şeyi yolunda məhv edən sel kimi gəlir,
Əlləri ilə şəhəri yerlə yeksan edəcək.
3 Efrayim sərxoşlarının şəhəri, qürur tacı
Ayaq altında tapdalanacaq.
4 Məhsuldar vadinin başında yerləşən şəhər,
İzzətli və gözəl tac,
Artıq solan çiçəyi xatırladan şəhər,
Vaxtından əvvəl yetişən əncir kimi olacaq.
Onu görən tez dərib yeyəcək.

5 O gün Ordular Rəbbi
Sağ qalan xalqı üçün
Gözəllik tacı, izzət çələngi olacaq.
6 Hökm kürsüsündə oturana ədalət ruhu,
Şəhər darvazalarını müdafiə edənlərə qüdrət verəcək.

### *Yeşaya sərxoş peyğəmbərlərə xəbərdarlıq edir*

7 Kahinlər və peyğəmbərlər də şərabdan səndələyir,
İçkidən büdrəyir,
Şərab içib xumarlanıb,
İçkidən yollarını azıb.
Onlar yanlış görüntülər görür,
Tutarsız qərarlar qəbul edir.
8 Bütün süfrələri qusmaq və natəmizliklə doludur,
Bulanmamış yer yoxdur!

### *Yeşayaya edilən istehza*

9 «Bu adam kimi öyrədir? Kimə öyüd verir?
Süddən kəsilmiş, ana döşündən ayrılmış körpə uşaqlaramı?
10 Bu nədir?
Əmr üstünə əmr, əmr üstünə əmr,
Sətir üstünə sətir, sətir üstünə sətir,
Bir az oradan, bir az buradan».

11 Onda Rəbb bu xalqla
Yadellilərin ağzı ilə, başqa dillə danışacaq.
12 O sizin hamınıza dedi:
«Rahatlıq budur,
Yorğunlara dinclik verin, budur istirahət».

---

***28:11-12** – 1Kor. 14:21*

Amma onlar eşitmək istəmədilər.
13 Buna görə də,
Rəbbin sözü onlar üçün
«Əmr üstünə əmr, əmr üstünə əmr,
Sətir üstünə sətir, sətir üstünə sətir,
Bir az oradan, bir az buradan».
Bu səbəbə görə onlar gedib arxası üstə yıxılacaq, yaralanacaq,
Tələyə düşüb əsir aparılacaq.

### *Sion üçün guşədaşı*

14 Buna görə də, ey rişxəndçilər,
Yerusəlimdə olan bu xalqın rəhbərləri,
Rəbbin sözünə qulaq asın!
15 Madam ki siz dediniz:
«Ölümlə əhd bağladıq,
Ölülər diyarı ilə razılığa gəldik,
Ölkəyə böyük bəla gələndə
Bizə zərər verməyəcək,
Çünki yalanı özümüzə sığınacaq etdik,
Hiylənin arxasında gizləndik»,

16 Buna görə də Xudavənd Rəbb belə deyir:
Budur, Sionda təməl daşı,
Möhkəm daş, qiymətli guşədaşı qoyuram.
Ona inanan təlaşa düşməyəcək.
17 Ədaləti ölçü, salehliyi şaqul edəcəyəm.
Yalan sığınacağını dolu məhv edəcək,
Gizləndiyiniz yerləri sellər yuyub-aparacaq.
18 Ölümlə bağladığınız əhd ləğv olunacaq,
Ölülər diyarı ilə razılığınız qüvvədən düşəcək.
Ölkəyə böyük bəla gələndə sizi məhv edəcək.
19 Bu bəla hər gələndə sizə toxunacaq.
O hər səhər, gecə-gündüz keçəcək.
Bu xəbəri anlayanda dəhşətə gələcəksiniz.

20 Yataq uzanmaq üçün qısa,
Yorğan bürünmək üçün dar olacaq.
21 Çünki Rəbb Perasim dağında etdiyi kimi qalxacaq,
Giveon vadisindəki kimi qəzəblənəcək.
O Öz işini, qeyri-adi işini yerinə yetirəcək!
Öz əməlini, namə'lum əməlini həyata keçirəcək.
22 Buna görə də rişxənd etməyin ki,
Buxovlarınız daha da ağırlaşmasın.
Çünki Xudavənd, Ordular Rəbbindən eşitmişəm ki,
Bütün ölkə məhv olacaq.

### *Allahın hikməti*

23 Qulaq asın, səsimi eşidin, diqqət edin,
Dediyimi dinləyin.
24 Əkinçi əkin əkmək üçün durmadan yeri şumlayarmı,
Torpaqda şırım açıb malalayarmı?
25 O, torpağı hamarlayandan sonra qara çörək otunu, ziréni səpməzmi?
Buğdanı sıra ilə, arpanı ayırdığı yerə, pərinci də onun yanına əkməzmi?
26 Allah ona öyüd verər, onu öyrədər.
27 Çünki qara çörək otunu vəl ilə döyməzlər,
Zirənin üstünə araba təkərləri ilə sürməzlər.
Qara çörək otu dəyənəklə, zirə isə çubuqla döyülər.
28 Buğdanı çörək bişirmək üçün xırmanda döyürlər,
Amma o fasiləsiz döyülməz.
Xırmanın üstündən araba və atlar keçsə də, buğdanı əzməz.
29 Bu hikmət Ordular Rəbbindən gəlir.
Onun məsləhəti e'cazkardır, hikməti böyükdür.

### *Vay Yerusəlimin halına!*

29 1 Ariel,[11] ey Ariel, Davudun ordugah qurduğu şəhər!
İli ilə qat, bayramların keçirilsin.
2 Amma Arielə əzab verəcəyəm,
O, fəryad, fəğan edəcək,
Mənim üçün qurbangah ocağı kimi olacaq.
3 Sənə qarşı ətrafında ordugah quracağam,
Dövrəsinə istehkamlar düzəcəyəm,
Sənə hücum etmək üçün qüllələr tikəcəyəm.
4 Alçaldılacaqsan, yerin altından danışacaqsan,

***28:16** – Zəb. 118:22-23; Rom. 9:33; 1Pet. 2:6*
***28:21** – 2Şam. 5:20; 1Saln. 14:11*
***28:21** – Yeşua 10:10-12*

[11] **29:1** *Ariel – qurbangah ocağı* yaxud *Allahın aslanı* mə'nasını daşıyır. Yerusəlim şəhərinə işarədir.

Toz-torpaq içindən səsin boğuq gələcək,
Səsin ölü səsi kimi yerdən,
Sözlərin pıçıltı kimi torpağın altından
çıxacaq.

5 Amma çoxlu düşmənlərin narın toz
kimi,
Qorxunc adamların orduları sovrulmuş
saman çöpü kimi olacaq.
Qəflətən bir an içində,
6 Ordular Rəbbi göy gurultusu ilə,
zəlzələ ilə,
Böyük səs-küylə, qasırğa və fırtına ilə,
Hər şeyi məhv edən od ilə sənin yanına
gələcək.
7 Sonra Arielə qarşı döyüşən bütün
millətlərdən izdihamlar,
Ona və qalalarına qarşı savaşanların
hamısı,
Ona zülm edənlər bir rö'ya kimi,
Gecə görünən yuxu kimi yox olacaq.
8 Yuxuda çörək yediyini görən ac adam
Oyananda yenə acdır.
Yuxuda su içdiyini görən susuz adam
Oyananda yenə susuzluqdan yanır.
Sion dağına qarşı döyüşən
Bütün millətlərdən izdihamlar da belə
olacaq.

9 Heyrətlənin və təəccüblənin,
Gözünüzü kor edin, qoy görməsin.
Şərab içmədən sərxoş olun,
İçki içmədən səndələyin.
10 Çünki Rəbb sizi dərin yuxuya saldı.
Ey peyğəmbərlər, gözlərinizi yumdu,
Ey görücülər, sizi kor elədi.
11 Bütün bu görüntü sizin üçün
möhürlənmiş kitabın sözlərinə
bənzəyir.
Oxumağı bacarana bunu verib desələr:
«Rica edirəm, bunu oxu!»
O isə cavab verir:
«Oxuya bilmərəm, çünki möhürlüdür».
12 Kitabı oxuya bilməyənə verib desələr:
«Bunu oxu, rica edirəm»,
O isə cavab verir:
«Mən oxuya bilmirəm».

13 Xudavənd deyir:
«Bu xalq mənə yaxınlaşıb
Dili, dodaqları ilə Məni ucaldır,
Amma qəlbləri Məndən uzaqdır.
Onların Mənə səcdə etmələri
İnsanlardan öyrəndikləri əmrlərdən gəlir.
14 Ona görə Mən bir də bu xalq üçün
Yeni mö'cüzə, e'cazkar şeylər edəcəyəm,
Müdriklərinin müdrikliyi məhv olacaq,
Aqillərin ağlı yox olacaq».

15 Öz niyyətlərini Rəbdən
Gizlətməyə çalışanların vay halına!
Qaranlıqda iş görən bu adamlar
«Bizi kim görür, kim tanıyır?» deyirlər.
16 Bu nə cür ağılsız düşüncədir!
Heç dulusçunu gil ilə bir tutmaq olarmı?
Düzəldilən əşya onu düzəldən barədə
«O məni düzəltmədi» deyərmi?
Qab onu yaradan barədə
«O heç nə anlamır» deyərmi?

17 Livan tezliklə məhsuldar tarlaya,
Məhsuldar tarla isə meşəyə
dönməyəcəkmi?
18 O gün karlar kitabdakı sözləri eşidəcək,
Korların gözləri zülmət qaranlıqda
görəcək.
19 Fəqirlər Rəbdə sevinc tapacaq,
Yoxsullar İsrailin Müqəddəsində
şadlanacaq.
20 Çünki zülmkarlar yox olacaq,
Rişxəndçilər itib-batacaq.
Pislik etməyə hazır olanlar məhv olacaq.
21 Onlar başqasına böhtan atanlar,
Şəhər darvazasında hakimə tələ
quranlardır,
Haqlının haqqını nahaq yerə təhrif
edənlərdir.

22 Buna görə də İbrahimi qurtaran Rəbb
Yaqub nəslinə belə deyir:
«Yaqub nəsli artıq utanmayacaq,
Üzləri qorxudan saralmayacaq.
23 Əlimlə yaratdığım övladlarını
Aralarında görəndə
Adımı müqəddəs tutacaqlar,
Yaqubun Müqəddəsini təqdis edəcəklər,
İsrailin Allahından qorxacaqlar.
24 Yolunu azanlar anlayacaq,
Gileylənənlər tə'lim öyrənəcək».

***29:10*** *– Rom. 11:8*
***29:11*** *– Vəhy 5:1*
***29:13*** *– Mat. 15:7-9; Mrk. 7:6-7*
***29:14*** *– 1Kor. 1:19*
***29:16*** *– Yeş. 45:9; Rom. 9:20*

### *Misirlə bağlanan əhd puçdur*

30 [1] Rəbb bəyan edir: «Bu dikbaş övladların vay halına,
Mənim niyyətlərimi yox, öz niyyətlərini qururlar,
Ruhuma uyğun olmayan razılaşma edirlər,
Eləcə günahı günaha qatırlar.
[2] Məndən məsləhət almadan
Misirə gedirlər,
Fir'onun himayəsini axtarırlar,
Misirin kölgəsi altında sığınacaq tapırlar.
[3] Fəqət fir'onun himayəsi
Onlar üçün xəcalətə,
Misir kölgəsi altındakı
Sığınacaq rüsvayçılığa çevriləcək.
[4] Başçıları Soanda olduqlarına,
Elçiləri Xanesə yetişdiklərinə baxmayaraq,
[5] Özlərinə faydası olmayan xalqa görə hamı utanacaq.
O xalqın onlara nə köməyi, nə də faydası olacaq,
Ancaq xəcalət və rüsvayçılıq olacaq».

[6] Negev heyvanları barəsində xəbərdarlıq:
Yəhudanın elçiləri erkək və dişi aslanların,
Gürzələrin, uçan ilanların yaşadığı
Narahat və təhlükəli torpaqdan keçirlər.
Mal-dövlətini eşşəklərin belinə,
Xəzinələrini dəvələrin hürgücünə yükləyib
Onlara kömək edə bilməyən xalq üçün aparırlar.
[7] Misirin köməyi boş və faydasızdır,
Buna görə də Mən Misirə
«Tənbəl Rahav»[12] adını qoydum.

[8] «İndi get, sənə danışdığımı
Onların qarşısında bir lövhəyə yaz, kitaba köçür ki,
Gələcəkdə, əbədiyyətdə şahid olsun.
[9] Çünki bu, üsyankar xalq,
Yalançılar nəslidir,
Rəbbin qanununa qulaq asmaq istəməyən bir soydur.
[10] Onlar baxıcılara "bir daha görüntü görməyin",
Görücülərə "bizim üçün düzgün şeylər haqqında peyğəmbərlik etməyin,
Ürək açan şeylərdən nəql edin,
Bizə xoşa gələn sözlər söyləyin.
[11] Yoldan çəkilin, bizə yol verin,
İsrailin Müqəddəsini bizimlə üzləşdirməyin" deyirlər».

[12] Buna görə də İsrailin Müqəddəsi belə deyir:
«Bu sözü rədd etdiyinizə görə,
Zorakılığa və yalana güvənib bel bağladığınıza görə
[13] Bu qəbahət sizin üçün hündür divarda əmələ gələn çata bənzəyir,
Qəflətən, bir an içində dağıla bilər.
[14] Ölkəniz də bir gil qab kimi qırılacaq,
Elə xıncım-xıncım olacaq ki,
Ocaqdan od götürmək üçün,
Yaxud hovuzdan su çəkmək üçün heç qırığı da qalmayacaq».

[15] Xudavənd Rəbb İsrailin Müqəddəsi belə deyir:
«Mənə tərəf dönüb rahatlıq tapanda xilas olarsınız,
Sakitləşib inanmaqla qüdrətli olarsınız,
Lakin siz bunu istəmirsiniz.
[16] Siz dediniz: "Xeyr, atlara minib-qaçacağıq",
Buna görə siz qaçmalı olacaqsınız.
"Çevik atlara minəcəyik".
Buna görə tə'qibçiləriniz də çevik olacaq.
[17] Min nəfər bir nəfərin qışqırığından qaçacaq,
Beş nəfərin qışqırığından hamınız qaçacaqsınız.
Dağın zirvəsindəki bayrağın şüvülü tək,
Təpədəki bayraq kimi qalana qədər qaçacaqsınız».

[18] Amma Rəbb sizə lütf göstərmək üçün gözləyir,
Yenə də sizə rəhm etməyə hazırdır,
Çünki Rəbb adil Allahdır,
Onu intizarla gözləyənlər nə bəxtiyardır!

### *Rəbb xalqına bərəkət verəcək*

[19] Ey Yerusəlimdə yaşayanlar, ey Sion xalqı,
Siz artıq ağlamayacaqsınız,
Fəryad etdikdə Rəbb sizin üçün lütfkar olacaq,

---
[12] **30:7** *Rahav* – Misirin rəmzi.

Fəryadınızı eşidən kimi cavab verəcək.
20 Rəbb çörəyi əzabla, suyu çətinliklə
sizə verəcək,
Lakin O bir daha Mürəbbinizi sizdən
gizlətməyəcək,
Onu gözünüzlə görəcəksiniz.
21 Sağa ya sola azdığınız vaxt
Arxanızdan «Yol budur, gedin bu yola»
Deyilən səsi eşidəcəksiniz.
22 Onda siz gümüşlə örtülən oyma
bütlərinizi,
Qızılla örtülmüş tökmə bütlərinizi
Murdar hesab edəcəksiniz.
Murdar bir şeyi atdığınız kimi onları atıb
deyəcəksiniz:
«Rədd ol!»

23 Rəbb yerə əkdiyiniz toxum üçün yağış
verəcək,
Torpağın məhsulu bol və bərəkətli
olacaq.
O gün mal-qaranız geniş otlaqlarda
otlayacaq.
24 Torpağı şumlayan öküzlərlə eşşəklər
Kürəklə, yaba ilə sovrulmuş duzlu yem
yeyəcək.
25 O böyük məğlubiyyət günündə
Qalalar yerə çökəndə
Hər hündür dağdan,
Hər uca təpədən sellər axacaq.
26 Rəbb Öz xalqının yaralarını sarıdığı
gün,
Zərbəsi ilə açdığı yaralarına şəfa verən
gün,
Ay işığı günəş parıltısına bənzəyəcək,
Günəşin işığı yeddi günün işığı tək
Yeddi qat artıq parlayacaq.

### *Rəbb Aşşuru cəzalandıracaq*

27 Budur, Rəbbin adı uzaqdan gəlir,
Qızğın qeyzlə qara bulud içində
Ağzı qəzəbli sözlərlə doludur,
Dili sanki hər şeyi məhv edən alovdur.
28 Onun nəfəsi insan boğazına çatmış
daşan sel kimidir,
Millətləri ələkdən keçirəcək ki, məhv
olsunlar,
Xalqların ağzına yüyən taxacaq ki,
yolunu azsınlar.

29 Siz isə müqəddəs bayram gecəsi kimi
İlahilər oxuyacaqsınız.
Rəbbin dağına, İsrailin Qayasına tütək
çalaraq çıxan tək
Ürəyiniz şadlanacaq.

30 Rəbb əzəmətli səsini eşitdirəcək,
Qızğın qəzəblə, hər şeyi yandıran alovla,
Fırtına ilə, güclü leysanla, dolu ilə
Qolunun qüdrətini göstərəcək.
31 Aşşur Rəbbin səsindən vahiməyə
gələcək,
Rəbb dəyənəyi ilə onları vuracaq.
32 Rəbbin onlara endirdiyi dəyənəyinin
hər zərbəsini
Dəf və liralar müşayiət edəcək.
Döyüşərkən əl-qol atıb onları vuracaq.
33 Tofet çoxdan hazırdır,
Aşşur padşahı üçün də
O yer dərinləşdirilib genişləndirilmişdir.
Od çuxurunda çoxlu odun, alov var.
Rəbbin nəfəsi kükürd axını kimi onu
yandırar.

### *Rəbb Misirə güvənənləri qınayır*

31 1 Kömək üçün Misirə tərəf enənlərin,
atlara güvənənlərin
Vay halına!
Onlar döyüş arabalarının çoxluğuna,
Süvarilərin gücünə bel bağlayır!
Amma İsrailin Müqəddəsinə baxmırlar,
Rəbbi axtarmırlar!
2 Lakin Rəbb tam hikmətə malikdir,
O bəla gətirər, Öz sözlərini geri
götürməz,
Pislik edən adamlara,
Günahkarlara kömək edənlərə qarşı
çıxar.
3 Misirlilər Allah deyil, insandır,
Atları da ətdəndir, ruhdan deyil.
Rəbb Öz əlini uzadanda
Yardım edən büdrəyəcək,
Yardım alan yıxılacaq,
Hamısı birlikdə məhv olacaq.

4 Çünki Rəbb mənə belə dedi:
«Şir ya gənc aslan öz şikarı üstünə nə’rə
çəkəndə
Bir dəstə çoban ona qarşı haray salsa da,
Aslan onların səslərindən qorxmur,
Qışqırıqlarına məhəl qoymur.
Ordular Rəbbi də elə enəcək,
Sion dağını, onun təpələrini
Qorumaq üçün döyüşəcək.

5 Quş qanad açıb necə balalarını
qoruyursa,
Ordular Rəbbi Yerusəlimi də belə
qoruyacaq,
Müdafiə edəcək, qurtaracaq, saxlayacaq,
xilas edəcək».

6 Ey İsrail övladları,
Ona qarşı çox bivəfa olduğunuz Rəbbə
tərəf dönün!
7 Çünki o gün hamınız günahkar
əllərinizlə düzəltdiyiniz
Qızıl və gümüş bütlərinizi
tullayacaqsınız.

8 «Aşşurlular qılıncdan məhv olacaq,
İnsan qılıncından yox.
Onlar qılıncdan keçiriləcək,
Amma bu insan qılıncı olmayacaq.
Aşşurlular döyüş meydanından qaçacaq,
Cavanları isə yaxalanıb qul olacaq.
9 Aşşur padşahı dəhşət içində qaçacaq.
Sərkərdələri bayraqlarını atıb vəlvələyə
düşəcək».
Bunu alovu Sionda,
Ocağı Yerusəlimdə olan Rəbb bəyan
edir.

### *Saleh padşah*

32 1 Budur, padşah salehliklə hökm
sürəcək,
Başçılar ədalətlə rəhbərlik edəcək.
2 Onların hər biri
Küləyə qarşı bir pənahgah,
Fırtınaya qarşı sığınacaq,
Quraqlıqda bulaqlar,
Cansıxıcı torpaqda kölgə salan böyük
qaya kimi olacaq.
3 Görənlərin gözləri bir daha
yumulmayacaq,
Eşidənlərin qulaqları dinləyəcək.
4 Ağılsızların ağlı biliyə doğru yönələcək,
Pəltəklər açıq-aydın danışacaq.

5 Artıq axmaq adama alicənab
deyilməyəcək,
Alçağı ağayana insan saymayacaqlar.
6 Çünki axmaq səfeh-səfeh danışır,
Ürəyinin niyyəti pislik etməkdir.
Onun işi küfr edib,
Rəbbə qarşı təhqiranə danışmaq,
Acları ac, susuzları susuz qoymaqdır.
7 Alçaq adamın əməlləri pisdir.
O, hiylə işlədir ki,
Yalan sözlərlə haqlı olan yoxsula ziyan
versin.
8 Amma alicənab adam
Alicənab şeylər barəsində fikirləşər.
Elədiyi xoş əməllər ona dayaqdır.

### *Hökm və qurtuluş*

9 Ey qayğısız qadınlar,
Qalxın, səsimi eşidin!
Ey laqeyd qızlar, sözümü dinləyin!
10 Ey laqeyd qadınlar,
Siz bir ildən sonra sarsılacaqsınız,
Çünki bağda məhsul,
Meyvə yığımı olmayacaq.
11 Ey qayğısızlar, əsin!
Ey laqeydlər, lərzəyə gəlin,
Geyimlərinizi çıxarın,
Soyunun, belinizə çul qurşayın.
12 Gözəl tarlalar,
Məhsuldar meynələr üçün,
13 Xalqımın tikanlı kollar bitən torpağı
üçün,
Zövq-səfalı şəhərlərdəki şən evləriniz
üçün
Sinə döyün.
14 Çünki saray viranə,
İzdihamlı şəhər boş qalacaq,
Qala ilə gözətçi qülləsi
Əbədilik mağaralara çevriləcək,
Vəhşi eşşəklərin gəzdiyi,
Sürülərin otlaq yeri olacaq.

15 Bunlar yuxarıdan üzərimizə Ruh
tökülənədək davam edəcək.
O vaxt səhra məhsuldar tarlaya,
Məhsuldar tarla isə meşəyə dönəcək.
16 Sonra ədalət səhrada məskunlaşacaq,
Salehlik məhsuldar tarlada yaşayacaq.
17 Salehliyin bəhrəsi əmin-amanlıq,
Nəticəsi isə əbədi sakitlik və
təhlükəsizlik olacaq.
18 Xalqım əmin-amanlıq içində evlərində,
Təhlükəsiz məskəndə, rahat yerlərdə
yaşayacaq.
19 Dolu meşələrə düşsə də,
Şəhər yerlə yeksan olsa da,
20 Bütün sulu torpaqlarda toxum əkənlər,
Oraya malını, eşşəyini sərbəst
buraxanlar
Siz nə xoşbəxtsiniz!

### *Kömək üçün yalvarış*

33 [1] Vay halına, ey yıxıb-dağıdan,
Amma özü yıxılmayan insan!
Vay halına, ey xain adam,
Hərçənd sənə qarşı xəyanət etməmişlər!
Sən məhv edib qurtaran zaman
Özün də yıxılacaqsan,
Sən xain əməllərindən dönəndə
Xəyanətlə rastlaşacaqsan.

[2] Ya Rəbb, bizə qarşı lütfkar ol,
Çünki Sənə ümid etmişik.
Hər səhər bizim qüvvətimiz ol,
Fəlakət günündə bizi qurtar.
[3] Sənin qüdrətli səsindən xalqlar qaçır,
Sən ayağa qalxarkən
Millətlər pərən-pərən olur.
[4] Çəyirtkələr tarlanı nə cür talan edirlərsə,
Ey millətlər, qənimətiniz də o cür talan
olacaq.
Malınızın üstünə çəyirtkə yığını kimi
cumacaqlar.

[5] Rəbb ucadır, yüksəklərdə oturur,
Sionu ədalətlə və salehliklə doldurur.
[6] O, yaşadığınız dövrün təməlidir,
Qurtuluşun, hikmətin, biliyin mənbəyidir,
Rəbb qorxusu sənin xəzinəndir.

[7] Budur, millətlərin igidləri küçələrdə
çığırırlar.
Sülh qasidləri hönkürüb ağlayırlar.
[8] Yollar boşalıb, səyyahlar yoxdur.
Düşmən əhdi pozdu,
Şəhərləri dağıtdı, adamları alçaltdı.
[9] Ölkə yas tutur, zəifləyir,
Livan məğlub olub, solub,
Şaron səhraya dönür,
Başan və Karmelin ağacları yarpaqlarını
tökür.

### *Rəbbin xalqlara xəbərdarlığı*

[10] Rəbb deyir:
«İndi qalxacağam,
İndi yüksələcəyəm,
İndi ucalacağam.
[11] Samana hamilə qalıb küləş
doğacaqsınız,
Nəfəsiniz sizi məhv edən alova dönəcək.
[12] Xalqlar yanıb kül olacaq,
Kəsilib odda yandırılan tikanlı kollara
oxşayacaq.
[13] Ey uzaqda yaşayanlar,
Nə elədiyimi eşidin,
Ey yaxında yaşayanlar,
Mənim gücümü bilin».

[14] Siondakı günahkarlar dəhşətə,
Allahsızlar lərzəyə gəldi:
«Hər şeyi məhv edən alovun yanında
hansımız yaşaya bilərik?
Əbədi yanan atəşin yanında hansımız
dayana bilərik?»
[15] Amma salehlik yolu ilə gedən,
Doğru sözlər danışan,
Zorakılıqla əldə edilən qazancı rədd
edən,
Əlini rüşvətdən uzaq tutan,
Qatillərin qurduğu qəsdə fikir verməyən,
Pisliyə qarşı gözlərini yuman
[16] Yüksəkliklərdə yaşayacaq,
Təpələrin başındakı qalalar onun dayağı
olacaq.
O, çöræklə, su ilə tə'min olunacaq.

### *Parlaq gələcək*

[17] Gözlərin padşahı bütün gözəlliyi ilə
görəcək,
Ucsuz-bucaqsız ölkəni seyr edəcək.
[18] «Haradadır xərac yığan?
Haradadır qeydiyyat aparan?
Haradadır qüllələrə nəzər salan?»
deyərək
Dəhşətli günlər haqqında düşünəcəksən.
[19] Anlaşılmaz, yad dildə danışan
Təkəbbürlü xalqı daha görməyəcəksən.

[20] Bayramlar keçirdiyimiz şəhərə – Siona
bax!
Gözlərin Yerusəlimi,
Sarsılmaz çadırı, sülh məskənini görəcək.
Onun payaları heç vaxt sökülməyəcək,
Kəndirlərinin heç biri qırılmayacaq.
[21] Lakin orada –
Geniş çayların, irmaqların olduğu yerdə
Əzəmətli Rəbb bizimlə olacaq.
Oradan avarlı qayıqlar, böyük gəmilər
Keçə bilməz.
[22] Çünki Rəbdir hakim olan,
Rəbdir qanunumuzu qoyan,
Padşahımız Rəbdir, Odur bizi qurtaran.
[23] Gəmilərinin ipləri boşaldı,
Dor ağacları yerində möhkəm
dayanmadı,
Yelkənləri açılmadı.
O vaxt böyük talan malı paylanacaq,

Hətta topal adamlar da talan edəcək.
24 Heç bir Sion sakini
«Xəstəyəm» deməyəcək,
Orada yaşayan xalqın günahları
bağışlanacaq.

### *Allahın millətlərə cəza verməsi*

34 1 Ey millətlər, yaxın gəlin, eşidin,
Ey ümmətlər, dinləyin!
Ey dünya və sakinləri,
Yer üzü və onun bütün yetirmələri,
qulaq asın!
2 Çünki Rəbb bütün millətlərə qarşı
qəzəbləndi,
Onların ordularına qarşı qeyzə gəldi.
Onların hamısını məhv edəcək,
Ölümə məhkum edəcək.
3 Ölüləri kənara atılacaq,
Meyitlərindən üfunət qalxacaq,
Dağlar onların qanına bulanacaq.
4 Bütün göy cisimləri çürüyəcək,
Göylər bir tumar kimi bükülləcək.
Göy ulduzları meynə yarpağı kimi,
Əncir yarpağı kimi düşəcək, saralıb-
solacaq.

5 Rəbb deyir:
«Qılıncım göylərdə doyunca qan içdi,
İndi o, Edomun üzərinə,
Tamamilə məhkum etdiyim xalqın
üzərinə enir».
6 Rəbbin qılıncı qanla, quzu və təkə qanı
ilə doydu,
Qoç böyrəklərinin yağı ilə piy bağladı.
Çünki Rəbb Bosrada qurban,
Edomda isə böyük qırğın hazırlayıb.
7 Onlarla birlikdə çöl öküzləri,
Buzovlar, güclü buğalar yerə sərilləcək.
Torpaqları qanla doyacaq, yer üzü piy
bağlayacaq.

8 Çünki Rəbbin qisas günü var,
Siona edilən zülmlərin intiqam ili var.
9 Edomun axar suları qatrana,
Torpağı kükürdə dönəcək,
Ölkənin hər tərəfi yanan qatran olacaq.
10 Qatran gecə-gündüz sönməyəcək,
tüstüsü həmişə qalxacaq.
Bu torpaq nəsildən-nəslə viran qalacaq,
Əsrlər boyu oradan bir kəs keçməyəcək.
11 Ora bayquşlarla kirpilərin
məskunlaşdığı yer olacaq,
Böyük bayquşlarla qarğalar orada
yaşayacaq.
Rəbb Edom üzərinə qarmaqarışıqlıq
ipini, viranəlik şaqulunu salacaq.
12 Orada heç bir adlı-sanlı adam
qalmayacaq ki,
Onu padşah e'lan etsinlər.
Bütün başçıların sonu gələcək.
13 Saraylarında tikanlar,
Qalalarında gicitkən və böyürtkən
bitəcək.
Ora çaqqalların yurdu, dəvəquşuların
yuvası olacaq.
14 Vəhşi heyvanlarla goreşənlər orada
görüşəcək,
Təkələr bir-birini səsləyəcək,
Gecə heyvanları da orada məskunlaşıb
rahat yer tapacaq.
15 Orada bayquş yuva quracaq,
yumurtlayacaq,
Öz kölgəsi altında balalar çıxaracaq.
Çalağanlar da orada cüt-cüt yığışacaq.

16 Rəbbin kitabını araşdırın, oxuyun,
Bunlardan heç biri əskik olmayacaq,
Hər bir dişi heyvan öz cütünü tapacaq,
Çünki bu əmr Onun ağzından çıxdı,
Ruhu da onları toplayacaq.
17 Rəbb Özü onlar üçün püşk atdı,
Əli ilə ölkəni ölçüb, onlara payladı.
Onlar bu ölkəyə əbədi malik olacaq,
Nəsildən-nəslə burada yaşayacaq.

### *Müqəddəs yol*

35 1 Səhra və quru torpaq sevinəcək,
Çöl şadlanacaq, nərgiz kimi
çiçəklənəcək.
2 Hər yan gül açacaq,
Şadlanacaq, sevincdən nəğmə oxuyacaq.
Livanın gözəlliyi, şan-şöhrəti,
Karmelin və Şaronun cah-cəlalı ona
veriləcək.
Hamı Rəbbin izzətini, Allahımızın
əzəmətini görəcək.

3 Zəif əllərə qüvvət verin,
Əsən dizləri möhkəmləndirin.
4 Ürəklərində qorxanlara deyin:

***34:4*** *– Vəhy 6:13*
***34:5-17*** *– Yeş. 63:1-6; Yer. 49:7-22; Yez. 25:12-14; 35:1-15; Amos 1:11-12; Avd. 1-14; Mal. 1:2-5*
***34:10*** *– Vəhy 14:11; 19:3*
***35:3*** *– İbr. 12:12-13*

«Cəsarətlənin, qorxmayın!
Budur, Allahınız
İntiqam almaq, düşmənlərinizdən qisas almaq üçün gəlir.
O gəlib sizə qurtuluş verəcək!»

5 O vaxt korların gözləri, karların qulaqları açılacaq,
6 Axsaqlar ceyran kimi hoppanacaq,
Lalların dili sevinclə nəğmə deyəcək,
Çünki səhrada bulaqlar fışqıracaq,
Quru torpaqda çaylar axacaq.
7 Qızğın qum hovuza, susuz torpaq su bulaqlarına çevriləcək.
Çaqqalların yaşadığı yerlərdə qamış və qarğı bitəcək.

8 Orada bir yol olacaq,
O yol «Müqəddəs yol» adlanacaq.
Murdar adam oradan keçməyəcək,
O yol qurtuluş tapanların yoludur.
Ora ilə gedənlərdən heç biri,
Hətta ağılsızlar da keçsələr,
Əsla yolunu azmayacaq.
9 Orada şirlər olmayacaq,
Yırtıcı heyvanlar o yola çıxmayacaq,
Onlara orada rast gəlməyəcəklər.
Ancaq qurtuluş tapanlar o yol ilə gəzəcək.
10 Rəbbin satın alınmış adamları qayıdacaq,
Sevinclə nəğmə deyərək Siona gələcək.
Üzlərində əbədi sevinc olacaq,
Onlar fərəh və şadlıq tapacaq,
Kədər və qəm-qüssə yox olacaq!

### *Aşşurluların hədələməsi*

*(2Pad. 18:13-27; 2Saln. 32:1-19)*

36 1 Xizqiyanın padşahlığının on
dördüncü ilində Aşşur padşahı
Sanxeriv Yəhudanın bütün qalalı şəhərlərinə
hücum edib onları aldı. 2 Aşşur padşahı baş
vəzirini böyük qoşunla Lakişdən Yerusəlimə,
padşah Xizqiyanın yanına göndərdi. Baş vəzir
Mahudbasan tarlası yoluna, yuxarı hovuzun
su kəmərinin yanına qalxıb orada dayandı.
3 Saray rəisi Xilqiya oğlu Elyaqim, mirzə
Şevna və salnaməçi Asəf oğlu Yoah onun
qabağına çıxdılar.
4 Baş vəzir onlara dedi: «İndi Xizqiyaya
söyləyin ki, böyük padşah – Aşşur padşahı
belə deyir: “Nəyə güvənirsən? 5 Mən deyirəm
ki, sən boş şeyə güvənirsən. Müharibə üçün
tədbir və güc lazımdır. İndi sən kimə
güvənirsən ki, mənə qarşı çıxırsan? 6 Yəqin
sən əzilmiş qamış çubuğuna – Misirə
güvənirsən. Bil ki, kim ona söykənsə, əlinə
batıb deşər. Misir padşahı fir’on ona
güvənənlərin hamısı üçün belədir. 7 Bəlkə
mənə ‹biz Allahımız Rəbbə güvənirik›
söyləyəsən. Məgər bu o Allah deyildi ki,
Xizqiya Onun səcdəgahlarını və
qurbangahlarını aradan qaldırdı? O,
Yəhudalılara və Yerusəlimlilərə də ‹yalnız
qurbangahın önündə səcdə edin› demədimi?
8 İndi ağam Aşşur padşahı ilə mərcə gəl: əgər
sən iki min süvari tapa bilsən, mən sənə o
qədər at verərəm. 9 Görək, sən ağamın kiçik
qulu olan bir başçını necə məğlub edəcəksən.
Sən hələ döyüş arabaları və süvarilər almaq
üçün Misirə güvənirsən! 10 Məgər indi mən bu
torpağı viran etməyə Rəbbin istəyi ilə
gəlmədimmi? Rəbb mənə ‹bu ölkəyə hücum
edib onu viran et› dedi”».
11 Elyaqim, Şevna və Yoah baş vəzirə dedi:
«Xahiş edirik, bu qullarınla Arami dilində
danış, biz bu dili başa düşürük. Ancaq divar
üzərindəki xalqın eşitdiyi yerdə bizimlə
Yəhudi dilində danışma». 12 Baş vəzir dedi:
«Məgər ağam məni göndərib ki, bu sözləri
təkcə sənin ağana və sənə, yoxsa divar
üzərində oturan bu adamlara söyləyim? Axı
onlar da sizinlə birgə nəcislərini yeyib,
sidiklərini içəcəklər».
13 Onda baş vəzir durub Yəhudi dilində uca
səslə bağıraraq dedi: «Böyük padşahın –
Aşşur padşahının sözünü eşidin! 14 Padşah
belə deyir: “Xizqiya sizi aldatmasın, sizi
qurtara bilməyəcək. 15 Qoy Xizqiya sizə ‹Rəbb
bizi hökmən qurtaracaq və bu şəhər Aşşur
padşahına təslim edilməyəcək› deyib Rəbbə
arxayın etməsin”. 16 Ona qulaq asmayın!
Çünki Aşşur padşahı belə deyir: “Mənimlə
sülh bağlayın və yanıma gəlin. Mən gələnə
qədər hər kəs öz üzüm meynəsinin və əncir
ağacının bəhrəsindən yeyib öz quyusunun
suyundan içəcək. 17 Sonra mən gəlib sizi
ölkənizə bənzər bir ölkəyə – buğda, şərab,
çörək, üzüm bağları olan bir torpağa

***35:5-6*** – *Mat. 11:5; Luk. 7:22*
***35:10*** – *Yeş. 51:11*
***36:6*** – *Yez. 29:6,7*

aparacağam. 18 ‹Rəbb bizi qurtaracaq› deyib
qoy Xizqiya sizi azdırmasın. Millətlərin
allahlarından biri öz ölkəsini Aşşur
padşahının əlindən qurtardımı? 19 Hanı
Xamatın və Arpadın allahları? Hanı
Sefarvayimin allahları? Samariyanı mənim
əlimdən qurtardılarmı? 20 Bütün bu allahlardan
hansı öz ölkəsini mənim əlimdən qurtardı?
Bəs Rəbb necə Yerusəlimi mənim əlimdən
qurtara bilər?”»

21 Camaat susdu və onun cavabında heç nə
demədi. Çünki padşah «ona cavab verməyin»
deyə əmr etmişdi. 22 Saray rəisi Xilqiya oğlu
Elyaqim, mirzə Şevna və salnaməçi Asəf oğlu
Yoah cırılmış paltarlarda Xizqiyanın yanına
gəlib baş vəzirin sözlərini ona çatdırdılar.

### *Padşah Xizqiya Yeşayadan məsləhət alır*

*(2Pad. 19:1-7)*

37 1 Padşah Xizqiya bunu eşidəndə
paltarını cırdı və çula bürünüb Rəbbin
mə’bədinə girdi. 2 O, saray rəisi Elyaqimi,
mirzə Şevnanı və kahinlərin ağsaqqallarını
çula bürünmüş halda peyğəmbər Amots oğlu
Yeşayanın yanına göndərdi. 3 Onlar Yeşayaya
dedilər: «Xizqiya belə deyir: “Bu gün bəla,
təhqir və rüsvayçılıq günüdür, çünki uşaqların
doğulma vaxtı çatıb, ancaq doğmağa güc
yoxdur. 4 Bəlkə ağası Aşşur padşahının var
olan Allahı təhqir etməyə göndərdiyi baş
vəzirin sözlərini Allahın Rəbb eşidib buna
görə məzəmmət edər. Ona görə də qalanlar
üçün dua et”».

5 Padşah Xizqiyanın adamları Yeşayanın
yanına gələndə 6 Yeşaya onlara dedi:
«Ağanıza söyləyin ki, Rəbb belə deyir:
“Aşşur padşahının nökərlərinin Mənə qarşı
küfr edərək söylədiyi və sənin eşitdiyin
sözlərdən qorxma. 7 Mən onun daxilinə elə bir
ruh göndərəcəyəm ki, bir xəbər eşidib öz
ölkəsinə qayıdacaq və orada onu qılıncla
öldürtdürəcəyəm”».

### *Aşşur padşahının məktubu*

*(2Pad. 19:8-19)*

8 Baş vəzir geri qayıdıb Aşşur padşahının
Livna üzərinə hücum etdiyini gördü. Çünki
Lakişdən geri çəkildiyini eşitmişdi. 9 Aşşur
padşahına «Kuş padşahı Tirhaqa sənin üstünə
vuruşmağa gəlir» xəbəri çatdı. O bunu
eşidəndə Xizqiyanın yanına qasidlər göndərib
dedi: 10 «Yəhuda padşahı Xizqiyaya belə
söyləyin: “Qoy güvəndiyin Allahın
‹Yerusəlim Aşşur padşahına təslim
edilməyəcək› deyə səni aldatmasın. 11 Axı sən
eşitdin ki, Aşşur padşahları bütün ölkələrə nə
ediblər, oraları necə viran ediblər. Sən qurtula
biləcəksənmi? 12 Atalarımın məhv etdikləri
millətlərin – Qozanın, Xaranın, Resefin və
Telassarda olan Edenlilərin allahları onları
qurtardılarmı? 13 Hanı Xamat padşahı, Arpad
padşahı, Sefarvayim şəhərinin, Henanın və
Avvanın padşahı?”»

14 Xizqiya məktubu qasidlərdən alıb oxudu.
O, Rəbbin mə’bədinə qalxıb məktubu Rəbbin
önündə yerə sərdi. 15 Xizqiya Rəbbə dua edib
dedi: 16 «Ey keruvlar üstündə əyləşən Ordular
Rəbbi olan İsrailin Allahı! Bütün dünya
padşahlıqlarının Allahı yalnız Sənsən. Göyü
və yeri Sən yaratmısan. 17 Ya Rəbb, qulağın
eşitsin, gözün görsün. Sanxerivin var olan
Allaha qarşı küfr edərək göndərdiyi bütün
sözlərə qulaq as. 18 Ya Rəbb, doğrudur, Aşşur
padşahları bütün ölkələri və onların
torpaqlarını talan etdi, 19 allahlarını oda atıb
məhv etdi. Çünki onlar Allah deyildi, insanlar
onları ağac və daşdan düzəltmişdi. 20 Ey
Allahımız Rəbb, indi isə yalvarıram, bizi
onun əlindən qurtar və bütün dünya
padşahlıqları bilsin ki, Rəbb yalnız Sənsən!»

### *Yeşaya Aşşurluların məğlubiyyəti barədə peyğəmbərlik edir*

*(2Pad. 19:20-37)*

21 Amots oğlu Yeşaya Xizqiyaya xəbər
göndərib dedi: «İsrail Allahı Rəbb belə deyir:
“Aşşur padşahı Sanxeriv barədə Mənə dua
etdin”. 22 Onun haqqında Rəbbin söylədiyi söz
budur:

“Bakirə Sion qızı
Sənə xor baxıb lağ edir,
Yerusəlim qızı
Sənin arxanca başını bulayır.
23 Kimi söyüb küfr etdin?
Kimə qarşı səsini qaldırdın?
Kimə lovğalıqla baxdın?
İsrailin Müqəddəsinə!
24 Nökərlərinin vasitəsilə Rəbbi təhqir
edib dedin:
‹Çoxlu döyüş arabalarımla
Dağların zirvəsinə,
Livanın ən uca yerlərinə çıxdım.
Uca sidr ağaclarını,
Gözəl şam ağaclarını kəsdim,

---

***37:16*** *– Çıx. 25:22*

Uzaq təpələrinə,
Yaşıl meşələrinə çıxdım.
25 Quyu qazdım və sularını içdim,
Misirin bütün çaylarını ayağımla
qurutdum›.

26 Məgər eşitməmisən ki,
Mən çoxdan bu işi hazırladım,
Qədimdən bəri müəyyən etdiyimi
İndi yerinə yetirirəm ki,
Sən qalalı şəhərləri dağıdıb
Viranəliyə çevirəsən.
27 Bu şəhərlərin sakinləri zəiflədi,
Çaşqınlığa və xəcalətə düşdü.
Yetişməmişdən əvvəl yandırılan
Çöl otu, göyərti və damda bitən ot kimi
oldu.
28 Sənin oturuşunu,
Girişini-çıxışını,
Mənə qarşı hiddətini bilirəm.
29 Mənə qarşı hiddətləndiyinə görə,
Lovğalığın qulağıma çatdığına görə
Halqamı burnuna və yüyənimi ağzına
taxacağam,
Səni gəldiyin yolla geri qaytaracağam.

30 Ancaq sənin üçün əlamət budur, ey
Xizqiya!
Bu il və gələn il özü yetişən barını,
Üçüncü il isə taxıl zəmilərini,
Üzüm bağları salıb onların bəhrəsini
yeyin.
31 Yəhuda nəslindən xilas olub qalanlar
Yenə aşağıya doğru kök atacaq,
Yuxarıya doğru bəhrə verəcək.
32 Çünki qalanlar Yerusəlimdən,
Xilas olanlar Sion dağından çıxacaq.
Ordular Rəbbinin qeyrəti bunu edəcək”.

33 Buna görə Aşşur padşahı barədə Rəbb
belə deyir:
“O bu şəhərə girməyəcək,
Oraya ox atmayacaq,
Qarşısına qalxanla çıxmayacaq,
Qala önündə torpaq qalağı qurmayacaq.
34 Ancaq gəldiyi yolla geri qayıdacaq,
Bu şəhərə girməyəcək”
Rəbb bəyan edir.
35 “Mən bu şəhəri Özüm üçün,
Qulum Davudun xatirinə qoruyub xilas
edəcəyəm”».

36 O gecə Rəbbin mələyi çıxıb Aşşur
ordugahında yüz səksən beş min nəfəri qırdı.
Səhər erkən qalxıb gördülər ki, onların hamısı
öldürülüb. 37 Aşşur padşahı Sanxeriv geri
çəkilib getdi və Ninevada qaldı. 38 O öz allahı
Nisrokun mə’bədində səcdə edərkən oğulları
Adrammelek ilə Şareser onu qılıncla öldürdü
və Urartu ölkəsinə qaçdı. Sanxerivin yerinə
oğlu Esar-Xaddon padşah oldu.

### *Xizqiyanın xəstələnməsi*

*(2Pad. 20:1-11; 2Saln. 32:24-26)*

38 1 O günlərdə Xizqiya ölümcül
xəstələndi. Peyğəmbər Amots oğlu
Yeşaya onun yanına gəlib dedi: «Rəbb belə
deyir: “Evin üçün vəsiyyət et, çünki
xəstəlikdən sağalmayıb öləcəksən”».
2 Xizqiya üzünü divara çevirdi və Rəbbə
dua edib dedi: 3 «Yalvarıram, ya Rəbb, yadına
sal ki, necə Sənin önündə salehliklə və sidq
ürəklə davranmışam, necə Sənin gözündə
yaxşı olan işlər etmişəm». Xizqiya acı-acı
ağladı.
4 Sonra Rəbbin sözü Yeşayaya nazil oldu:
5 «Qayıt, Xizqiyaya söylə ki, baban Davudun
Allahı Rəbb belə deyir: “Sənin duanı eşitdim,
göz yaşlarını gördüm. Bax sənin ömrünü on
beş il artırıram. 6 Səni və bu şəhəri Aşşur
padşahının əlindən qurtaracağam. Bu şəhəri
qoruyacağam. 7 Söylədiyi sözə əməl
edəcəyinə Rəbbin verdiyi əlamət budur:
8 batan günəşin Axazın tikdiyi günəş saatının
üstünə düşən kölgəsi on dərəcə geri
çəkiləcək”». Beləliklə, günəş enmə
dərəcəsindən on dərəcə geri çəkildi.
9 Yəhuda padşahı Xizqiya xəstələnib şəfa
tapdığından sonra bunu yazdı:
10 «Mən öz-özümə dedim:
Ömrüm yarıya çatan zaman
Ölülər diyarının qapısından keçməliyəm,
Həyatımın qalan illərindən məhrum
olmuşam.
11 Dedim, Rəbbi dirilər arasında,
Bəli, Rəbbi bir daha görməyəcəyəm.
Bu dünyada yaşayanlar kimi
Artıq insan üzü görməyəcəyəm.
12 Evim çoban çadırı kimi dağıldı,
Əlimdən alındı.
Həyatım dəzgahda toxunan saplar kimi
dövr edirdi,
Ya Rəbb, bu dəzgahdan məni kəsdin.
Bir günün içində əcəlimi çatdırdın.

13 Səhərə qədər ağrılardan çığırdım,
Rəbb aslan tək bütün sümüklərimi qırır.
Bir günün içində əcəlimi çatdırdın.
14 Qaranquş kimi, durna kimi çığırdım,
Mən göyərçin tək inləyirəm.
Göyə baxmaqdan gözlərim yoruldu.
Ya Xudavənd, imdadıma çat, zülmə düşmüşəm!

15 Nə deyim? Mənimlə danışan, bunu edən Rəbdir.
Çəkdiyim əzablardan sonra qalan illərimi
Sakit yaşayacağam.
16 Ya Xudavənd, adamları yaşadan Sənsən,
Məni də Sən yaşadırsan.
Məni yenə canlandıracaqsan,
Yaşat məni!
17 Çəkdiyim əzab-əziyyətim mənim xeyrimə oldu.
Sən sevginlə canımı qəbirdən qurtardın,
Bütün günahlarımı aradan götürdün.
18 Axı ölülər diyarı sənə şükür etməz,
Ölüm həmdlər söyləməz,
Qəbrə düşənlər sənin sədaqətinə ümid etməz.
19 Bu gün Sənə etdiyim kimi
Dirilər, yalnız dirilər Sənə şükür edər.
Atalar Sənin sədaqətini övladlarına tanıtdırır.

20 Rəbb mənə qurtuluş verdi,
Ömrümüz boyu Rəbbin mə'bədində
Simli alətlərlə
Səni ilahilərlə mədh edərik».
21 Əvvəl Yeşaya demişdi: «Əncir kündəsi
götürün, çibanın üstünə qoyun ki, padşah
sağalsın». 22 Xizqiya dedi: «Rəbbin mə'bədinə
qalxmağım üçün əlamət nədir?»

### *Xizqiyanın ağılsızlığı*

*(2Pad. 20:12-19)*

39 1 O zaman Babil padşahı Baladan
oğlu Merodak-Baladan Xizqiyaya
məktublar və hədiyyələr göndərdi, çünki
Xizqiyanın xəstələndiyini və sağaldığını
eşitmişdi. 2 Bunlar Xizqiyanı sevindirdi. O,
xəzinəsində olan şeyləri – qızıl-gümüşü,
ətriyyatı, qiymətli yağları, silah anbarındakı
bütün əşyaları elçilərə göstərdi. Xizqiyanın
sarayında və bütün torpağında onlara
göstərmədiyi bir şey qalmadı.
3 Onda Yeşaya peyğəmbər padşah
Xizqiyanın yanına gəlib, ona dedi: «Bu
adamlar nə dedi? Onlar sənin yanına haradan
gəldi?» Xizqiya dedi: «Uzaq bir ölkədən –
Babildən gəldilər». 4 Yeşaya dedi: «Sənin
sarayında nə gördülər?» Xizqiya dedi:
«Sarayımda olan bütün şeyləri gördülər.
Xəzinəmdə onlara göstərmədiyim bir şey
qalmadı».
5 Onda Yeşaya Xizqiyaya dedi: «Ordular
Rəbbinin sözünü dinlə: 6 "Bir gün gələcək ki,
sənin sarayında olan hər şey və atalarının bu
günə qədər yığdıqları şeylər Babilə aparılacaq,
heç nə qalmayacaq" deyir Rəbb. 7 "Sənin
nəslindən olan və səndən törəyən bə'zi
oğullarını götürüb aparacaqlar və onlar Babil
padşahının sarayında hərəmağası olacaqlar"».
8 Xizqiya Yeşayaya dedi: «Söylədiyin Rəbbin
sözü yaxşı sözdür». Sonra dedi: «Heç olmasa
mənim dövrümdə sülh və əmin-amanlıq
olacaq».

### *Təsəlliverici sözlər*

40 1 Allahınız deyir:
«Təsəlli verin xalqıma, təsəlli verin!
2 Yerusəlim sakinlərinə təskinlik verən sözlər söyləyin!
Əsirlik dövrünün qurtarmasını,
Təqsirlərinin əvəzinin verilməsi
Bütün günahlarına görə Rəbbin əlindən
İkiqat cəza aldıqlarını onlara bəyan edin».

3 Bir nəfərin nida səsi gəlir:
«Səhrada Rəbbin yolunu hazırlayın,
Çöldə Allahımızın keçəcəyi yerləri hamar edin.
4 Hər dərə yüksəldiləcək,
Hər dağ və təpə aşağı endiriləcək,
Yoldakı əyriliklər düzələcək,
Kələ-kötür yerlər hamar ediləcək.
5 Rəbbin əzəməti aşkar olunacaq,
Bütün bəşər bunu birlikdə görəcək».
Bu sözlər Rəbbin ağzından çıxıb.

6 Səs deyir: «Bəyan et!»
«Nəyi bəyan edim?» deyə soruşdum.
«Bütün bəşər ota bənzər,

---

***39:7*** *– 2Pad. 24:10-16; 2Saln. 36:10; Dan. 1:1-7*
***40:3*** *– Mat. 3:3; Mrk. 1:3; Yəh. 1:23*
***40:3-5*** *– Luk. 3:4-6*
***40:6-8*** *– Yaq. 1:9-11; 1Pet. 1:24-25*

Onların bütün gözəlliyi çöl çiçəyi
kimidir.
7 Rəbb nəfəsini üzərinə üfürəndə
Ot quruyar, çiçək solar,
Həqiqətən, bu xalq ota oxşar.
8 Ot quruyar, çiçək solar,
Amma Allahımızın sözü əbədi qalar».

### *İsrail Allahı qüdrətlidir*

9 Ey Siona müjdə gətirən, yüksək dağa
çıx!
Ey Yerusəlimə xoş xəbər gətirən,
Ucalt səsini, car çək,
Qaldır səsini, qorxma.
Yəhuda şəhərlərinə de:
«Budur Allahınız!»
10 Budur, Xudavənd Rəbb Öz qüvvəsi
ilə gəlir,
O, qüdrətlə hökm edəcək,
Mükafatı Onunladır,
Ən'amı önündədir.
11 O Öz sürüsünü çoban kimi otaracaq,
Quzuları qucağına alacaq, sinəsində
gəzdirəcək,
Sağmal heyvanların qayğısını çəkib
otaracaq.

12 Kim dənizləri ovcu ilə,
Göyləri qarışı ilə ölçüb?
Yerin torpağını ölçü ilə,
Dağları qapanla,
Təpələri tərəzi ilə kim çəkib?
13 Rəbbin Ruhunu kim idarə edə bildi?
Ona kim öyüd-nəsihət verə bildi?
14 Ağıl öyrənmək üçün O kimdən
məsləhət alıb?
Ədalət yolunu kimdir ona göstərən?
Kimdir Rəbbə bilik verən?
Kimdir Ona dərrakə yolunu anladan?

15 Rəbb üçün millətlər vedrədə bir damla
su kimidir,
Tərəzidə toz zərrəsi kimi sayılar,
Budur, adaları da toz kimi göyə sovurar.
16 Qurbanları yandırmaq üçün
Livan meşəsi kifayət deyil,
Yandırma qurbanlar üçün oradakı
heyvanlar bəs deyil.

17 Rəbbin önündə bütün millətlər heç bir
şeydir,
Heç bir şeydən də aşağıdır, heç nəyə
dəyməz.
18 Bəs onda Allahı kimə bənzədərsiniz?
Onu nəyə oxşadarsınız?
19 Ustanın tökdüyü,
Üstünü zərgərin qızılla örtdüyü,
Gümüş zəncirlərlə bəzədiyi bütəmi?
20 Belə təqdimi gətirə bilməyən yoxsul
adam
Çürüməyən bir ağac seçər,
Məharətli usta tapar ki,
Yerindən tərpənməyən büt düzəltsin?

21 Məgər siz bilmirsiniz?
Məgər eşitməmisiniz?
Başlanğıcdan bəri bunu sizə
bildirmədilərmi?
Dünyanın təməli qoyulduqdan bəri bunu
dərk etmədinizmi?
22 Rəbb göy qübbəsinin üstündə oturur,
Yer üzündə yaşayanlar çəyirtkə kimidir.
Göyləri tül pərdə kimi açır,
Onları yaşamaq üçün çadır kimi qurur.
23 Rəbb padşahları heç edər,
Dünya hökmdarlarını heçə endirər.
24 Padşahlar yeni əkilmiş toxumu
təzəliklə səpilmiş,
Gövdələri yenicə kök salmış ağaclara
bənzər.
Rəbbin nəfəsi onları qurudar,
Fırtına onları saman çöpü kimi sovurar.

25 «Bəs Məni onda kimə bənzədərsiniz ki,
Mən ona oxşayım?»
Deyir Müqəddəs Olan.
26 Başınızı göylərə qaldırıb baxın:
Bunları kim yaratdı?
Rəbb göy cisimləri sıraya düzüb çıxarar,
Onların hamısını adları ilə çağırar.
Bol qüvvəsinə, böyük qüdrətinə görə
Onlardan heç biri də əskik olmaz.

27 Ey Yaqub nəsli, ey İsrail!
Nə üçün «Rəbb başıma gələnləri bilmir,
Allahım mənim haqqıma diqqətsizlik
edir?»
Deyib gileylənirsən?
28 Məgər sən bilmirsən?

***40:10*** *– Yeş. 62:11; Vəhy 22:12*
***40:11*** *– Yəh. 10:11*
***40:13*** *– Rom. 11:34; 1Kor. 2:16*
***40:18-19*** *– Həv. 17:29*
***40:26*** *– Zəb. 147:4*

Məgər eşitməmisən?
Rəbb əbədi Allahdır,
Odur bütün dünyanı yaradan.
Nə yorulur, nə taqətdən düşür,
Onun ağlı dərkedilməzdir.
29 O, yorğunlara güc verər,
Taqətsizlərin qüvvətini artırar.
30 Hətta cavanlar yorular, taqətdən düşər,
İgidlər əldən düşüb titrəyər.
31 Rəbbə ümid bağlayanlar isə
Yeni qüvvət alar,
Qanad açıb qartal kimi yüksəklərə uçar,
Qaçanda taqətdən düşməzlər,
Yol gedib yorulmazlar.

### *Allahın İsrailə verdiyi tə'minat*

41 1 Rəbb deyir:
«Susun qarşımda, ey uzaq diyarlar!
Qoy ümmətlər yeni güc alsın,
Qoy yaxınlaşıb danışsınlar,
Məhkəmə üçün birgə toplaşaq.
2 Ədalətli adamı şərqdən kim ayağa
qaldırdı?
Kim ona xidmət etməyi əmr etdi?
Millətləri onun ixtiyarına kim verdi?
Padşahları kim məğlub etdi?
O öz qılıncı ilə
Onları torpağın tozuna çevirir,
Yayı ilə göyə sovrulan samana döndərir.
3 O onları tə'qib edir,
Ayaqlarını basmadığı yoldan sağ-
salamat keçir.
4 Bunları kim etdi, tamamladı?
Əzəldən bəri nəsilləri çağıran kimdir?
Mən Rəbb birinciyəm və axırda da Mən
varam».

5 Uzaq diyarlar bunu görüb qorxdular,
Dünyanın ucqar yerləri lərzəyə gəldi.
Onlar yaxınlaşıb gəldilər,
6 Hər kəs qonşusuna kömək edir,
Qardaşına «Cəsur ol!» deyir.
7 Usta zərgəri ürəkləndirir,
Hamarlayan zindana çəkiclə vuranı
ruhlandırır,
«Lehim yaxşı oldu» deyir.
Büt yerindən laxlamasın deyə bütün
mıxları bərkidirlər.

8 Lakin sən ey qulum İsrail,
Seçdiyim Yaqub nəsli,
Dostum İbrahimin övladları!
9 Səni dünyanın ucqar yerlərindən
topladım,
Ən uzaq yerlərdən səslədim:
«Sən qulumsan, səni seçdim, rədd
etmədim» dedim.
10 Qorxma, çünki Mən səninləyəm,
Dəhşətə gəlmə, çünki Allahın Mənəm.
Səni qüvvətləndirəcəyəm,
Sənə kömək edəcəyəm.
Sadiq sağ əlimlə Sənə dayaq olacağam.
11 Sənə qarşı hirslənənlər hamısı xəcalət
çəkib biabır olacaq,
Sənə qarşı çıxanlar heçə çıxıb tələf
olacaq.
12 Səninlə düşmənçilik edənləri
axtaracaqsan,
Amma tapa bilməyəcəksən,
Səninlə vuruşanlar heç olacaq,
13 Çünki sənin sağ əlindən tutub
«Qorxma, sənə kömək edəcəyəm» deyən
Allahın Rəbb Mənəm.

14 «Ey torpaq qurdu olan Yaqub nəsli,
Ey İsrail əhli, qorxma!
Sənə kömək edəcəyəm» Rəbb bəyan edir.
Səni Satınalan İsrailin Müqəddəsidir.
15 Budur, səni təzə, dişləri iti vəl
edəcəyəm.
Sən dağları döyüb əzəcəksən,
Təpələri saman çöpü kimi sovuracaqsan.
16 Sən onları sovurduqda külək aparacaq,
Qasırğa onları dağıdacaq,
Sən isə Rəbdə sevinəcəksən,
İsrailin Müqəddəsi ilə öyünəcəksən.

17 Məzlumlar və fəqirlər
Su axtarıb tapmayanda
Dilləri susuzluqdan quruyur.
Mən Rəbb onlara cavab verəcəyəm.
Mən İsrailin Allahı onları tərk
etməyəcəyəm.
18 Çılpaq təpələrin başında çaylar
açacağam,
Vadilərdə su mənbələri düzəldəcəyəm.
Səhranı gölməçəyə, quraq torpağı
bulaqlara çevirəcəyəm.
19 Səhrada sidr, əbrişim, mərsin və
zeytun əkəcəyəm.
Quru torpaqda şam, çinar və sərv ağacını
bir sırada salacağam.
20 Beləcə insanlar görüb bilsin,

***41:8*** *– 2Saln. 20:7; Yaq. 2:23*

Fikirləşib başa düşsün:
Bunu edən Rəbbin əlidir,
Bunu yaradan İsrailin Müqəddəsidir.

### *Rəbb bütlərə səcdə etməyə qarşıdır*

21 Rəbb deyir: «İşinizi təqdim edin,
Sübutlarınızı göstərin»,
Bunu Yaqubun Padşahı söyləyir.
22 Bütlərinizi gətirin və qoy onlar sonra
nə olacağını bizə bildirsin,
Olub-keçənləri bizə nəql etsin,
Biz dərindən düşünüb sonunu öyrənək.
Yaxud onlar gələcəyi bizə agah etsinlər.
23 Ey bütlər, bundan sonra baş verən
hadisələrdən bizə danışın,
Qoy sizin allah olduğunuzu bilək!
Yaxşılıq ya pislik edin ki, hamımız
qorxub vahiməyə düşək.
24 Amma siz heç nəsiniz, əməlləriniz də
heçdir.
Sizə səcdə etməyi seçən iyrəncdir!

25 Şimaldan bir nəfər təhrik etdim, o gəlir.
O, gündoğandan adımı çağıracaq.
Dulusçu gili tapdalayan kimi
O, hökmdarları palçıq kimi tapdalayacaq.
26 Kim bunu başlanğıcdan bəyan etdi ki,
biz bilək,
Əvvəlcədən kim bildirdi ki,
Biz «O haqlıdır» deyə bilək?
Amma bunu bəyan edən yox idi,
Bildirən yox idi,
Sözlərinizi eşidən də yox idi.
27 Mən birinci Siona «budur gəldilər»
deyirəm.
Yerusəlimə müjdə gətirəni göndərirəm.
28 Baxdım, aralarında öyüd-nəsihət verə
bilən heç kim yox idi ki,
Onlardan soruşum, bir cavab alım.
29 Budur, hamısı puçdur,
Etdikləri işlər də heç bir şeydir,
İnsanların tökmə bütləri yalnız küləkdir,
fanidir.

### *Rəbbin qulu*

42 1 Budur, Mənim saxladığım,
Ürəyim istəyən seçilmiş qulum!
Mən Öz Ruhumu onun üzərinə
qoymuşam.
O, millətlərə ədalət gətirəcək.
2 Çığırmayacaq, səsini qaldırmayacaq,
Küçələrdə səsi çıxmayacaq.
3 Əzilmiş qamışı qırmayacaq,
Közərən piltəni söndürməyəcək.
O, ədaləti sədaqətlə yayacaq.
4 O, yer üzündə ədaləti quranadək
Ümidini, cəsarətini itirməyəcək,
Uzaq diyarlar onun qanununa e'tibar
edəcək.

5 Göyləri yaradıb onları sərən,
Yeri və onun üzərindəkiləri düzəldən,
Dünyadakı adamlara nəfəs verən,
Yer üzündə gəzən insanlara həyat verən
Rəbb Allah belə deyir:
6 «Mən Rəbb salehliyimlə səni çağırdım,
Səni əlindən tutacağam,
Səni qoruyacağam,
Səni xalqım üçün əhd edəcəyəm,
Millətlərə nur edəcəyəm ki,
7 Korların gözlərini açasan,
Zindandan dustaqları,
Zülmətdə, həbsxanada oturanları azad
edəsən.
8 Mən Rəbbəm, adım budur.
Öz izzətimi heç kimə verməırəm,
Həmdlərimi bütlərə bəxş etmərəm.
9 Budur, əvvəlki işlər həyata keçdi,
İndi Mən təzə işləri bəyan edirəm,
Onlar yetişməmişdən əvvəl
Sizi xəbərdar edirəm».

### *Şükür ilahisi*

10 Ey dəniz səyyahları, dənizdəki canlılar,
Uzaq diyarlar və orada yaşayanlar,
Rəbbə yeni ilahi oxuyun!
Dünyanın ən ucqar yerlərindən
Ona həmdlər gətirin!
11 Qoy səhra və oradakı şəhərlər,
Qedar xalqı yaşayan kəndlər səsini
ucaltsın,
Sela sakinləri tərənnüm nəğməsi
söyləsin,
Dağların zirvəsindən qışqırsın.
12 Hamı Rəbbi izzətləndirsin,
Uzaq diyarlar da Ona həmd etsin.
13 Rəbb cəsur igid kimi çıxacaq,
Cəngavər kimi qeyrətə gələcək,
Çığırıb döyüş nə'rəsi çəkəcək,
Düşmənlərinə Öz qüdrətini göstərəcək.

***42:1*** *– Mat. 3:17; 17:5; Mrk. 1:11; Luk. 3:22; 9:35*
***42:1-4*** *– Mat. 12:17-21*
***42:5*** *– Həv. 17:24-25*
***42:6*** *– Yeş. 49:6; Luk. 2:32; Həv. 13:47; 26:23*

### *Rəbb Öz xalqına kömək etməyi və'd verir*

14 Rəbb deyir:
«Xeyli vaxtdır ki, dinmirəm,
Susuram, səbr edirəm,
İndi isə doğuş ağrısı çəkən qadın kimi
Qışqıracağam, təngnəfəs olub
zarıyacağam.
15 Dağları, təpələri dağıdacağam,
Bütün yaşıllıqlarını qurudacağam,
Çayları adalara çevirəcəyəm, hovuzları
qurudacağam.
16 Korları tanımadıqları yolla
aparacağam,
Onlara bilmədikləri yollarda rəhbər
olacağam.
Qaranlığı qarşılarında işığa,
Kələ-kötür yolları düzənliyə
çevirəcəyəm.
Bu şeyləri onlar üçün edəcəyəm,
Onları tərk etməyəcəyəm.
17 Oyma bütlərə güvənənlər,
Tökmə bütlərə "Sizsiniz allahlarımız"
deyənlər
Geri qaytarılıb utandırılacaq.

### *Kor və kar İsrail*

18 Ey karlar, eşidin!
Ey korlar, baxın, görün!
19 Qulum qədər kor olan varmı?
Göndərdiyim qasid qədər kar olan varmı?
Özünü Mənə həsr edən, Rəbbin qulu
qədər kor olan varmı?
20 Siz çox şey gördünüz, amma nəzərə
almadınız,
Qulaqlarınız açıq idi, amma
eşitmədiniz!»
21 Öz salehliyi naminə
Rəbb qanunu ucaldıb izzətləndirmədən
şadlandı.
22 Fəqət bu qarət olunmuş, soyulmuş
xalqdır.
Hamısı qazamatlarda buxovlanıb
zindanlarda saxlanılmışdır.
Onlar şikar olub və qurtaranları yoxdur.
Onları qarət edirlər, «geri qaytarın»
deyən yoxdur.

23 Sizdən kim buna qulaq asacaq,
Gələcəkdə kim diqqətlə dinləyəcək?
24 Yaqub nəslini, İsraili soyğunçular
əlinə
Kim qarət edilmək üçün təslim etdi?
Məgər qarşısında günah işlətdiyimiz
Rəbb deyilmi?
Onlar Onun yolu ilə getmək istəmədi,
Qanununa qulaq asmadı.
25 Buna görə alovlu qəzəbini, döyüşün
şiddətini üstlərinə yağdırdı.
Od onları dövrəyə aldı,
Amma onlar anlamadılar,
Onları yandırdı,
Amma ona ciddi fikir vermədilər.

### *İsrailin yeganə qurtarıcısı Rəbdir*

43 1 İndi isə, ey Yaqub, ey İsrail, səni
yaradan,
Sənə həyat verən Rəbb belə deyir:
«Qorxma, çünki Mən səni satın aldım,
Səni adınla çağırdım, sən Mənimsən.
2 Dərin sulardan keçsən belə,
Mən səninlə olacağam,
Çaylardan keçəndə batmayacaqsan,
Odun içindən qaçsan belə,
yanmayacaqsan,
Alov səni məhv etməyəcək.
3 Çünki Mən sənin Allahın Rəbbəm,
İsrailin Müqəddəsiyəm,
Sənin Xilaskarınam.
Misiri sənin üçün fidyə,[13]
Kuş və Seva ölkələrini
Sənin azadlığının əvəzinə verdim.
4 Sən nəzərimdə qiymətli, çox əziz
olduğuna görə
Səni sevdiyim üçün,
Sənin əvəzinə adamları, həyatın üçün
ümmətləri verəcəyəm.
5 Qorxma, Mən səninləyəm,
Nəslindən olanları şərqdən gətirəcəyəm,
Səni qərbdən toplayacağam.
6 Şimala "ver" deyəcəyəm,
Cənuba "saxlama" söyləyəcəyəm.
Oğullarımı uzaqlardan,
Qızlarımı dünyanın ucqar yerlərindən
gətir.
7 Mənim adımla çağırılan hər insanı,
İzzətim üçün yaratdığım,
Bəli, həyat verdiyim,
Yaratdığım hər bir adamı gətir».

8 Gözləri olan kor,
Qulaqları olan kar xalqı gətir.
9 Bütün millətlər bir yerə yığılsın,

[13] **43:3** *Fidyə* – girov tutulmuş yaxud əsir alınmış bir adamı azad etmək üçün verilən pul vəsaiti.

Ümmətlər toplansın.
Bunlardan kim bu sözü bəyan edər?
Olub-keçənləri bizə bildirər?
Qoy onların şahidləri irəli gəlib bəraət
qazansın,
Dinləyib desin: «Bu düzdür».
10 Rəbb bəyan edir: «Sizsiniz Mənim
şahidlərim, seçdiyim qullarım,
Elə ki Məni tanıyıb, Mənə arxalanasınız,
Mənim O olduğumu anlayasınız.
Məndən əvvəl Allah mövcud olmayıb,
Məndən sonra da olmayacaq.
11 Mənəm Rəbb, yalnız Mənəm,
Məndən başqa qurtarıcı yoxdur.
12 Mən dedim və Mən qurtardım,
Mən bəyan etdim,
Aranızda başqa allahlar yox idi.
Sizsiniz şahidlərim».
Rəbb bəyan edir, «Allah Mənəm.
13 Əzəldən bəri Mən Oyam,
Mənim əlimdən qurtaran yoxdur.
Mən bir şey edəndə buna kim mane
olar?»

### *Babildən qurtuluş*

14 Sizi Satınalan, İsrailin Müqəddəsi,
Rəbb belə deyir:
«Sizin xatirinizə
Mən Babilə ordu göndərəcəyəm.
Öyündükləri gəmilərlə qaçan
Bütün Xaldeylilər göz yaşı tökəcək.
15 Mən Rəbbəm, sizin Müqəddəsinizəm,
İsraili yaradanam, Padşahınızam».

16 Dənizdə və azğın sularda yol, riz açan,
17 Atlarla döyüş arabalarını,
İgid cəngavərləri ilə ordunu birgə yola
çıxaran Rəbb belə deyir:
«Onlar yıxılıb, qalxa bilməyəcək,
Basdırılıb piltə kimi söndürüldü.

18 Əvvəlki şeyləri yada salmayın,
Köhnə hadisələr barəsində düşünməyin.
19 Budur, Mən təzə bir şey edirəm,
O artıq baş verir,
Məgər siz bunu başa düşmürsünüz?
Bəli, Mən çöllükdə yol salacağam,
Quru torpaqda çaylar yaradacağam.
20 Mənim seçdiyim xalqıma su içirtmək
üçün
Çöllükdə su verdiyimə görə,
Quru torpaqda çaylar yaratdığıma görə,
Vəhşi heyvanlar, çaqqallar və
dəvəquşuları Məni ucaldacaq.
21 Bu xalqı Mən Özüm üçün yaratdım ki,
Mənə həmdlər söyləsin.

### *İsrailin günahı*

22 Lakin sən, ey Yaqub nəsli,
Mənim adımı çağırmadın,
Ey İsrail, Məndən bezdin.
23 Yandırma qurbanı üçün Mənə quzular
gətirmədin,
Qurbanlarınla Mənə ehtiram etmədin.
Sənə təqdimlərə görə əziyyət vermədim,
Kündür təqdimləri ilə bezdirmədim.
24 Mənim üçün pulla gözəl ətirli qamış
almadın,
Qurbanların piyi ilə məni doydurmadın.
Əksinə, sən günahlarını Mənə yüklədin,
Təqsirlərinlə Məni yordun.

25 Mənəm öz xatirimə görə asiliyini silən,
Bəli, Mən günahlarını da yada salmaram.
26 Yadıma sal, gəl mühakiməyə gedək,
Bəraət qazanmaq üçün məhkəmədə
işindən danış.
27 İlk əcdadların günaha batdı,
Rəhbərlərin Mənə asi oldu.
28 Buna görə də Mən
İbadətgahın rəhbərlərini murdarlığa
vadar etdim.
Yaqub nəslini qırğına, İsraili isə rəzalətə
məhkum etdim.

### *Rəbb yeganə Allahdır*

44 1 İndi isə, ey qulum Yaqub nəsli,
Seçdiyim İsrail, qulaq as!
2 Səni yaradan, ana bətnində quruluş
verən,
İmdadına çatan Rəbb belə deyir:
"Qorxma, ey qulum Yaqub nəsli,
Ey seçdiyim Yeşurun![14]
3 Susamış torpağı sulayacağam,
Quru torpağa sellər axıdacağam,
Övladlarına Ruhumu ehsan edəcəyəm,
Nəslinə xeyir-duamı verəcəyəm.
4 Onlar otlar arasında,
Axar sular kənarında,
Söyüd ağacları kimi boy atacaq.
5 Biri ‹Mən Rəbbinəm› deyəcək,
O birisi Yaqubun adı ilə çağırılacaq.

***43:20-21*** *– 1Pet. 2:9*

[14] **44:2** *Yeşurun* – İsrailin bir ləqəbi olub *düz olan* mə'nasını verir.

Digəri də əlinə ‹Rəbbin quluyam› deyə
yazacaq,
İsrailin adını üzərinə götürəcək”».

6 Rəbb, İsrailin Padşahı, Satınalanı,
Ordular Rəbbi belə deyir:
«Mən birinciyəm, Mən sonuncuyam,
Məndən başqa Allah yoxdur.
7 Mənə bənzəyən varmı? Xəbər versin.
Qədim xalqımı yaratdığımdan bəri olub-
keçənləri,
Bundan sonra olduqlarını danışıb nəql
etsin,
Bəli, gələcək hadisələri bildirin!
8 Qorxmayın, dəhşətə gəlməyin,
Mən sizə əzəldən bəri bunu söyləyib
danışmadımmı?
Siz Mənim şahidlərimsiniz!
Məndən başqa Allah varmı?
Başqa Qaya yoxdur.
O birilərini tanımıram».

***Bütlərə səcdə edənlər xəcalət çəkəcək***

9 Bütləri düzəldən adamlar puçdur,
Zövq aldıqları əşyalardan heç bir xeyir
yoxdur.
Bütlərə qulluq edənlər heç bir şey
görmür,
Heç bir şey bilmir,
Onlar axırda xəcalət içində olacaq.
10 Kim istər fayda verməyən allah
düzəltsin,
Tökmə büt yaratsın?
11 Budur, bunları düzəldənlərin hamısı
xəcalət içində olacaq.
Ustalar isə özləri də insandır,
Qoy onların hamısı toplaşıb məhkəmədə
dursun,
Dəhşətə düşüb birlikdə xəcalət çəksin.

12 Dəmirçi alətini götürüb,
Kömür od üstündə çalışır,
Çəkiclə dəmirə ölçü verir,
Güclü əli ilə üstündə işləyir.
Onda ac qalır, taqətdən düşür,
Susuz qalıb üzülür.
13 Dülgər iplə ölçür,
Ağacı tabaşirlə nişanlayır,
Rəndələyir, istənilən şəklə salır,
Pərgarla dairə çəkir,
İnsan surəti verir,
İnsan gözəlliyinə bənzər düzəldərək
Evinə qoymaq üçün bir büt yaradır.
14 İnsan özü üçün sidr ağacları kəsir,
Şam ağacını, palıd ağacını seçir.
Meşədə özü üçün bir ağac götürür,
Küknar ağacı əkir və yağış onu böyüdür.
15 Sonra ağac oduna işlənir.
İnsan gətirdiyi odunla həm isinir,
Həm sobanı yandırır, çörək bişirir.
Həm də özünə bir allah düzəldir,
Düzəltdiyi bütün qarşısında səcdə edir,
Yerə sərilir.
16 Odunun bir hissəsini yandırır,
Alovunda ət qızardır,
Qarnını doyuraraq, isinib deyir:
«Ah, isindim, odun istisini hiss etdim!»
17 Ağacın qalığından özünə allah,
Bir oyma büt düzəldib
Qarşısında yerə sərilir, səcdə edir.
Bu bütə dua edib yalvarır:
«Məni xilas et, çünki sənsən mənim
allahım!»

18 Onlar bilmir, dərk etmir,
Çünki gözləri də, zehinləri də elə
bağlıdır ki,
Görməzlər, anlamaz.
19 Buna fikir vermirlər, bilmirlər,
Dərk etmirlər ki, belə desinlər:
«Odunun bir hissəsini yandırdım,
Kömürünə də çörək bişirdim, ət
qızartdım, yedim.
Qalığından bir murdar şey düzəldimmi?
Bir parça taxtanın qarşısında yerə
sərilimmi?
20 Bu, kül yemək kimi boş işdir,
Aldanmış ürəkləri onları yoldan sapdırır,
Canlarını qurtara bilmir və sağ əlimdəki
əşya aldadıcı deyilmi?»

***Rəbb Yaradan və Xilaskardır***

21 «Ey Yaqub nəsli,
Dediyim sözləri xatırla,
Çünki sən qulumsan, ey İsrail,
Mən səni yaratdım, sən Mənim
qulumsan,
Səni unutmaram, ey İsrail!
22 Asiliyini bulud kimi dağıtdım,
Günahlarını duman kimi sildim,
Mənə tərəf dön,
Çünki Mən səni satın aldım».

23 Tərənnüm edin, ey göylər,

***44:6*** *– Yeş. 48:12; Vəhy 1:17; 22:13*

Çünki bunu edən Rəbdir.
Çığırın, ey torpağın dərinlikləri,
Ey dağlar, ey meşə, ey meşədəki bütün
ağaclar,
Sevincdən haray çəkin,
Çünki Rəbb Yaqub nəslini satın aldı,
İsraildə izzətini aşkar etdi.

24 Səni Satınalan,
Ana bətnində quruluş verən Rəbb deyir:
«Bütün şeyləri yaradan, göyləri təkcə
yayan,
Təkbaşına yer üzünü sərən,
25 Yalançı peyğəmbərlərin mö'cüzələrini
boşa çıxaran,
Falçıları ifşa edən,
Müdrikləri geri qaytaran,
Onların biliyini heçə çevirən,
26 Qulunun sözlərini icra edən,
Elçilərinin sözlərini gerçək edən,
Yerusəlim üçün "burada sakinləri
təzədən məskunlaşacaq",
Yəhuda şəhərlərinə "bunlar yenidən
qurulacaq,
Xarabalıqları yenidən bərpa edəcəyəm"
deyən Rəbb Mənəm.
27 Dərin sulara "Quru! Mən çaylarını
qurudacağam" söyləyən,
28 Kir haqqında "o, çobanımdır,
Mənə xoş olan bütün şeyləri yerinə
yetirəcək",
Yerusəlim haqqında "yenidən
qurulacaq",
Mə'bəd haqqında "təməlin qoyulacaq"
deyən Rəbb Mənəm».

### *Rəbb Fars padşahı Kiri seçir*

45 1 Rəbb məsh etdiyi adama –
Sağ əlindən tutduğu Kirə belə deyir:
«Onun önündə millətlərə baş
əydirəcəyəm,
Padşahları qüvvətindən məhrum
edəcəyəm,
Önündə qapıları açacağam,
Darvazalar qarşısında bir daha
bağlanmayacaq.
2 Mən Rəbb, qarşında gedib dağları
düzəngaha çevirəcəyəm,
Tunc qapıları qırıb
Dəmir qıfılları sındıracağam.
3 Qaranlıqda gizlənmiş sərvətlərini,
Gizli yerlərdə saxlanılan xəzinələri sənə
verəcəyəm ki, biləsən:
Səni adınla çağıran Rəbb Mənəm,
İsrailin Allahıyam Mən.
4 Qulum Yaqub nəsli, seçdiyim İsrail
naminə
Səni adınla çağırıb hörmət göstərdim,
Halbuki sən Məni tanımırdın.
5 Rəbb Mənəm, başqası yoxdur,
Məndən başqa Allah yoxdur.
Səni Mən gücləndirəcəyəm,
Halbuki Məni tanımırdın.
6 Beləliklə, gündoğandan günbatana
qədər qoy bilsinlər ki,
Məndən savayı heç kim yoxdur,
Rəbb Mənəm, başqası yoxdur.
7 Nuru, qaranlığı, sülhü, fəlakəti yaradan
Mənəm,
Bütün bunları edən Rəbb Mənəm.
8 Ey göylər, yuxarıdan damlayın,
Qoy buludlar salehlik yağdırsın,
Torpaq açılsın, xilas bəhrəsini yetişdirsin,
Onunla birlikdə salehlik bitsin.
Bunları yaradan Rəbb Mənəm».

### *Hər şeyi yaradan Allahdır*

9 Yaradanı ilə çəkişənin vay halına!
Çəkişən özü də saxsı qablar arasında
yalnız bir qırıqdır.
Gil dulusçusuna: «Nə düzəldirsən?»
Yaxud «yaratdığın şeyin dəstəkləri
yoxdur» deyərmi?
10 Atasına «Dünyaya məni nə üçün
gətirdin?»
Anasına «Məni nə üçün doğdun?»
deyənin vay halına!

11 İsrailin Müqəddəsi,
Onu yaradan Rəbb belə deyir:
«Övladlarımın gələcəyi haqqında
Mənə sual verə bilərsinizmi?
Gördüklərim işlər barəsində
Mənə əmr edə bilərsinizmi?
12 Dünyanı da, yer üzündə yaşayan
adamı da Mən yaratdım.
Mənim əllərim göyləri yaydı,
Əmrimlə səma cisimləri quruldu.
13 Mən Kiri ədalətlə hərəkət etməyə
vadar etdim.
Yollarını dürüst edəcəyəm.

***44:24-28*** *– 1Kor. 1:20*
***44:24-28*** *– 2Saln. 36:23; Ezr. 1:2*
***45:9*** *– Yeş. 29:16; Rom. 9:20*

O, şəhərimi tikəcək,
Sürgün olunmuş adamlarımı
Fidyəsiz, bəxşişsiz azad edəcək».
Bunu Ordular Rəbbi deyir.

14 Rəbb belə deyir:
«Misirlilərin var-dövləti, Kuşun ticarət
gəliri,
Ucaboylu Sevalılar yanınıza gəlib
qulunuz olacaq.
Onlar buxovlanacaq və ardınızca
gedəcək,
Qarşınızda yerə sərilib, yalvaracaq:
"Allah yalnız sizinlədir və başqa birisi
yoxdur.
Bundan savayı Allah yoxdur"».
15 Həqiqətən, Sən Özünü gizlədən
Allahsan,
Ey İsrailin Allahı, ey Qurtarıcı!
16 Büt düzəldənlərin hamısı utandırılacaq,
Rüsvay olacaq, xəcalət çəkib
uzaqlaşacaq.
17 Amma İsrailə qurtuluşu Rəbb verəcək.
Bu qurtuluş əbədi sürəcək.
Əsrlər boyu İsrail utanmayacaq, rüsvay
olmayacaq.

18 Göyləri yaradan Rəbb bircə olan
Allahdır!
O, dünyanı yaratdı, ona quruluş verdi,
Rəbb dünyanı qarmaqarışıq yaratmadı,
Onu yaşamaq üçün qurdu.
O deyir: «Mən Rəbbəm, başqası yoxdur!
19 Mən gizlində, qaranlıq dünyasında
danışmadım,
Yaqub nəslinə "Məni qarmaqarışıq
yerdə axtarın" demədim.
Doğrusunu söyləyən, ədaləti bəyan edən
Rəbb Mənəm.

### *Allah və Babilin bütləri*

20 Yığışın, gəlin, bir yerə toplaşın, ey
millətlərdən sağ qalan kəslər!
Taxta bütləri gəzdirənlər,
Xilas verməyən allahlara dua edənlər
heç nə bilmir.
21 Danışın, işinizi təqdim edin,
Qoy hamı birlikdə məsləhətləşib
söyləsin:
"Bunu qədimdə kim bəyan etdi,
Keçmişdə kim bildirdi?"
Bunu Mən Rəbb, demədimmi?
Məndən başqa Allah,
Ədalətli Allah və Qurtarıcı yoxdur.
Məndən başqası yoxdur.

22 Ey dünyanın bütün ucqar yerlərində
yaşayanlar,
Mənə tərəf dönün və xilas olun!
Çünki Mən Allaham və başqası yoxdur!
23 Varlığım haqqı and içdim,
Ağzımdan çıxan kəlmə doğrudur, boşa
çıxmaz.
Hər diz önümdə çökəcək,
Hər dil Mənə and içəcək.
24 Mənim üçün belə deyəcəklər:
"Salehlik və qüvvət yalnız Rəbdədir.
Ona qarşı qəzəblənənlər hüzuruna gəlib
utanacaqlar.
25 Bütün İsrail nəsli Rəbdə haqq
qazanacaq və izzətlənəcək"».

## 46

1 «Bel allahı diz çökdü,
Nevo allahı əyildi,
Babilin bütləri heyvanlara, öküzlərə
yükləndi,
Daşınan əşyalar heyvanlara ağır yük
oldu.
2 Onlar birgə əyildilər, diz çökdülər,
Yük oldular, bundan qurtula bilməyib
əsirliyə aparıldılar.

3 Qulaq asın Mənə, ey Yaqub nəsli,
Ey bütün İsrail nəslinin sağ qalanları!
Anadan olandan sizi aparıram,
Bətndən çıxandan sizi daşıyıram.
4 Siz qocalanacan Mən Oyam,
Saçlarınıza dən düşənəcən
Mən sizi aparacağam,
Sizi Mən yaratdım, Mən daşıyacağam.
Bəli, Mən sizi aparacağam və xilas
edəcəyəm.

5 Məni kimə bənzədəcəksiniz, kimə
oxşadacaqsınız,
Kiminlə müqayisə edəcəksiniz ki, biz
oxşar olaq?
6 Kimsə pul kisəsindən qızıl çıxarır,
Tərəzidə gümüş çəkir,
Bu puldan zərgərə büt düzəltdirir,
Sonra önündə yerə sərilib səcdə edir!
7 Onu çiyinlərinə yükləyib daşıyırlar,
yerinə qoyurlar.

***45:23** – Rom. 14:11; Flp. 2:10-11*

Beləcə büt durur, yerindən tərpənmir.
Ona yalvarırlar, o cavab vermir,
Heç bir bəladan qurtarmır.

8 Ey asi insanlar, bunu xatırlayın,
Mərd olun, yadınızdan çıxarmayın!
9 Qədimdən bəri olan hadisələri
xatırlayın,
Çünki Allah Mənəm, başqası yoxdur,
Mənəm Allah, Mənə bənzəri yoxdur!
10 Axırı əvvəldən,
Baş verməmiş hadisələri əzəldən
bildirən,
"Niyyətim baş tutacaq,
İstədiyim hər şeyi edəcəyəm" deyən
Mənəm.
11 Şərqdən bir yırtıcı quşu,
Uzaq diyardan niyyətimi yerinə yetirən
adamı çağıran Mənəm.
Mən bunları dedim,
Mütləq yerinə yetirəcəyəm,
Mən niyyət etmişəm, bunu icra
edəcəyəm.

12 Ey salehlikdən uzaq olan dikbaş
insanlar!
Məni dinləyin!
13 Salehliyiniz yaxındır, uzaq deyil,
Qurtuluşum ləngiməyəcək.
Siona xilası, İsrailə izzətimi bəxş
edəcəyəm.

### *Babilin düşkünlüyü*

47 1 Ey bakirə Babil qızı,
Düş aşağı, otur quru torpaqda.
Ey Xaldey qızı,
Artıq taxt yoxdur, otur quru torpağa.
Bundan sonra səni
"Zərif, nazlı" adlandırmayacaqlar.
2 Bir cüt dəyirman daşı götür, unu üyüt.
Aç örpəyini, qaldır paltarının ətəyini,
Baldırlarını aç, keç çaylardan.
3 Çılpaqlığın açılacaq, ayıbın görünəcək.
Mən intiqam alacağam,
Heç kimi əsirgəməyəcəyəm».

4 Bizi Satınalan İsrailin Müqəddəsidir,
Onun adı Ordular Rəbbidir.
5 Rəbb deyir: «Ey Xaldey qızı,
Qaranlığa çəkil, sakitcə otur!
Çünki bundan sonra səni daha
Padşahlıqların mələkəsi çağırmayacaqlar!
6 Öz xalqıma qəzəbləndim,
İrsimi kiçildib sənə verdim.
Lakin sən onların halına acımadın,
Hətta yaşlılara da ağır boyunduruq
yüklədin.
7 "Həmişə əbədi mələkə olacağam" deyə
düşünürdün.
Bunları ürəyinə gətirmirdin, sonu
düşünmürdün.

8 İndi isə qulaq as, ey əmin-amanlıqda
yaşayan zövq düşkünü!
Sən ürəyində deyirdin: "Mən mənəm,
Məndən başqası yoxdur.
Heç vaxt dul qalmayacağam,
Övlad itirmək dərdini bilməyəcəyəm".
9 Bu iki bəla bir gündə,
Qəflətən başına gələcək.
Böyük cadugərliyinə, ovsunçuluğunun
çoxluğuna baxmayaraq,
Həm övladlarını itirəcək, həm də dul
qalacaqsan.
10 Pisliyinə güvəndin,
Dedin: "Məni heç kim görmür".
Sənin hikmətin və biliyin səni azdırdı.
Düşündün: "Mən mənəm,
Məndən başqası yoxdur".
11 Lakin üzərinə bəla gələcək,
Sən onun qarşısını ala bilməyəcəksən,
Sən xərac versən də, bu fəlakət üstünə
gələcək,
Bilmədiyin bəla qəflətən üzərinə
düşəcək.
12 Gənc yaşlarından bəri
Əlləşdiyin ovsunçuluğunda və
cadugərliyində qal.
Bəlkə onlardan bir xeyir görərsən,
Bəlkə düşmənlərini onlarla vahiməyə
sala bilərsən!
13 Aldığın çoxlu məsləhətlər səni üzdü.
Qoy ulduz falına baxanlar, münəccimlər,
Yeni ay çıxanda olacaq hadisələri
bildirənlər
İndi gəlib səni
Başına gələn bəlalardan xilas etsinlər.
14 Bax, onlar küləş kimidir,
Od onları yandırıb yaxar.
Özlərini alovun gücündən xilas edə
bilməyəcəklər.

---

***47:1-15*** *– Yeş. 13:1-14:23; Yer. 50:1-51:64*

***47:7-9*** *– Sef. 2:15; Vəhy 18:7-8*

Bu alov isinmək üçün kömürlü od deyil,
Qabağında oturulacaq od deyil.
15 Sənin işlədiyin, cavanlığından bəri
alver etdiyin adamların
Aqibəti belə olacaq.
Hər kəs öz yolu ilə gedəcək, səni xilas
edən olmayacaq.

### *İsrailin inadkarlığı*

48 1 Ey Yaqub nəsli,
İsrailin adı ilə çağırılan,
Yəhudanın belindən gələn,
Rəbbin adı ilə and içən,
İsrail Allahının adını e'tiraf edən,
Fəqət buna həqiqətlə və salehliklə əməl
etməyən nəsil,
Buna qulaq as!
2 Müqəddəs şəhərdən olduğunuza görə,
İsrail Allahına bel bağladığınıza görə
fəxr edirsiniz.
Onun adı Ordular Rəbbidir.

3 Olub-keçənləri əvvəldən Mən bəyan
etdim.
Bu sözlər ağzımdan çıxdı və onları Mən
bildirdim.
Sonra qəflətən bunları həyata keçirdim
və onlar yerinə yetdi.
4 Bilirdim inadkar olduğunuzu,
Dəmir boyunlusunuz, tunc alınlısınız.
5 Bunları sizə qədimdən bəri bildirdim,
Baş verməmişdən əvvəl sizə xəbər
verdim ki,
Siz "bunu bütüm etdi, oyma və tökmə
bütlər
Bunları əmr etdilər" deməyəsiniz.
6 Bunu eşitdiniz, indi isə hamısına nəzər
salın.
Bəs bunu qəbul etməyəcəksiniz?
İndi isə Mən sizə yeni şeyləri,
Bilmədiyiniz gizli şeyləri bildirəcəyəm.
7 Bunlar indi yaradılır, keçmişdə yox.
Siz bunu bu günə qədər bilmədiniz,
Ona görə "bunu bilirdik" deyə
bilməzsiniz.
8 Siz bu haqda nə eşitməmisiniz,
Nə də xəbəriniz olmayıb,
Keçmişdən bəri qulaqlarınız bağlıdır.
Nə qədər xain olduğunuzu bilirəm,
Ana bətnindən belə, sizin asi
çağırılacağınızdan xəbərdaram.
9 Adım naminə qəzəbimi saxlayırdım,
Şöhrətim naminə qeyzimin qabağını
alırdım ki, sizi məhv etməyim.
10 Budur, Mən sizi gümüş kimi olmasa
da, təmizlədim,
Sizi iztirab ocağında çəkdim.
11 Öz xatirimə, öz xatirimə bunu
edəcəyəm.
Axı niyə Mənim adım küfrlə çəkilsin?
Mən Öz izzətimi heç kimə verməyəcəm.

### *Rəbb İsraili satın alır*

12 Qulaq as Mənə, ey Yaqub nəsli,
çağırdığım İsrail!
Mən Oyam, Mən birinciyəm, Mən
sonuncuyam.
13 Mənim əlim yerin təməlini qoydu,
Sağ əlim göyləri sərdi.
Mən onları çağıranda onlar birlikdə
düzülür.

14 Hamınız toplaşın, dinləyin!
Bütlərdən hansıdır bu şeyləri bəyan edən?
Rəbbin sevdiyi adam Babildə Onun
məqsədini yerinə yetirəcək,
Onun əli Xaldeylilərə qarşı qalxacaq.
15 Mən, bəli Mən dedim,
Onu Mən çağırdım,
Onu gətirdim,
O öz yolunda uğurlu olacaq.
16 Mənə yaxın gəlin, bunu dinləyin!
Başlanğıcdan bəri Mən açıq danışdım,
O vaxtdan indiyədək oradayam.
Xudavənd Rəbb indi Məni və Ruhunu
göndərdi».

17 Səni Satınalan, Rəbb, İsrailin
Müqəddəsi belə deyir:
«Allahın Rəbb Mənəm,
Mən sənin xeyrinə səni öyrədirəm,
Getdiyin lazım olan yolla səni aparıram.
18 Ah, kaş ki sən Mənim əmrlərimə
diqqət yetirəydin!
Onda əmin-amanlığın heç vaxt
qurumayan çay kimi axardı,
Salehliyin dəniz dalğaları kimi olardı.
19 Nəslin dəniz qumu kimi,
Övladların qum dənələri kimi olardı.
Adları qarşımda nə pozulardı, nə də
silinərdi».

***48:12** – Yeş. 44:6; Vəhy 1:17; 22:13*

20 Babildən çıxın, Xaldeylilərin
torpağından qaçın,
Sevinc səsi ilə bəyan edin, bunu bildirin,
Dünyanın ən uzaq yerlərinə bu xəbəri
çatdırın,
Deyin: «Rəbb qulu Yaqub nəslini satın
aldı».
21 Səhradan keçərkən susuzluq
çəkmədilər.
Rəbb onlar üçün qayadan su axıtdı,
Qayanı yardı və oradan su fışqırdı.

22 «Pislərə isə sülh yoxdur» Rəbb deyir.

### Rəbbin qulu çağırışını izah edir

49 1 Ey uzaq diyarlar, Məni dinləyin!
Ey uzaqda yaşayan ümmətlər, yaxşı
qulaq asın!
Rəbb məni anadan olandan bəri
çağırmışdı,
Ana bətnindən adımı yadına saldı.
2 Ağzımı iti qılınc kimi etdi,
O məni əlinin kölgəsində gizlətdi,
O məni iti ox edib
Öz oxdanında saxladı.
3 Mənə dedi: «Qulumsan, ey İsrail,
Mən səninlə izzətlənəcəyəm».
4 Amma mən dedim:
«Mən boş yerə çalışdım,
Gücümü hədər yerə tükətdim.
Rəbb mənə yenə haqq qazandırır,
Mükafatım Allahımdadır».

5 Rəbb məni qulu etmək üçün
Ana bətnində mənə quruluş verdi ki,
Yaqub nəslini Ona tərəf döndərim,
İsraili Onun önünə toplayım.
Onun gözündə hörmət qazandım,
Qüdrətim Allahım oldu.
Rəbb indi belə deyir.
6 O deyir:
«Yaqub qəbilələrinin bərpası,
İsrailin sağ qalanlarının geri qayıtması
üçün
Qulum olmağın kifayət deyil.
Səni millətlərə nur edəcəyəm ki,
Xilasım dünyanın ən uzaq yerlərinə
yayılsın».

### Allah Öz qulunu ruhlandırır

7 Adamların nifrət etdiyi,
Millətin həqarətlə baxdığı,
Hökmdarların qulu olan şəxsə,
İsrailin Satınalanı, Müqəddəsi,
Rəbb belə deyir:
«İsrailin Müqəddəsi,
Sadiq Rəbb səni seçdiyinə görə
Padşahlar səni görüb ayağa qalxacaq,
Əmirlər qarşında yerə sëriləcək».

8 Rəbb belə deyir:
«Münasib vaxtda sənə cavab verdim,
Xilas günü sənə kömək etdim.
Səni hifz edəcəyəm.
Səni xalqım üçün əhd edəcəyəm ki,
Dağılmış ölkəni bərpa edəsən,
İrs olaraq yenə sahiblərinə verəsən.
9 Dustaqlara "çıxın",
Zülmətdə oturanlara
"Özünüzü göstərin!" deyəsən.
Onlar yol boyunca quzu kimi bəslənəcək,
Hər çılpaq təpədə otlaq tapacaq.
10 Onlar nə ac, nə də susuz qalacaq,
Qızmar isti və günəş onları vurmayacaq.
Çünki onlara mərhəmət edən yol
göstərəcək,
Onları bulaqlara doğru yönəldəcək.
11 Mən bütün dağlarımı yola
döndərəcəyəm,
Yollarımı hamar edəcəyəm.
12 Budur, xalqım uzaq yerlərdən,
Kimi şimaldan, kimi qərbdən,
Kimi isə Sinim[15] ölkəsindən gələcək».

13 Tərənnüm edin, ey göylər,
Ey yer üzü, fərəhlən!
Ey dağlar, sevinc nidalarına qoşulun!
Çünki Rəbb xalqına təsəlli verəcək,
İztirab çəkənlərinə rəhm edəcək.

### Sionun bərpası

14 Amma Sion dedi: «Rəbb məni tərk
etdi,
Xudavəndim məni unutdu».

***48:20** – Vəhy 18:4*
***48:22** – Yeş. 57:21*
***49:1** – Yer. 1:5*
***49:2** – İbr. 4:12; Vəhy 1:16*
***49:6** – Yeş. 42:6; Luk. 2:32; Həv. 26:23*
***49:6** – Həv. 13:47*

***49:8** – 2Kor. 6:2*
***49:10** – Vəhy 7:16-17*
[15] **49:12** *Sinim* – zənn edilir ki, Misirdəki bir bölgənin adıdır.

15 Rəbb isə deyir: «Ana südəmər
körpəsini heç unudarmı?
Bətnindən çıxan oğluna rəhm etməzmi?
Ana öz körpəsini unutsa belə,
Mən səni əsla unutmaram.
16 Mən sənin adını ovuclarımda həkk
etmişəm,
Ey Sion, divarların daima önümdədir.
17 Oğulların tələsib yanına gələcək,
Səni qarət edənlər, soyğunçular çıxıb-
gedəcək.
18 Qaldır başını, bax ətrafına:
Hamı yığılıb yanına gəlir.
Mən Rəbb varlığıma and içib bəyan
edirəm ki,
Onların hamısı sənin üçün bər-bəzək
olacaq,
Gəlin kimi onları taxıb fəxr edəcəksən!

### *Allah İsrail xalqını bərpa edib artıracaq*

19 Xarabalığa, viranəliyə dönmüşdün,
Ölkən yerlə yeksan olmuşdu.
Amma indi bu torpaq sakinlərin üçün
dar olacaq,
Səni xaraba qoyanlar səndən uzaqda
duracaq.
20 Sənin sürgündə doğulmuş övladların
Səsini ucaldıb belə deyəcək:
"Bu yer bizim üçün dar gəlir,
Yaşamaq üçün bizə yer ver".
21 Sən qəlbində deyəcəksən:
"Axı bunları mənim üçün kim doğdu?
Övladlarım itkin düşmüşdü, sonsuz
oldum,
Sürgün edilmişdim, qovulmuşdum.
Belə isə bunları kim böyütdü?
Mən tək-tənha qalmışdım,
Bəs bunlar haradan gəlib-çıxdı?"»

22 Xudavənd Rəbb belə deyir:
«Budur, Mən əlimi millətlərə
Bir işarə kimi uzadacağam,
Bayrağımı xalqlar arasında qaldıracağam.
Onlar sənin oğullarını qucağında,
Qızlarını çiyinlərində gətirəcək.
23 Padşahlar sənə atalıq,
Mələkələr sənə analıq edəcək.
Üzüstə yerə sərilib sənə səcdə edəcəklər,
Ayaqlarının tozunu yalayacaqlar.
Onda biləcəksən ki, Mən Rəbbəm,
Mənə güvənənlər utanmayacaq».
24 Məgər güclünün əlindən qənimət alına
bilərmi?
Zorakının əlindən əsirlər qurtula bilərmi?
25 Amma Rəbb belə deyir:
«Bəli, güclünün əlindən əsirlər də alına
bilər,
Zorakının əlindən qənimət də götürülə
bilər,
Səninlə çəkişənlərlə Mən çəkişəcəyəm,
Övladlarını Mən qurtaracağam.
26 Sənə zülm edənlərə öz ətlərini
yedirəcəyəm,
Öz qanları ilə sərxoş olub
Şirin şərab içənlərin halına düşəcəklər.
Beləcə bütün bəşər biləcək ki,
Səni qurtaran Rəbb Mənəm.
Səni Satınalan, Yaqubun qüdrətli Allahı
Mənəm».

### *İsrailin günahına görə cəzası*

50 1 Rəbb belə deyir:
«Boşadığım ananızın talağı
haradadır?
Borc verənlərimin hansı birinə satdım
sizi?
Siz şər əməllərinizə görə satıldınız,
Ananız asiliyinizin üzündən qovuldu.
2 Bəs nə üçün Mən gələndə heç kim
olmadı?
Axı niyə Mən çağıranda cavab verən
olmadı?
Məgər Mənim əlim zəifləyib ki,
Xilas etməyə qadir olmasın?
Yaxud Mənim sizi qurtarmağa gücüm
çatmazmı?
Mən qəzəbimlə dənizi quruduram,
Çayları səhraya çevirirəm.
Suyun çatışmazlığından balıqlar iylənir,
susuzluqdan ölür.
3 Mənəm göyləri zülmətə bürüyən,
Onları yas paltarına geyindirən».

### *Rəbbin qulunun itaəti*

4 Yorğunlara sözlə dayaq olmağı bilim
deyə
Xudavənd Rəbb mənə savadlıların dilini
verdi.
O hər səhər qulağımı oyadır ki,
Savadlı adamlar kimi dinləyə bilim.
5 Xudavənd Rəbb qulağımı açdı,
Mən qarşı durmadım, geri çəkilmədim.
6 Məni döyənlər üçün belimi açdım,

---

***50:6*** *– Mat. 26:67-68; Mrk. 14:65*

Üzümü, saqqalımı yolanlara tərəf
uzatdım.
Təhqirlərdən, tüpürcəklərdən üzümü
gizlətmədim.
7 Xudavənd Rəbb mənə kömək etdiyinə
görə utanmayacağam.
Buna görə də üzümü çaxmaq daşı kimi
etdim.
Bilirəm ki, əsla xəcalət çəkməyəcəyəm.
8 Mənə haqq qazandıran yaxındadır.
Mənimlə kim mübahisə etmək istəyir?
Qoy mənimlə üz-üzə gəlsin.
Kimdir rəqibim?
Qoy yanıma gəlsin.
9 Mənə kömək edən Xudavənd Rəbdir.
Kim məni təqsirkar çıxara bilər?
Rəqiblərimin hamısı paltar kimi
köhnələcək,
Onları güvə yeyib məhv edəcək.

10 Aranızda Rəbdən qorxan,
Qulunun sözünə qulaq asan varmı?
Qaranlıqda gəzən, nurdan məhrum olan
Rəbbin adına güvənsin, Allahına
arxalansın.
11 Ey sizlər, od qalayıb, qığılcımı
qoruyanlar,
Hamınız öz odunuza, yandırdığınız
qığılcımın içinə atılın.
Mənim əlimdən aldığınız pay bu olacaq:
Əzab içində qalacaqsınız.

### *Yerusəlimə təsəlliverici sözlər*

51 1 Ey salehliyi arayanlar, Rəbbi
axtaranlar,
Məni dinləyin!
Yonulduğunuz qayaya,
Çıxarıldığınız çuxurun dərinliyinə baxın.
2 Atanız İbrahimə, sizi doğan Saraya
baxın!
Mən onu tək çağırdım, xeyir-dua verdim,
Nəslini artırdım.
3 Həqiqətən, Rəbb Siona və onun
xarabalıqlarına təsəlli verəcək.
Səhralarını Edenə, çöllərini Rəbbin
bağına döndərəcək.
Orada sevinc və şadlıq tapacaqlar,
Şükürlər, ilahilər oxunacaq.

4 Ey xalqım, Məni dinlə,
Ey ümmətim, Məni eşit!
Qanun Məndən çıxacaq,
Ədalətimi nur tək
Xalqlara ehsan edəcəyəm.
5 Salehliyim yaxındır, qurtuluşum gəlir,
Xalqları öz gücümlə mühakimə
edəcəyəm.
Uzaq diyarlar Mənə bel bağlayır,
Qüvvətimə ümid edir.
6 Başınızı qaldırıb göylərə nəzər salın,
Aşağıya, yer üzünə baxın.
Çünki göylər dağılacaq tüstü kimi,
Yer üzü paltar kimi köhnələcək.
Beləcə yer üzünün sakinləri də qırılacaq.
Lakin mənim xilasım əbədidir,
Salehliyim sonsuzdur.

7 Ey salehlikdən xəbərdar olanlar,
Qanunumu qəlblərində saxlayan xalq,
Mənə qulaq asın!
Adamların məzəmmətindən qorxmayın,
Onların söyüşlərindən dəhşətə düşməyin.
8 Onlar güvənin yediyi paltar kimi məhv
olacaq,
Qurdun yediyi yun kimi məhv olacaq.
Lakin mənim salehliyim əbədidir,
Qurtuluşum nəsillər boyu duracaqdır.

9 Qalx, qalx, güclən, ey Rəbbin qolu!
Qədim zamanlardakı kimi
Qalx əvvəlki nəsillərin vaxtında olduğu
kimi!
Sən Rahavı[16] parça-parça etmədinmi?
Sən əjdahanın bədənini deşmədinmi?
10 Dənizi, dərin suları Sən qurutmadınmı?
Satın alınan xalqının keçməsindən ötrü
Dənizin dərinliklərini yola çevirən
Sən deyildinmi?
11 Rəbbin satın alınmış adamları
qayıdacaq,
Sevinclə nəğmə deyərək Siona gələcək.
Üzlərində əbədi sevinc olacaq,
Onlar sevinc və şadlıq tapacaq,
Kədər və qəm-qüssə yox olacaq.

12 Rəbb deyir: «Sizə təsəlli verən Mənəm,
Mən.
Siz kimsiniz ki, qorxursunuz fani
insandan,
Ot kimi solan bəşər oğlundan?
13 Sizi yaradan, göyləri sərən,

***50:8-9** – Rom. 8:33-34*

[16] **51:9** *Rahav* – Misirin rəmzi.
***51:11** – Yeş. 35:10*

Dünyanın təməlini qoyan Rəbbi necə
unudursunuz?
Sizi məhv etmək niyyətində olan
Zülmkarın qəzəbindən bütün günü
qorxursunuz.
Bəs hanı zülmkarın qəzəbi?
14 Zəncirlərlə buxovlanmış dustaqlar
Tezliklə azadlığa çıxacaq.
Ölüm çuxuruna düşməyəcək,
Çörəkləri əskik olmayacaq.
15 Allahınız Rəbb Mənəm.
Mənəm dənizi gur dalğalarla çalxalayan.
Ordular Rəbbidir Onun adı!
16 Mən sözlərimi sənin ağzına qoydum,
Əlimin kölgəsində səni gizlətdim ki,
Göyləri qurum, dünyanın təməlini
qoyum,
Siona "Xalqım sənsən" deyim».

### *Yerusəlimin əzabının sonu*

17 Oyan, oyan, qalx ayağa, ey Yerusəlim!
Sən ki Rəbbin əlindən
Qəzəb kasasını alıb içdin.
Sərxoşluq kasasını axıra qədər boşaltdın.
18 Doğduğun bütün oğullardan sənə yol
göstərən,
Böyütdüyün bütün oğullardan sənə
dayaq olan olmadı.
19 Bu iki bəla sənin başına gəldi,
Dərdinə kim şərik olacaq?
Qarət, dağıntı, qıtlıq və qılınc!
Sənə necə təsəlli verim?
20 Övladların taqətdən düşüb,
Rəbbin qəzəbi, Allahının məzəmməti
üzərlərindədir.
Onlar tələyə düşmüş cüyür kimi
Hər küçə başında uzanıb.
21 Buna görə də, ey yaralı Yerusəlim,
Şərabsız sərxoş xalq, bunu eşit!
22 Xudavəndin Rəbb, Öz xalqını müdafiə
edən
Allahın belə deyir:
«Budur, sərxoşluq kasasını əlindən
almışam.
Qəzəbimin kasasından artıq
içməyəcəksən.
23 Bu kasanı sənin zülmkarlarının əlinə
verəcəyəm.
Axı onlar sənə belə deyərdi:
"Uzan yerə, üstündən keçək".
Sən də arxanı torpaq kimi, yol kimi
edirdin ki, keçsinlər».

### *Yerusəlimin sevinci*

52 1 Qalx, qalx, ey Sion, qüdrətinə
qurşan!
Ey müqəddəs şəhər, ey Yerusəlim,
Gözəl paltarlarını geyin!
Çünki sünnətsizlər, murdarlar
Sənin darvazalarından əsla keçməyəcək.
2 Üst-başındakı tozu çırp,
Qalx, ey Yerusəlim, taxtına otur,
Zənciri boynundan qır,
Ey əsir aparılan Sion qızı!

3 Rəbb belə deyir:
«Siz pulsuz satılmışdınız,
Pulsuz da satın alınacaqsınız».
4 Xudavənd Rəbb belə deyir:
«Xalqım qürbətdə yaşamaq üçün
Əvvəllər Misirə enmişdi.
Sonra Aşşurlular onlara nahaq yerə zülm
etdi.
5 Xalqım nahaq yerə götürülüb aparıldı,
İndi Mənim burada nə işim var?» Rəbb
bəyan edir.
Bu, Rəbbin sözüdür:
«Başçıları coşur,
Adıma hər gün küfr oxuyur.
6 Buna görə xalqım
Mənim adımı tanıyacaq,
O gün "budur, Mənəm" deyən Mən
olduğumu başa düşəcək».

7 Sülh xəbəri gətirən,
Dağları aşıb-gələn
Müjdəçinin ayaqları necə də gözəldir!
O, xoş müjdə gətirir,
Qurtuluş xəbəri verir,
Sion xalqına
«Allahınız hökm sürür!» bəyan edir.
8 Qulaq asın! Keşikçilər səslərini ucaldır,
Birlikdə mədh oxuyur,
Çünki Rəbbin Siona qayıdışını
Öz gözləri ilə görür.
9 Ey Yerusəlim xarabalıqları,
Şənlik edin, birlikdə mədh oxuyun,
Çünki Rəbb xalqına təsəlli verdi,
Yerusəlimi satın aldı.

***51:17** – Vəhy 14:9-10; 16:19*

***52:1** – Vəhy 21:2,27*
***52:5** – Rom. 2:24*
***52:7** – Nah. 1:15; Rom. 10:15; Ef. 6:15*

10 Rəbb bütün millətlərin gözləri önündə
Müqəddəs qolunu çırmaladı,
Dünyanın bütün ucqar yerləri
Allahımızın gətirdiyi xilası görəcək.

11 Çəkilin, çəkilin, oradan çıxın,
Murdar şeylərə toxunmayın,
Oradan çıxıb təmizlənin,
Ey Rəbbin əşyalarını daşıyanlar!
12 Axı siz tələsmədən çıxacaqsınız,
Qaça-qaça getməyəcəksiniz,
Çünki Rəbb qarşınızda gedəcək,
İsrailin Allahı arxanızda olacaq.

### *Rəbbin qulunun iztirab çəkməsi və qələbəsi*

13 Budur, Mənim qulum uğur qazanacaq,
O yüksəldiləcək, ucaldılacaq, çox izzətlənəcək.
14 Çoxları onun qarşısında mat qalacaq.
Bəli, onun görkəmi çox dəyişmişdi,
Zahirən insan surətindən çıxmışdı.
15 Fəqət O çox millətləri heyrətə salacaq,
Onun qarşısında padşahlar ağzını yumacaq.
Çünki onlar bilmədiklərini görəcək,
Eşitmədiklərini anlayacaq.

53 1 Xəbərimizə kim inandı,
Rəbbin gücü kimə zühur oldu?
2 O, Rəbbin önündə bir fidan kimi,
Quru torpaqda bitən kök kimi böyüdü.
Baxanda onun nə görkəmi, nə gözəlliyi var idi,
Gözümüzü oxşayan zahiri siması da yox idi.
3 Adamlar ona həqarətlə baxıb rədd etdi.
O dərdli, xəstəlikləri görən insan idi,
Adamlar ondan üz döndərdi, xor baxdı.
Biz ona qiymət vermədik.

4 Əslində xəstəliklərimizi o çəkdi,
Dərdlərimizi öz üzərinə götürdü.
Biz isə onun Allah tərəfindən cəzalandırıldığını,
Vurulub iztirab çəkdiyini zənn etdik.
5 Bizim asiliyimizə görə onun bədəni deşildi,
Şər əməllərimiz naminə əzildi,
Bizim əmin-amanlığımız üçün o cəza aldı,
Onun yaraları ilə biz şəfa tapdıq.
6 Hamımız qoyun kimi yolu azmışdıq,
Hər birimiz öz yolumuzla gedirdik.
Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu.

7 Ona zülm etdilər,
O iztirab çəkdi, amma ağzını açmadı.
Kəsilməyə aparılan quzu kimi,
Qoyun qırxanların qabağında
Dilsiz-ağızsız qoyun kimi ağzını açmadı.
8 Ədalətsizliklə məhkum olunaraq ölümə aparıldı.
Onun nəsli haqqında kim düşünə bilərdi?
Axı xalqımın asiliyinə görə
O e’dam olundu, dirilər arasından atıldı.
9 O heç bir zorakılıq etmədiyi,
Ağzından yalan söz çıxmadığı halda
Qəbri pis adamların yanında quruldu,
Dövlətli adamın yanında dəfn olundu.

10 Amma Rəbb Özü onun bu iztirablarını istədi,
Çəkdiyi əziyyətlər Onun iradəsi idi.
Öz canını təqsir qurbanı təqdim etdikdə
Nəslini görəcək, ömrü uzanacaq.
Rəbbin istəyi onun əli ilə uğur tapacaq.
11 O, çəkdiyi iztirablarının bəhrəsini görüb qane olacaq,
Mənim saleh qulum öz biliyi ilə çoxlarına bəraət qazandıracaq,
Onların şər əməllərinin yükünü üzərinə götürəcək.
12 Buna görə Mən ona böyük adamların arasında pay verəcəyəm.
O, qəniməti güclülərlə böləcək.
Çünki o, canını fəda etdi,
Asilərə tay tutuldu.
Çox adamların günahını üzərinə götürdü,
Asilərdən ötrü yalvardı.

***52:11** – 2Kor. 6:17*
***52:15** – Rom. 5:21*
***53:1** – Yəh. 12:38*
***53:1** – Rom. 10:16*
***53:4** – Mat. 8:17*
***53:5** – 1Pet. 2:24*
***53:6** – 1Pet. 2:25*
***53:7** – 1Pet. 2:23; Vəhy 5:6*
***53:7-8** – Həv. 8:32-33*
***53:9** – 1Pet. 2:22*
***53:12** – Mrk. 15:28; Luk. 22:37*

### *Rəbbin İsrailə məhəbbəti*

54 [1] «Şənlən, ey sonsuz, qısır qadın!
Sevinclə mahnı oxu,
Ey doğuş ağrısı çəkməyən qadın!
Çünki atılmış qadının övladları
Ərli qadının övladlarından çox olacaq»,
Bunu Rəbb deyir.
[2] «Çadırının yerini genişləndir,
Məskəninin örtüklərini uzat,
Çəkinmə, ipləri uzat, payaları vur.
[3] Çünki sağa və sola səpələnəcəksən,
Nəslin millətlərə yiyələnəcək,
Viran qalmış şəhərlərdə məskunlaşacaq.

[4] Qorxma, çünki utanmayacaqsan,
Ruhdan düşmə, çünki rüsvay
olmayacaqsan.
Cavanlığın xəcalətini unudacaqsan,
Bir daha dulluğun rüsvayçılığını
Yadına salmazsan».
[5] Çünki sənin ərin səni Yaradandır,
Onun adı Ordular Rəbbidir.
Səni Satınalan İsrailin Müqəddəsidir,
O, bütün dünyanın Allahı adlanır.
[6] Allahın deyir:
«Rəbb səni çağırır
Atılmış və ruhu əzilmiş,
Gənc yaşında ərə getmiş,
Sonra isə rədd olunmuş bir qadın kimi.
[7] Bir anlığa səni tərk etdim,
Amma böyük rəhmlə geri qəbul
edəcəyəm.
[8] Bir anlığa qızğın qəzəblə səndən
üzümü döndərdim,
Lakin əbədi məhəbbətimlə sənə rəhm
edəcəyəm».
Bunu səni Satınalan, Rəbb deyir.

[9] «Bu, Mənim üçün sanki Nuhun
dövründə
Baş verən daşqındır,
Nuhun dövründəki daşqın suları
Bir daha yer üzünü örtməyəcəyi haqda
necə and içmişdimsə,
İndi də and içirəm ki,
Sənə qəzəblənməyəcəyəm, səni
məzəmmət etməyəcəyəm.
[10] Dağlar yerini dəyişsə də,
Təpələr sarsılsa da,
Sənə olan məhəbbətim dəyişməz,
Sülh əhdim sarsılmaz».
Bunu sənə rəhm edən Rəbb deyir.

### *Yeni Yerusəlimin xoşbəxtliyi*

[11] «Ey tufana düşmüş,
Təsəlli tapmamış yazıq şəhər!
Sənin daşlarını əqiqlərlə,
Təməlini göy yaqutlarla qoyacağam.
[12] Qüllələrini yaqutdan,
Darvazalarını lə'l-cavahirdən,
Divarlarını qiymətli daşlardan
hörəcəyəm.
[13] Bütün övladlarını Mən Rəbb
öyrədəcəyəm,
Onlar tam sülh içində olacaq.
[14] Salehliyində möhkəmlənəcəksən,
Zülmdən uzaq olacaqsan,
qorxmayacaqsan.
Qorxu hissi səndən uzaq olacaq, sənə
yaxınlaşmayacaq.
[15] Sənə hücum edən olsa, bil ki, bu
Məndən deyil,
Sənə hücum edən hər kəs
Qarşında yerə yıxılacaq.

[16] Budur, odda kömürü körükləyən,
Öz məqsədi üçün silah hazırlayan
Dəmirçini Mən yaratdım.
Məhv etmək üçün qırıcını da Mən
yaratdım.
[17] Sənə qarşı işlənən
Heç bir silah işə yaramayacaq.
Məhkəmədə səni təqsirləndirən
Hər bir kəsi təqsirkar çıxaracaqsan.
Rəbbə qulluq edənlərin irsi belədir.
Onların salehliyi Məndən gəlir».
Bunu Rəbb bəyan edir.

### *Rəbbin çağırışı*

55 [1] Ey bütün susamışlar, gəlin su
başına!
Ey pulu olmayanlar, gəlin, alın, yeyin!
Gəlin, şərabı və südü pulsuz-parasız alın!
[2] Nə üçün pulunuzu çörək olmayan
şeylərə,
Qazandığınızı sizi doydurmayan şeylərə
xərcləyirsiniz?
Məni diqqətlə dinləyin ki,

---

***54:1*** *– Qal. 4:27*
***54:9*** *– Yar. 9:8-17*
***54:11-12*** *– Vəhy 21:18-21*
***54:13*** *– Yəh. 6:45*
***55:1*** *– Vəhy 21:6; 22:17*

Yaxşı şeylər yeyəsiniz, ne'mətlərdən
dadasınız.
3 Qulaq asın, Mənim yanıma gəlin,
Dinləyin ki, sağ qalasınız.
Mən sizinlə əbədi əhd,
Davuda və'd etdiyim sadiq məhəbbət
əhdi kəsəcəyəm.
4 Budur, onu ümmətlərə şahid,
Başçı və hökmdar etdim.
5 Tanımadığınız millətləri çağıracaqsınız.
Allahınız Rəbbə görə,
İsrailin Müqəddəsindən ötrü,
Sizi tanımayan millətlər qoşa-qoşa
yanınıza gələcək.
Çünki Rəbb sizi ucaltdı.

6 Tapmaq fürsəti olarkən Rəbbi axtarın,
O yaxın ikən Ona yalvarın.
7 Qoy pis adam öz yolunu,
Şər adam öz fikirlərini atsın.
Qoy Rəbbə sarı dönsün ki, Ondan
mərhəmət tapsın.
Qoy bizim Allahımız tərəfə dönsün,
Çünki Onun əfvi boldur.
8 «Çünki Mənim fikirlərim sizin
fikirləriniz deyil,
Sizin yollarınız Mənim yollarım deyil»
Rəbb belə bəyan edir.
9 «Çünki göylər yer üzündən nə qədər
yüksəkdirsə,
Yollarım da sizin yollarınızdan,
Fikirlərim də sizin fikirlərinizdən o
qədər yüksəkdir.
10 Necə göydən yağan yağış və qar
Torpağı sulamadan, yeri məhsuldar edib
Əkin bitirmədən, əkinçiyə toxum,
Yeyənə çörək vermədən göylərə
qayıtmırsa,
11 Ağzımdan çıxan kəlmə də belədir:
Boş yerə yanıma qayıtmaz,
Ancaq istədiyimi yerinə yetirər,
Onu göndərdiyim iş icra olunsun deyə
həyata keçirər.

12 Sevinclə çıxacaqsınız,
Sülhlə müşayiət olunacaqsınız,
Dağlar, təpələr önünüzdə sevinclə
nəğmə deyəcək,
Çöldəki bütün ağaclar əl çalacaq.
13 Tikanlı kol əvəzinə şam ağacı,
Qanqal əvəzinə mərsin ağacı bitəcək.
Bu, Rəbb üçün şöhrət,
Pozulmaz əbədi əlamət olacaq».

### *Rəbb bütün xalqları qəbul edəcək*

56 1 Rəbb belə deyir:
«Ədaləti qoruyun, salehliyə əməl
edin.
Çünki xilasım yaxındadır,
Salehliyim tezliklə aşkar olunacaq.
2 Bunu edən insan,
Buna itaət edən bəşər oğlu nə bəxtiyardır!
Şənbə gününü tutar, murdarlamaz,
Hər cür şərdən qorunar.

3 Qoy Rəbbə bel bağlayan heç bir yadelli
deməsin:
"Əlbəttə, Rəbb məni Öz xalqından
ayıracaq".
Qoy heç bir xədim deməsin:
"Mən quru bir ağacam"».
4 Çünki Rəbb belə deyir:
«Şənbə günlərimə riayət edən,
Mənə xoş gələni seçən,
Əhdimə itaət edən xədimlərə
5 Evimdə, divarlarımın arasında
Oğul və qızlardan daha da yaxşı
Xatirə və ad verəcəyəm.
Onlara silinməz, əbədi bir ad verəcəyəm.
6 Rəbbə xidmət etmək, Onun adını
sevmək,
Onun qulu olmaq üçün Şənbə gününə
riayət edən, o günü murdarlamayan,
Əhdimə itaət edən,
Rəbbə bel bağlayan bütün yadelliləri
7 Müqəddəs dağıma gətirib
Dua evimdə sevindirəcəyəm.
Onların gətirdikləri
Yandırma qurbanları, bütün qurbanlar
Qurbangahımda qəbul olunacaq.
Çünki Mənim evim bütün xalqlar üçün
Dua evi adlandırılacaq».
8 İsrailin əsir düşmüş övladlarını
toplayan
Xudavənd Rəbb belə bəyan edir:
«Mən hələ toplanmışların yanına
başqalarını da yığacağam».

### *Rəbb İsrailin başçılarının pisliyini ifşa edir*

9 Ey bütün vəhşi çöl heyvanları,
Ey bütün meşə heyvanları,

***55:3*** *– Həv. 13:34*
***55:10*** *– 2Kor. 9:10*
***56:7*** *– Mat. 21:13; Mrk. 11:17; Luk. 19:46*

Gəlin yeməyə!
10 Xalqımın bütün keşikçiləri kordur,
cahildir!
Onların hamısı hürə bilməyən lal itlərdir,
Mürgüləyirlər, uzanırlar,
Yatmağı çox sevirlər!
11 Acgöz, azğın köpəklərdir bunlar,
Axmaq çobanlardır bunlar!
Hər kəs öz yolu ilə gedir,
Hər biri öz xeyrini güdür!
12 Bir-birlərinə deyirlər:
«Gəlin, şərab gətirək,
Bol-bol içki içək!
Sabahkı gün də bu gün kimi,
Hətta bundan da çox yaxşı olacaq!»

### *Vəfasız xalq*

57 1 «Saleh adam ölür və bunu vecinə
alan yoxdur.
Mö'min adamlar da köçüb gedir,
Amma heç kim anlamır ki,
Bəla gəlməmiş saleh adam canını
qurtarır.
2 Saleh adam sülhə qovuşur,
Doğru yolla gedən son yatağında rahat
yatır.

3 Amma siz, ey cadugər qadının
övladları,
Fahişə və zinakarlar nəsli, bura, yaxın
gəlin!
4 Siz kimi məsxərəyə qoyursunuz?
Kimə ağız əyirsiniz?
Kimə dil göstərirsiniz?
Axı siz asi övladlar,
Yalançı nəsil deyilsinizmi?
5 Palıd ağacları arasında,
Hər kölgəli ağacın altında
Şəhvətlə alışıb-yanan,
Vadilərdə, qaya oyuqlarında,
Övladlarınızı qurban gətirən
Siz deyilmisiniz?
6 Sizin payınız
Vadinin hamar daşlarından düzələn
bütlərdir.
Onlardır, bəli, onlardır sizə nəsib olan.
Onların qarşısında maye təqdimi
tökdünüz,
Taxıl təqdimi gətirdiniz.
Bunlara görə Mən təsəlli taparammı?

7 Yatağınızı yüksək, uca dağda
salmısınız,
Qurbanlarınızı kəsmək üçün də oraya
çıxırsınız.
8 Qapılarınıza, qapıların yan taxtalarının
arxasına
İyrənc işarələr düzmüsünüz.
Məni tərk edib yatağınızı geniş açdınız,
Orada uzandınız, oynaşlarınızla
sövdələşdiniz,
Birlikdə yatmağa can atdınız,
Onların çılpaqlığına tamaşa etdiniz!
9 Ətirləri bol-bol vurandan sonra
Molek allahına sarı getdiniz.
Elçilərinizi uzaqlara göndərdiniz,
Özünüzü ölülər diyarına qədər
endirdiniz.
10 Uzun yollar sizi taqətdən saldı.
Lakin siz "daha bəsdir" demədiniz.
Gücünüzü təzələyib qalxdınız,
Buna görə yorulmadınız.

11 Kim sizi qorxudub dəhşətə saldı ki,
Məni aldatdınız?
Məni yada salmadınız,
Ürəyinizdə Mənə yer vermədiniz?
Mən xeyli vaxt susduğuma görə,
Siz Məndən qorxmursunuz?
12 Mən sizin salehliyinizi,
Etdiyiniz əməlləri aşkara çıxaracağam,
Bunların sizə xeyri olmayacaq.
13 Siz fəryad edəndə
Bu yığdığınız bütlər
Görək sizi nə cür qurtaracaq!
Onların hamısını külək sovurub atacaq,
Bir nəfəs onları yerindən tərpədib
aparacaq.
Lakin Mənə sığınan torpağı irs olaraq
alacaq,
Müqəddəs dağımı mülk edəcək».

### *Rəbb xalqına şəfa verəcək*

14 Rəbb deyir:
«Tikin, tikin, yol hazırlayın!
Xalqımın yolundakı əngəlləri götürün!»
15 Uca və əzəmətli,
Əbədi yaşayan, adı müqəddəs Olan
Belə deyir:
«Mən yüksək və müqəddəs yerdə
yaşayıram,
Qırıq qəlbli olanların ruhunu diriltmək,
Həlimlərin ürəklərini dirçəltmək üçün
onlarla birlikdəyəm.
16 Həmişə çəkişib qəzəblənməyəcəyəm,

Yoxsa yaratdığım canlı insan qarşımda
dura bilməz.
17 Tamahkarlıq günahına görə
Qəzəblənib xalqı cəzalandırdım,
Hiddətlənib üzümü onlardan döndərdim.
Onlar da inad edib öz yolları ilə getdi.
18 Əməllərini gördüm,
Amma onlara şəfa verəcəyəm.
Onlara rəhbərlik edəcəyəm,
Onlara və onların aralarında yas
tutanlara təsəlli verəcəyəm.
19 Ağızları ilə həmdlər söyləyəcəyəm.
Uzaqdakılara və yaxındakılara qoy sülh,
sülh olsun».
Rəbb belə deyir: «Mən onlara şəfa
verəcəyəm».
20 Pislər isə sanki dalğalanan dənizdir,
Bu dəniz sakit dura bilməz,
Onun suları palçıq və kir çıxarar.
21 «Pislərə isə sülh yoxdur» deyir mənim
Allahım.

### *Düzgün oruc*

58 1 «Avazla çığırın, çəkinməyin,
Səsinizi şeypur səsi kimi ucaldın,
Xalqıma asiliyini,
Yaqub nəslinə günahlarını bildirin!
2 Onlar hər gün Məni axtarır,
Mənim yolumu öyrənməkdən zövq alır.
Sanki bu əməlisaleh,
Allahının hökmündən ayrılmayan millət
imiş.
Onlar Məndən düzgün hökmlər diləyirdi,
Allaha yaxınlaşmaqdan zövq alırdı.

3 Onlar belə deyir:
"Oruc tutduğumuzu nə üçün görmürsən,
Özümüzü həlim edirik,
Sən isə fikir vermirsən?"
Baxın, oruc tutduğunuz gün
Siz istədiyinizi edirsiniz,
Bütün işçilərinizi sıxışdırırsınız.
4 Baxın, orucunuzu savaşma ilə,
Dava ilə, yumruqla, döyməklə
keçirirsiniz.
Səsinizi ucalara çatdırmaq üçün
Bugünkü kimi sizə oruc tutmaq olmaz.
5 Budurmu istədiyim oruc?
Adamın həlim olduğu gün belə olarmı?
Qamış kimi başınızı əyib,
Əyninizə çul geyib, kül üstündə
oturmağınızı oruc adlandırırsınız?
Rəbbə məqbul olan gün budurmu?

6 Mənim istədiyim oruc isə
Haqsızlığın buxovlarını qırmaq,
Boyunduruğun iplərini açmaq,
Sıxıntı içində olanları azad etmək,
Hər cür boyunduruğu məhv etmək
deyilmi?
7 Yediyiniz çörəyi acla bölüşdürmək,
Yurdsuz kasıbları evinizə gətirmək
deyilmi?
Mənim istədiyim oruc bu deyilmi?
Çılpaq görəndə geyindirmək,
Yaxınlarınızdan köməyinizi
əsirgəməmək deyilmi?
8 Onda şəfəq kimi nurunuz saçacaq,
Tezliklə şəfa tapacaqsınız,
Qarşınızda salehliyiniz gedəcək,
Rəbbin izzəti sizə arxa olacaq.
9 O vaxt Rəbbi köməyə çağıracaqsınız,
Rəbb cavab verəcək.
Fəryad edəcəksiniz, O sizə "buradayam"
deyəcək.

Əgər siz boyunduruğu,
Yə'ni başqalarına zülm etməyinizi,
Aranızdan rədd etsəniz,
Barmaq uzadıb şər sözlər söyləməyə yol
verməsəniz,
10 Cani-dildən acların qayğısına qalsanız,
Fəqirlərin ehtiyaclarını ödəsəniz,
Nurunuz qaranlıqda parlayacaq,
Qaranlığınız günorta işığı kimi nur
saçacaq.
11 Rəbb həmişə sizə yol göstərəcək,
Quru torpaqlarda sizi doyuzduracaq, güc
verəcək.
Siz də sulanmış bağça kimi,
Suları heç vaxtı əskilməyən
Bulaq kimi olacaqsınız.
12 Sizdən törənənlər qədim dağıntıları
tikəcək,
Nəsillərdən qalma təməllərin üstünü
Siz bərpa edəcəksiniz.
Sizə xarabalıqları bərpa edənlər,
Camaatın yaşaması üçün
Küçələri yenidən quranlar deyiləcək.

### *Şənbə gününə riayət edənlər üçün mükafat*

13 Şənbə günündə büdrəməsəniz,

***57:19*** *– Ef. 2:17*
***57:21*** *– Yeş. 48:22*

Müqəddəs günümdə istədiyinizi etməsəniz,
Şənbə gününü "şən gün",
Rəbbin müqəddəs gününü
"Şərəfli gün" adlandırsanız,
Öz yolunuzla getməməklə,
İstədiyinizi əldə etməməklə,
Boşboğazlıqla məşğul olmamaqla,
O günü əziz tutsanız,
14 Rəblə ünsiyyətdən zövq alacaqsınız.
O zaman Mən sizi yer üzünün
Yüksək yerlərinə çıxaracağam,
Atanız Yaqubun payından dadacaqsınız».
Bu sözlər Rəbbin ağzından çıxıb.

### *Günah və e'tiraf*

59 1 Ah, Rəbbin əli qısa deyil ki, xilas edə bilməsin,
Qulağı kar deyil ki, eşidə bilməsin.
2 Lakin şər əməlləriniz
Allahınızla sizin aranızda ayrılıq saldı.
Günahlarınıza görə Onun üzü sizdən döndü,
O səsinizi eşitmir.
3 Çünki əlləriniz qanla,
Barmaqlarınız şər əməllərlə murdarlanıb.
Dodaqlarınız yalan danışır,
Diliniz pislik söyləyir.
4 Məhkəmədə ədalətlə işə baxan yoxdur,
Doğruluqla özünü müdafiə edən yoxdur,
Boş sözlərə güvənirlər, aldadırlar,
Əziyyətə hamilə olub pislik doğurlar.

5 Gürzə yumurtaların üstündə qırt yatıb
Hörümçək toru toxuyurlar.
O yumurtalardan yeyən ölür,
Qırılan yumurtalardan əf'i ilan çıxır.
6 Onların toxuduğu hörümçək torundan paltar çıxmaz,
Toxuduqları parça ilə özlərini örtə bilmirlər.
Elədikləri əməllər şər əməllərdir,
Əllərində zorakılıq işləri var.
7 Ayaqları pis işlər etməyə tələsir,
Günahsız qan tökməyə cəlddir.
Fikirləri, niyyətləri şər əməllərdir,
Yollarında viranəlik, qırğın var.
8 Əmin-amanlıq yolu nədir, onlar bilmir,
Getdikləri yolda ədalət yoxdur,
Özlərinə əyri yol seçdilər,
O yoldan gedənlərin heç biri
Əmin-amanlıq nədir bilməzlər.

9 Buna görə ədalət bizdən uzaqlaşıb,
Salehliyə çata bilmirik.
İşıq ümidindəyik, fəqət qaranlıqdayıq,
Aydınlıq gözləyirik, zülmətdə yeriyirik.
10 Kor kimi əllərimizlə divarı yoxlayırıq,
Gözü görməyənlər tək yol axtarırıq.
Günorta çağı gecə vaxtı olduğu kimi büdrəyirik,
Güclülər arasında ölülər kimiyik.
11 Hamımız ayı kimi nərildəyirik,
Göyərçin tək inildəyirik.
Ədalət gözləyirik, lakin heç bir şey yoxdur.
Qurtuluş gözləyirik, amma bizdən uzaqdır.
12 Çünki Önündə asiliyimiz böyükdür,
Günahlarımız bizə qarşı şəhadət edir.
Asiliyimiz bizi dövrəyə alıb,
Şər əməllərimizdən xəbərdarıq.
13 Asi olub Rəbbi rədd etdik,
Allahımızın ardınca getmədik,
Zorakılıq, xəyanətlə dolu sözlər danışdıq,
Yalan kəlmələri ürəyimizdə gizlətdik,
Sonra aşkara çıxartdıq.
14 Ədalət geri çəkildi,
Salehlik uzaqda durdu,
Çünki həqiqət şəhər meydanında yıxıldı,
Dürüstlük aramıza daxil ola bilmir.
15 Həqiqət heç bir yerdə yoxdur,
Şərdən uzaq duran talan olunur.

### *Rəbb xalqını qurtaracaq*

Rəbb bunları gördü,
Ədalətin yoxluğu Onun xoşuna gəlmədi.
16 Rəbb gördü ki, heç kim yoxdur,
Havadarın olmadığına görə O mat qaldı.
Onda Onun qolu Ona zəfər gətirdi,
Salehliyi Ona dayaq oldu.
17 O, salehliyi zireh kimi geydi,
Qurtuluş dəbilqəsini başına taxdı.
Qisas geyimlərini geydi,
Qeyrət libasına büründü.
18 O hər kəsə əməllərinə görə əvəz verəcək.
Düşmənlərinə qəzəblə, yağılarına,
Uzaq diyarlara qisasla əvəz verəcək.

***59:4*** *– Əyy. 15:35; Zəb. 7:14*
***59:7-8*** *– Sül. 1:16; Rom. 3:15-17*
***59:16*** *– Yeş. 63:5*
***59:17*** *– Ef. 6:14*
***59:17*** *– Ef. 6:17; 1Sal. 5:8*

19 Beləcə qərbdən şərqədək adamlar
Rəbbin adından və əzəmətindən
qorxacaq.
Çünki düşmən azğın bir çay kimi
gəldikdə
Rəbbin nəfəsi onu qovacaq.
20 Rəbb bəyan edir: «Satınalan Siona,
Yaqub nəslinin asilikdən dönən
övladlarının yanına gələcək».
21 «Budur Mənim onlarla əhdim:
Üzərindəki Ruhum, ağzına qoyduğum
sözlərim
İndidən axıra qədər sənin, övladlarının,
Nəvə-nəticələrinin ağzından
düşməyəcək».
Bunu Allah deyir.

### *Sionun şərəfli gələcəyi*

60 1 Qalx, işıqlan, çünki nurun gəldi,
Rəbbin izzəti üzərinə gəldi!
2 Budur, dünyanı qaranlıq, ümmətləri
zülmət bürüyəcək.
Amma Rəbb üzərinə nur saçacaq,
İzzəti səni əhatə edəcək.
3 Millətlər Sənin nuruna,
Padşahlar üzərinə çökən
Aydınlığa doğru gələcək.

4 Qaldır başını, bax ətrafına,
Hamı yığılıb yanına gəlir!
Oğulların uzaqdan gəlir,
Qızların qucaqda gətirilir.
5 O vaxt bunu görüb üzün nur saçacaq,
Ürəyin sevincdən tez-tez çırpınacaq.
Çünki uzaq ölkələrin var-dövləti sənə
gətiriləcək,
Millətlərin sərvəti sənə gələcək.
6 Dəvə sürüləri, Midyan və Efa köşəkləri
Torpaqlarını dolduracaq.
Bütün Səba xalqı gəlib
Qızıl və kündür gətirəcək,
Rəbbə həmdlər söyləyəcək.
7 Qedarın bütün qoyun sürüləri yanına
yığılacaq,
Nevayotun qoçları sənin əlinin altında
olacaq,
Qurbangahıma Mənə məqbul olan
qurbanlar gətiriləcək.
Şərəfli evimi daha da izzətləndirəcəyəm.
8 Kimdir bunlar, bulud kimi,
Yuvalarına yaxınlaşan göyərçin tək uçub
gələnlər?
9 Uzaq diyarlar Mənə ümid
bağladıqlarına görə
Tarşiş gəmiləri başda olmaqla
Allahın Rəbbin şərəfinə,
Səni ucaldan İsrailin Müqəddəsi üçün
Sənin övladlarını qızıl-gümüşü ilə
Uzaqdan gətirən gəmilərdir bunlar.
10 Əcnəbilər divarlarını tikəcək,
Padşahları sənə xidmət edəcək.
Qəzəbimdə səni vurdumsa da,
Lütfümlə sənə mərhəmət edəcəyəm.
11 Darvazaların həmişə açıq qalacaq,
Nə gecə, nə də gündüz qıfıllanmayacaq
ki,
Millətlərin sərvəti sənə təqdim olsun,
Padşahları yanına gətirilsin.
12 Çünki sənə xidmət etmək istəməyən
Millət ya səltənət məhv olacaq,
Bəli, o millətlər tamamilə yox olacaq.

13 Livanın şan-şöhrəti olan şam ağacı,
Çinar və sərv ağacları müqəddəs
məkanımdakı yeri
Gözəlləşdirmək üçün birgə yanına
gətiriləcək,
Ayaq qoyduğum yeri şərəfləndirəcəyəm.
14 Sənə zülm edənlərin övladları
Gəlib önündə tə’zim edəcək.
Sənə həqarətlə baxanların hamısı
Ayaqlarına düşüb Sənə səcdə edəcək.
Sənə Rəbbin şəhəri,
İsrailin Müqəddəsinin Sionu deyəcəklər.

15 Səni tərk edib nifrət etdilər,
Yanından heç kim keçmirdi,
İndi isə Mən səni əbədi fəxr,
Nəsillər boyu sevinc edəcəyəm.
16 Millətlər və padşahlar
Bir ana kimi sənə süd verəcəklər.
O vaxt biləcəksən ki, səni qurtaran Rəbb,
Səni Satınalan, Yaqubun qüdrətli Allahı
Mənəm.

17 Sənə tunc əvəzinə qızıl,
Dəmir yerinə gümüş,
Ağac yerinə tunc,
Daş əvəzinə dəmir gətirəcəyəm.

***59:20-21** – Rom. 11:26-27*
***60:3** – Vəhy 21:24*
***60:11** – Vəhy 21:25-26*
***60:14** – Vəhy 3:9*

Əmin-amanlığı başçın,
Salehliyi hökmdarın tə'yin edəcəyəm.
18 Ölkəndən zorakılıq,
Sərhədlərindən viranəlik,
Qırğın xəbəri gəlməyəcək.
Divarlarını «Xilas»,
Darvazalarını «Həmd» adlandıracaqsan.
19 Artıq gündüz günəş işığın olmayacaq,
Gecə ay sənə aydınlıq verməyəcək.
Çünki Rəbb əbədi nurun,
Allahın sənin şöhrətin olacaq.
20 Günəşin batmayacaq, ayın
gizlənməyəcək,
Çünki Rəbb əbədi nurun olacaq,
Sənin yaslı günlərin qurtaracaq.
21 Bütün xalqın saleh olacaq,
Torpağı əbədi mülk olaraq alacaq.
Onlar əkdiyim fidandır,
Şöhrətimi göstərmək üçün əlimin işidir.
22 Ən kiçik ailədən böyük nəsil törəyəcək,
Azsaylı nəsil qüdrətli millət olacaq.
Mən Rəbb bunu öz vaxtında tez
edəcəyəm.

### *Rəbbin lütf ili*

61 1 Xudavənd Rəbbin Ruhu
üzərimdədir,
Çünki fəqirlərə müjdəni bildirmək üçün
O məni məsh etdi.
Qəlbləri sınıq olanların yaralarını
sarımaq üçün,
Əsirlərə azadlıq, dustaqlara sərbəstlik
e'lan etmək üçün,
2 Rəbbin lütf ilini,
Allahımızın qisas gününü bəyan etmək
üçün,
Yaslıların hamısına təsəlli vermək üçün,
3 Sionda yas tutanları tə'min etmək,
Kül yerinə çələng,
Yas yerinə sevinc gətirən məsh yağı,
Kədərli ruh əvəzinə
Həmd libasını bəxş etmək üçün
Rəbb məni göndərdi.
Onlara Rəbbin şöhrətini aşkar etmək
üçün
Rəbbin əkdiyi salehlik palıd ağacları
deyiləcək.

4 Onlar qədim dağıntıları inşa edəcək,
Əvvəlki xarabalıqları bərpa edəcək,
Nəsillər boyu viranə qalmış şəhərləri
yenidən quracaq.
5 Yadellilər gəlib sürülərinizi otaracaq,
Əcnəbilər sizə əkinçilik və bağbanlıq
edəcək.
6 Siz isə Rəbbin kahinləri,
Allahımızın xidmətçiləri adlanacaqsınız.
Millətlərin sərvəti ilə bəslənəcəksiniz,
Var-dövlətləri ilə fəxr edəcəksiniz.
7 Çəkdiyiniz xəcalət yerinə ikiqat şərəf,
Rüsvayçılıq əvəzinə payınızı alıb
sevinəcəksiniz.
İndi isə torpağınızda ikiqat mülk
alacaqsınız,
Sevinciniz əbədi olacaq.
8 Çünki Mən Rəbb ədaləti sevirəm.
Soyğunçuluğa, haqsızlığa nifrət edirəm.
Əlbəttə, əməllərinə görə onlara haqqını
verəcəyəm,
Onlarla əbədi əhd kəsəcəyəm.
9 Nəsillərindən törəyənlər millətlər
içində,
Övladları xalqlar arasında tanınacaq.
Onları görən hər kəs biləcək ki,
Rəbb nəsillərinə xeyir-dua verdi.

10 Rəbdə böyük sevinc tapacağam,
Allahımda ürəyim şadlıqdan coşacaq,
Çünki çələnglə bəzənmiş bəy kimi,
Bər-bəzək taxmış gəlin kimi
Mənə qurtuluş geyimi geyindirdi,
Salehlik libası ilə bürüdü.
11 Torpaq zoğlarını necə cücərdirsə,
Bağ əkilən toxumları necə yetişdirirsə,
Xudavənd Rəbb də bütün millətlər
qarşısında
Salehliyi və həmdi belə yetişdirəcək.

### *Sionun yeni adı*

62 1 Salehliyi nur kimi saçanadək,
Qurtuluşu məş'əl tək yananadək
Sion naminə susmayacağam,
Yerusəlim naminə sakit durmayacağam.
2 Millətlər salehliyini,
Bütün padşahlar əzəmətini görəcək,
Rəbbin ağzından çıxdığı,
Sənə verdiyi yeni adla çağırılacaqsan.
3 Sən Rəbbin əlində şərəf tacı,

***60:19*** *– Vəhy 21:23; 22:5*
***61:1-3*** *– Luk. 4:18-19*
***61:1-3*** *– Mat. 11:5; Luk. 7:22*
***61:1-3*** *– Mat. 5:4*
***61:10*** *– Vəhy 21:2*
***62:2*** *– Yeş. 65:15; Vəhy 2:17*

Allahının ovcunda padşahlıq çələngi
olacaqsan.
4 Artıq sənə «atılmış»,
Ölkənə «viranə qalmış» deməyəcəklər.
Əvəzinə sənə «sevdiyim»,
Ölkənə isə «ərli» deyiləcək.
Çünki Rəbb səni sevəcək,
Ölkən də ərli sayılacaq.
5 Bir gənc bakirə qızla evləndiyi kimi
Səni Yaradan da səninlə evlənəcək.
Bəy gəlindən zövq aldığı kimi
Allahın da səndən zövq alacaq.

6 Ey Yerusəlim, divarlarının üstünə
Mən qarovulçular qoydum.
Gecə-gündüz onlar susmayacaq.
Ey Rəbbə sözünü xatırladan sizlər,
susmayın,
7 Rəbb Yerusəlimi bərpa edənədək,
Onu yer üzünün tə’rifə layiq şəhərinə
döndərənədək
Ona rahatlıq verməyin!

8 Rəbb sağ əlini, güclü qolunu
Qaldırıb and içdi:
«Düşmənlərinə sənin taxılını bir daha
yedirtməyəcəyəm,
Yadellilər sənin əziyyətlə sıxdığın
şərabını içməyəcək.
9 Taxılı yığan yeyəcək,
Rəbbə həmdlər edəcək.
Üzümü toplayan şərabını
Mə’bədimin həyətlərində içəcək».

10 Keçin, keçin şəhər darvazalarından,
Xalq üçün yol hazırlayın!
Tikin, yol salın,
Daşları kənara atın,
Xalqlar üçün bayraq qaldırın!
11 Rəbb yer üzünün ən uzaq yerlərinə
bəyan etdi:
«Sion qızına deyin:
“Budur, qurtuluşun gəlir,
Rəbbin mükafatı onunladır,
Ən’amı önündədir”».
12 Sion xalqına
«Rəbbin satın aldığı, müqəddəs xalq»
deyəcəklər.
Sən, ey Yerusəlim,
«Allahın axtardığı, tərk olmamış şəhər»
adlanacaqsan.

### *Rəbbin qüdrəti*

63 1 Edomdan, Bosradan al geyimlər
geyib
Bu gələn kimdir?
Təmtəraqlı libas içində,
Böyük qüdrətlə gələn kimdir?
«O Mənəm, həqiqətlə danışan,
Qurtarmağa qadir olan».

2 Nə üçün geyimlərin qırmızıdır,
Nə üçün libasın qızıl rəngdədir,
Sanki sən üzümsıxanda üzüm sıxırdın?
3 «Üzümsıxanda üzümü tək sıxdım,
Yanımda xalqlardan heç kim olmadı.
Qəzəb içində onları tapdaladım,
Qeyzlə ayaqlarımın altına saldım.
Qanları geyimlərimə sıçradı,
Bütün libaslarımı bulaşdırdı.
4 Çünki qisas günü qəlbimdə idi,
Xalqımı satın aldığım il gəldi.
5 Mən baxdım, kömək edən bir kəs yox
idi,
Mənim tərəfimi saxlayan olmadığına
məəttəl qaldım,
Onda qolum mənə zəfər gətirdi,
Qeyzim mənə dayaq oldu.
6 Qəzəb içində xalqları tapdaladım,
Qeyzimi onlara içirtdim,
Qanlarını yerə axıtdım».

### *Rəbbin xeyirxahlığı*

7 Rəbbin lütfkar işlərindən,
Həmdlərə layiq əməllərindən nəql
edəcəyəm.
Böyük mərhəməti və məhəbbəti naminə,
İsrail nəslinə etdiyi böyük xeyirxahlığına
görə,
Rəbbin bizə etdiyi bütün işlərinə görə
Onu xatırlayacağam.
8 Rəbb dedi:
«Əlbəttə, onlar Mənim xalqımdır,
Məni aldatmayan övladlarımdır».
Beləcə onlara Qurtarıcı oldu.
9 Onlar əziyyət çəkdikdə
O da əziyyət çəkdi.

***62:11*** *– Yeş. 40:10; Vəhy 22:12*

***63:1-6*** *– Yeş. 34:5-17; Yer. 49:7-22; Yez. 25:12-14; 35:1-15; Amos 1:11-12; Avd. 1-14; Mal. 1:2-5*
***63:3*** *– Vəhy 14:20; 19:15*
***63:3*** *– Vəhy 19:13*
***63:5*** *– Yeş. 59:16*

Hüzurundan gələn mələk onları xilas
etdi.
Məhəbbəti və mərhəməti ilə
Onları satın aldı.
Bütün keçmiş günlərdə onları götürüb
apardı.
10 Lakin İsrail dikbaşlıq etdi,
Onun Müqəddəs Ruhunu kədərləndirdi.
Rəbb də düşməni olub
Onlara qarşı döyüşdü.
11 Sonra xalq keçmiş günləri –
Rəbbin qulu Musanın dövrünü yada
saldı.
Onları sürüsünün çobanları ilə birgə
Dənizdən keçirən haradadır?
Onların daxilinə
Müqəddəs Ruhunu ehsan edən,
12 Öz əzəmətli gücü ilə Musanın sağ
əlindən tutub,
Özünə əbədi ad qazandırmaq üçün
Suları qarşılarında yaran Rəbb haradadır?
13 Bir at çöldə yıxılmadan çapan kimi,
Onları da dərinliklərdən elə keçirən
Rəbb haradadır?
14 Rəbbin Ruhu onlara elə rahatlıq verdi
ki,
Elə bil naxır otu bol olan dərədə otarılır.
Bəli, Sən adını şərəfləndirmək naminə
Xalqına belə yol göstərdin.

***Rəhm və imdad haqqında yalvarış***

15 Ya Rəbb, göylərdən bax,
Müqəddəs, izzətli, uca məskənindən bizə
nəzər sal!
Haradadır Sənin qeyrətin, gücün?
Qəlbindəki həsrəti, rəhmi bizdən
əsirgədin.
16 Sənsən Atamız.
İbrahim bizi tanımasa da,
İsrail bizim kim olduğumuzu bilməsə də,
Atamız Sənsən, ya Rəbb,
Əzəldən bəri adın «Bizi Satınalan»dır.
17 Nə üçün, ya Rəbb,
Bizi yolundan azdırırsan,
Səndən qorxmayaq deyə
Qəlblərimizi inadkar edirsən?
Qullarının xatirinə,
İrsin olan qəbilələrinin xatirinə geri dön.
18 Müqəddəs xalqın qısa müddətə Sənin
müqəddəs məkanına sahib oldu.
İndi isə oranı düşmənlərimizin ayağı
tapdalayır.
19 Əzəldən bəri heç vaxt
Hakimlik etmədiyin xalqa bənzədik,
Sanki Sənin adına bağlı xalq olmamışıq.

64 1 Ya Rəbb, kaş göyləri yarıb enəydin,
Dağlar hüzurunda sarsılardı!
2 Alov kolluğu yandıran kimi,
Od suyu qaynadan kimi
Adını yağılarına tanıtdıraydın,
Millətlər önündə lərzəyə gələrdi!
3 Sən gözləmədiyimiz əzəmətli işlər
edəndə
Endin yer üzünə, dağlar önündə sarsıldı.
4 Ona e'tibar edənlər üçün belə işlər
edən Allahı,
Əzəldən bəri Səndən başqasını nə göz
görüb, nə də qulaq eşidib.
5 Saleh işlərə sevinclə əməl edənləri,
Sənin yolunla gedib Səni xatırlayanları
Sən qarşılayırsan.
Amma biz günaha batdıq, Sən
qəzəbləndin.
Beləcə xeyli vaxt yaşadıq,
Bəs biz necə xilas ola bilərik?
6 Hamımız elə bil ki murdarlandıq,
Bütün saleh əməllərimiz murdar əskiyə
bənzər.
Hamımız yarpaq kimi soluruq,
Şər əməllərimiz bizi külək tək sovurub-
aparır.
7 Sənin adını çəkən yoxdur,
Sənə bağlanmaq üçün can atan yoxdur.
Çünki bizdən üz döndərdin,
Şər əməllərimizə görə bizi yox etdin.

8 Yenə də, ya Rəbb, Sənsən Atamız:
Biz gilik, Sən isə dulusçu,
Biz hamımız Sənin əlinin işiyik.
9 Ya Rəbb, çox qəzəblənmə,
Şər əməllərimizi heç vaxt xatırlama,
Hamımız Sənin xalqınıq, bunu nəzərə al.
10 Müqəddəs şəhərlərin səhraya,
Sion çöllüyə döndü,
Yerusəlim viran qaldı.
11 Atalarımızın Sənə həmd etdikləri yer –
Müqəddəs, şanlı mə'bədimiz yandı,
Gözəl binalarımız xaraba qaldı.
12 Bütün bunlardan sonra,

***63:10*** *– Həv. 7:51*
***63:11-13*** *– Çıx. 14:21*

***64:4*** *– 1Kor. 2:9*

Ya Rəbb, yenə də Özünü
saxlayacaqsanmı?
Susub bizi nə qədər alçaldacaqsan?

### *Dikbaşlar cəza çəkəcək*

65 [1] «Məni soruşmayanlara Mən zühur
etdim,
Məni axtarmayanlar tərəfindən tapıldım.
Adımla çağırılmayan millətə dedim:
"Buradayam! Buradayam!"
[2] Pis yolla gedən,
Öz düşüncələri ilə hərəkət edən
Bütün günü dikbaş xalqa əllərimi uzadıb
durdum.
[3] O xalq ki bağlarda qurban kəsərək,
Kərpiclərin üstündə buxur yandırıb
Gözüm önündə daima Məni təhqir edir,
[4] Qəbiristanlıqda oturub
Gizli yerlərdə gecələyir,
Donuz əti yeyir,
Qablarında haram ət qaynadır.
[5] Onlar bir-birinə deyir: "Uzaq dur,
Mənə yaxınlaşma, çünki mən səndən
müqəddəsəm".
Beləlırı burnuma tüstü,
Bütün gün yanan alovdur.

[6] Budur, qarşımda bunlar yazılıb:
Mən susmayacağam,
Ancaq onların əvəzini verəcəyəm,
Əməllərini başlarına çevirəcəyəm.
[7] Onların da, atalarının da qəbahətlərinin
cəzasını
Onlara çəkdirəcəyəm».
Rəbb deyir.
«Dağların başında buxur yandırdıqlarına
görə,
Təpələrin başında Mənə küfr etdiklərinə
görə
Mən əvvəlki əməllərini ölçüb onların
əvəzini onlara çəkdirəcəyəm».

[8] Rəbb deyir:
«Üzüm salxımında şirə tapıldığına görə
deyirlər:
"Salxımı xarab etməyin, içində bərəkət
var".
Mən də qullarımın xatirinə belə edərəm
ki,
Onların hamısı məhv olmasın.

[9] Yaqubdan törəyənlərin sayını
artıracağam,
Yəhuda nəslindən dağlarıma varis
çıxacaq,
Seçilmiş xalqım oranı irs alacaq.
Mənim qullarım orada məskunlaşacaq.
[10] Məni axtaran xalqım üçün
Şaron sürülərin otlağı,
Akor vadisi mal-qaranın rahatlandığı yer
olacaq.

[11] Lakin sizlər – Rəbbi tərk edənlər,
Müqəddəs dağımı unudanlar,
Tale allahına süfrə açanlar,
Qismət allahına camlarda şərab təqdim
edənlər,
[12] Mən də sizi qılınca qismət edəcəyəm,
Hamınız qırılmaq üçün diz çökəcəksiniz.
Çünki Mən çağıranda sizdən cavab
almadım,
Danışanda qulaq asmadınız.
Gözümdə pis olanı etdiniz,
Mənə məqbul olmayanı seçdiniz».

[13] Buna görə də Xudavənd Rəbb belə
deyir:
«Qullarım yeyəcək, siz isə ac
qalacaqsınız,
Qullarım içəcək, siz isə susayacaqsınız,
Qullarım sevinəcək, siz isə utanacaqsınız.
[14] Qullarım şadlanıb mədhiyyələr
söyləyəcək,
Siz isə ürək ağrısından qışqıracaqsınız,
Kədərli ruhla fəryad edəcəksiniz.
[15] Sizin adınız seçilmiş xalqımın
Ağzında ancaq lə'nət kimi qalacaq.
Xudavənd Rəbb sizi öldürəcək,
Öz qullarına isə başqa ad verəcək.
[16] Ölkədə kim xeyir-dua istəsə,
Sadiq Allahdan diləyəcək.
Ölkədə kim and içsə,
Sadiq Allahın adı ilə and içəcək.
Çünki keçmiş əziyyətlər unudulub
Gözümün önündən yox olacaq.

### *Yeni yer, yeni göylər*

[17] Budur, Mən yeni göylər və yeni yer
yaradıram.
Əvvəlki işlər bir daha xatırlanmayacaq,

***65:1-2** – Rom. 10:20-21*

***65:10** – Yeşua 7:24-26*
***65:15** – Yeş. 62:2; Vəhy 2:17*
***65:17** – Yeş. 66:22; 2Pet. 3:13; Vəhy 21:1*

Heç yada düşməyəcək.
18 Yaratdığıma əbədilik sevinin, şadlanın.
Çünki sevinc üçün yeni Yerusəlimi,
Sakinlərini xoşbəxtlik üçün
yaradacağam.
19 Mən Yerusəlim üçün sevinəcəyəm,
Xalqım üçün şadlanacağam.
Orada nə ağlaşma, nə fəryad səsi
Bir daha eşidilməyəcək.
20 Uşaqlar artıq körpə çağlarında
ölməyəcək,
Uzun ömür sürməyən qoca olmayacaq,
Yüz yaşında ölənlər cavan sayılacaq,
Yüz yaşına çatmayanlar lə'nətli
sayılacaq.
21 Onlar evlər tikib orada məskunlaşacaq,
Meynəliklər əkəcək, bəhrələrindən
yeyəcək.
22 Tikdikləri evdə özgələr yaşamayacaq,
Əkdikləri bağın meyvələrini başqaları
yeməyəcək.
Çünki xalqım ağaclar tək uzun ömür
sürəcək,
Seçilmişlərim əllərinin işlərindən zövq
alacaq.
23 Onlar boş yerə əlləşməyəcək,
Övladları bəlalarla üzləşməyəcək.
Çünki özləri də, övladları da,
Rəbbin xeyir-dualı nəsli olacaq.
24 Onlar Məni çağırmamışdan
Mən onlara cavab verəcəyəm,
Onlar hələ danışarkən Mən eşidəcəyəm.
25 Qurdla quzu bir yerdə otlayacaq,
Şir buğa tək saman yeyəcək,
İlanın yediyi torpaq olacaq.
Müqəddəs dağımın heç bir yerində
Heç kimə zərər dəyməyəcək,
Heç bir kəs o birisini məhv etməyəcək».
Rəbb belə deyir.

### *Mühakimə və ümid*

66 1 Rəbb belə deyir:
«Göylər Mənim taxtımdır,
Yer ayaqlarımın altındakı kətildir.
Mənim üçün harada ev tikəcəksiniz,
Dincəldiyim yer harada olacaq?
2 Çünki bütün bunları Mənim əlim
yaratdı,
Hər şey beləcə əmələ gəldi» Rəbb bəyan
edir.
«Ancaq Mən həlim və ruhu əzilmiş
insana,
Sözümün önündə titrəyənə nəzər
salaram.

3 Buğa kəsən, adam öldürən kimidir,
Quzunu qurban kəsən, itin boynunu
qıran,
Taxıl təqdimi gətirən, donuz qanını
təqdim edən,
Kündür yandıran, bütə pərəstiş edən,
Bunlar hamısı eyni şeydir.
Bəli, bunlar öz yolları ilə gedir,
İyrənc işlərindən həzz alır.
4 Mən də onları çətinliyə düçar
edəcəyəm,
Qorxduqları bəlanı başlarına
gətirəcəyəm.
Çünki Mən çağıranda onlardan cavab
almadım,
Danışanda qulaq asmadılar,
Gözümdə pis olanı etdilər,
Mənə məqbul olmayanı seçdilər».

5 Ey Rəbbin sözü önündə titrəyənlər,
Onun dediklərini eşidin:
«Mənim adıma görə sizə nifrət edib
tə'qib edən soydaşlarınız
"Qoy Rəbb izzətini göstərsin,
Biz də baxaq, necə sevinərsiniz"
deyirdilər.
Amma onlar rüsvay olacaq.
6 Şəhərdən nə'rələr,
Mə'bəddən bir səs eşidilir!
Bu, düşmənlərindən qisas alan Rəbbin
səsidir.

7 Bir qadın ağrı çəkmədən,
Sancısı tutmadan bir oğlan uşağı doğdu.
8 Belə bir şey eşidən olubmu?
Belə şeyləri kim görüb?
Bir gündə ölkə əmələ gələrmi?
Bir anda millət doğularmı?
Amma Sion ağrısı tuta-tutmaya
övladlarını doğdu.
9 Mən doğuş anınadək gətirib
Doğmağa güc vermərəmmi?» deyir
Rəbb.

***65:19*** *– Vəhy 21:4*
***65:25*** *– Yeş. 11:6-9*
***66:1*** *– Mat. 5:34-35; 23:22*
***66:1-2*** *– Həv. 7:49-50*
***66:7*** *– Vəhy 12:5*

«Doğuş üçün güc verən Mən
Bətni bağlayarammı?» deyir Allahın.
10 «Yerusəlimlə birgə sevinin,
Ey onu sevənlər, hamınız onun üçün
şadlanın.
Ey Yerusəlim üçün yas tutanlar,
Onunla birgə coşun, fərəhlənin!
11 Siz ananız Yerusəlimin döşlərini əmib,
Təsəlli tapacaqsınız, doyacaqsınız,
Onun bol ne'mətlərindən dadıb zövq
alacaqsınız».

12 Rəbb belə deyir:
«Budur, Mən əmin-amanlığı bir çay tək,
Millətlərin sərvətini daşqın sel kimi
Ona sarı axıdacağam.
Siz ondan bəslənəcəksiniz,
Qucağında daşınacaqsınız,
Dizlərində oxşanacaqsınız.
13 Övladına təsəlli verən bir ana tək
Mən sizə təsəlli verəcəyəm.
Yerusəlimdə təsəlli tapacaqsınız.
14 Bunları görüb ürəyiniz sevinəcək;
Bədənləriniz yaşıl ot kimi qüvvələnəcək.
Hər kəs biləcək ki,
Rəbbin qoruyucu əli qullarının,
Qəzəbi isə düşmənlərinin üstündədir».

15 Budur, Rəbb odla gəlir,
Onun döyüş arabaları qasırğa tək gəlir.
Şiddətli qəzəbini, məzəmmətini
Alov kimi tökməyə hazırdır.
16 Rəbb bütün bəşəri odla,
Qılıncı ilə mühakimə edəcək,
Çoxlarını məhv edəcək.
17 «Bağlara girmək üçün
Özlərini təqdis edib pak edənlər,
Mərkəzdə duranın ardınca gedərək
Donuz, siçan və digər murdar
heyvanların
Ətini yeyənlərin hamısı məhv olacaq»
Rəbb bəyan edir.

18 «Çünki Mən onların əməllərini də,
fikirlərini də bilirəm. Bütün millətləri və
dilləri bir yerə topladığım vaxt gəlir. Onlar
gəlib Mənim əzəmətimi görəcək. 19 Mən
aralarında bir əlamət qoyacağam. Onlardan
qaçıb-qurtulanları Mən millətlərə – Tarşişə,
Pula, mahir oxatanların vətəni Luda, Tuvala,
Yavana, şöhrətimi eşitməyən, əzəmətimi
görməyən uzaq diyarlara göndərəcəyəm.
Onlar Mənim əzəmətimi bu millətlər arasında
bəyan edəcək. 20 İsrail övladları Rəbbin
mə'bədinə pak qablarda təqdimlərini nə cür
gətirirlərsə, onlar da bütün millətlərdən
soydaşlarını atlarla, arabalarla, taxt-rəvanlarla,
qatırlarla, dəvələrlə müqəddəs dağıma,
Yerusəlimə, Rəbbə təqdim edəcək.
21 Onlardan bə'zisini Mən kahin və Levili
seçəcəyəm» Rəbb bəyan edir.

22 «Yaratdığım yeni göylər və yeni yer
Önümdə necə durursa, nəsliniz, adınız belə
duracaq» Rəbb bəyan edir. 23 «Hər Təzə Ay
mərasimində, hər Şənbə günündə bütün bəşər
gəlib qarşımda səcdə edəcək». Rəbb deyir.
24 «Onlar eşiyə çıxanda Mənə qarşı asi
çıxanların meyitlərini görəcək. Meyitləri
yeyən qurd ölməyəcək, onları yandıran alov
sönməyəcək. Bütün bəşər onlardan
iyrənəcək».

***66:22** – Yeş. 65:17; 2Pet. 3:13; Vəhy 21:1*
***66:24** – Mrk. 9:48*